Xalqın qəzeti!

# Xalq qəzeti

№ 218 (30912) 10 oktyabr 2025-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Rusiya ilə əlaqələrimiz bütün istiqamətlərdə uğurla inkişaf edir

## Azərbaycan Prezidenti İlham Əliyevin Tacikistana səfəri

## Azərbaycan Prezidenti İlham Əliyevin Rusiya Prezidenti Vladimir Putin ilə təkbətək görüşü



**Oktyabrın 9-da Düşənbədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə təkbətək görüşü olub.**

Görüşdə çıxış edən **Prezident Vladimir Putin** dedi:

– Hörmətli İlham Heydər oğlu.

Bu yaxınlarda biz – doğrudur, Pekində hər halda qısa da olsa görüşdük. Buna qədər bir neçə dəfə telefonla danışmışıq.

Görüşümüzə daha həssas mövzu - bizim hava məkanında baş verən aviasiya faciəsi ilə başlamaq istərdim. Artıq həmin vaxt bizim aramızda birinci telefon danışığı əsnasında mən faciənin məhz Rusiya səmasında baş verdiyinə görə üzr istədim, həm də həlak olanların ailələrinə ən səmimi başsağlığı verdim. İstərdim ki, bütün bunları təkrar edim, yenidən söyləyim və qeyd edim, biz sözsüz ki, razılaşdığımız kimi, istintaqa hər cür kömək göstəririk.

İstintaq başa çatmaq üzrədir və indi ümumilikdə bu faciənin, bu qəzanın səbəbləri barədə danışmaq olar. O, bir neçə amillə əlaqədardır.

Birincisi ondan ibarətdir ki, səmada Ukraynanın pilotsuz uçuş aparatı vardı. Biz faciə günü gecə Rusiya Federasiyasının sərhədini keçən üç belə pilotsuz aparatı eyni vaxtda izləyirdik.

*(ardı 2-ci səhifədə)*

## Azərbaycan–Rusiya: münasibətlərin müttəfiqlik ruhu üstün gəldi

*Kremlin təşəbbüsü ilə keçirilən görüşdə narahatlıq doğuran məsələlərə aydınlıq gətirildi*

**Dünən Düşənbədə Azərbaycan Prezidenti İlham Əliyevlə Rusiya Prezidenti Vladimir Putinin təkbətək görüşü qarşılıqlı anlaşma, konstruktiv və işgüzar atmosferdə keçdi.**

Söhbət zamanı AZAL-ın təyyarəsi ilə bağlı baş vermiş faciədən ötən 10 ay ərzində Azərbaycan rəhbərliyini və ictimaiyyətini narahat edən, bəzi qaranlıq məqamları ilə haqlı narazılığa səbəb olan mövzuya diqqət yetirildi. Axır ki, Azərbaycan vətəndaşları, məlum qəzada həlak olan soydaşlarımızın ailələri gündəmdə olan sualların cavabını birbaşa Rusiya Prezidenti Vladimir Putinin dilindən eşitdilər.

Rusiya liderinin qısa məlumatında qəza ilə bağlı hadisədən az sonra üzr istənildiyi xatırlandı, rəsmi Moskvanın baş vermiş faciəyə görə məsuliyyətdən boyun qaçırmaması açıq ifadəsini tapdı: "Görüşümüzə daha həssas mövzu - bizim hava məkanında baş verən aviasiya faciəsi ilə başlamaq istərdim. Artıq həmin vaxt bizim aramızda birinci telefon danışığı əsnasında mən faciənin məhz Rusiya səmasında baş verdiyinə görə üzr istədim, həm də həlak olanların ailələrinə ən səmimi başsağlığı verdim. İstərdim ki, bütün bunları təkrar edim, yenidən söyləyim və qeyd edim, biz sözsüz ki, razılaşdığımız kimi, istintaqa hər cür kömək göstəririk".

*(ardı 3-cü səhifədə)*

## Türk xalqlarının minillik arzusu



Səhifə ⇨ 7

## Qəbələ Zirvəsindən görünən gələcək



Səhifə ⇨ 4

## Ermənilər "Gümrü anlaşması"ndan niyə qorxurlar?



**Son zamanlar 1920-ci il dekabrın 2-dən 3-nə keçən gecə Ermənistan Respublikası Hökuməti ilə Türkiyə Böyük Millət Məclisi Hökuməti arasında imzalanan anlaşmadan – Aleksandropol ("Gümrü anlaşması") müqaviləsindən tez-tez bəhs edilir. Aleksandropol müqaviləsi 1920-ci il Ermənistan–Türkiyə müharibəsində erməni tərəfinin kapitulyasiya sənədidir. Bu sənədin yada salınmasının səbəbləri var.**

*(ardı 7-ci səhifədə)*

# Bir "+", min imkan: Türk dünyasının yeni üfüqləri

*"TDT+" formatına ən real namizəd Pakistandır*



**Dünya artıq köhnə blokların orbitindən çıxır, yeni diplomatik qütblər doğulur. Avrasiya məkanında formalaşan yeni reallıq fonunda dövlətlər "plyus" modelləri ilə – yəni öz ətrafında tərəfdaş ölkələri, müşahidəçiləri və iqtisadi aktorları birləşdirən açıq formatlarla siyasi çəkisini artırmağa çalışır. "BRICS+", "ŞƏT+", indi isə "TDT+". Bu ardıcıllıq təsadüfi deyil. Bu, post-Qərb dövrünün paroludur: qapalı alyanslar dövrü bitir, çevik diplomatiya və çoxsəviyyəli əməkdaşlıq mərhələsi başlayır.**

*(ardı 4-cü səhifədə)*

## Mərkəzi Asiyadan Xəzər regionuna nəqliyyat körpüsü



Səhifə ⇨ 9

## Gürcüstan xalqı milli maraqlara sadiq qaldı



Səhifə ⇨ 6

## Ermənistanda hakimiyyətə etimadsızlıq çağırışı



Səhifə ⇨ 6

# Hibrid təhdidlər fonunda yeni mənzərə



## Kiberhücumlar və texnoloji sabotajlar müasir təhlükəsizlik anlayışını dəyişir

**Son illər Avropa təhlükəsizlik və sabitlik baxımından ən mürəkkəb dövrlərindən birini yaşayır. Təhlükəsizliyə qarşı təhdidlər daha çox "boz zona" adlandırılan hibrid hücumlar şəklində özünü büruzə verir. Məsələdən narahat olan Avropa İttifaqı (Aİ) rəhbərliyinin bəyanatları problemin qarşısının alınması məqsədilə daha ciddi addımların atılmasının vacibliyini göstərir.**

*(ardı 5-ci səhifədə)*

# Azərbaycan Prezidenti İlham Əliyevin Tacikistana səfəri

## Düşənbə Beynəlxalq Aeroportunda qarşılanma





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun dəvəti ilə MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün oktyabrın 9-da Düşənbəyə səfərə gəlib.**

Düşənbə Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidentini Tacikistan Respublikası Ali Məclisi Milli Məclisinin sədri Rüstəm Emoməli və digər rəsmi şəxslər qarşıladılar.

## Prezident İlham Əliyev MDB dövlət başçılarının qeyri-rəsmi şam yeməyində iştirak edib



**Oktyabrın 9-da Düşənbədə MDB dövlət başçılarının qeyri-rəsmi şam yeməyi olub.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

*AZƏRTAC*

## Azərbaycan Prezidenti İlham Əliyevin Rusiya Prezidenti Vladimir Putin ilə təkbətək görüşü



**(əvvəli 1-ci səhifədə)**

İkinci səbəb Rusiyanın hava müdafiə sisteminin özündə texniki nasazlığın olmasından ibarətdir. Buraxılan iki raket birbaşa təyyarəyə dəyməyib, - əgər bu baş versəydi, təyyarə yerindəcə məhv olardı, - raketlər partlayıb, ola bilər ki, bu, bir neçə metr məsafədə, təqribən 10 metrlik məsafədə özünü məhv etmək olub. Ona görə də təyyarə zədələnib, amma əsas məsələ odur ki, məhvedici döyüş elementləri ilə deyil, yəqin raketin parçalarının özü ilə. Məhz bu səbəbdən pilot hadisəni quş sürüsü ilə toqquşma kimi qiymətləndirib, bu barədə rusiyalı dispetçerlərə məlumat verib, bütün bunlar "qara qutular"da qeyd olunub. Həmçinin ona təklif olunub ki, - bu da "qara qutular"da var, yaxşı eşidilir, - Mahaçqalaya eniş etsin, amma o, qalxdığı aeroporta qayıtmaqla bağlı qərar qəbul edib, sonra isə Qazaxıstana uçub. Bununla belə, fakt faktlığında qalır.

Faciənin səbəblərini indi Sizə təqdim etdim. Bütün bunlar baş verənlərin texniki xarakteristikasının dəqiq analizindən və "qara qutular"ın nəticələrinin saniyəbəsaniyə yoxlanılmasından sonra sənədlərdə öz əksini tapıb.

Biz Sizinlə bu mövzunu sonradan müzakirə etdik. Sözsüz ki, belə hallarda, bu cür faciəli vəziyyətlərdə tələb olunduğu kimi, Rusiya tərəfindən kompensasiya üzrə hər şey ediləcək və bütün vəzifəli şəxslərin hərəkətlərinə hüquqi qiymət veriləcək.

Əlbəttə, bu faciə ilə bağlı ailələrin dəstəklənməsinə, onlara mənəvi dəstək verilməsinə yönəlmiş bütün sözlər belə hallarda əsas problemi həll etmir – faciə nəticəsində həlak olmuş insanları həyata qaytarmaq mümkün deyil.

Amma bizim borcumuz, bir daha təkrar edirəm, biz Sizinlə əvvəldən baş verənlərə obyektiv qiymət vermək və əsl səbəbləri üzə çıxarmaq barədə razılaşmışdıq. Ancaq bu, müəyyən vaxt tələb edir. Qəti nöqtəni qoymaq üçün yəqin ki, hələ bir az vaxt tələb olunacaq. Amma ümumilikdə, mən Sizə əsasən elə bu görüşümüz ərəfəsində - dünən, srağagün aldığım məlumatları çatdırdım. Hətta düzünü desək, bu gün gecə Moskvaya zəng etdim və əlavə hər hansı detalların olduğunu soruşdum. Demək olar ki, Sizə mənə məlum olanların hamısını danışdım. Bu, birinci hissədir.

İkincisi. Qeyd etmək istərdim ki, buna baxmayaraq, bizim maraqlarımız, qarşılıqlı maraqlarımız bir çox sahələrdə üst-üstə düşür və çox yaxındır. Əlbəttə, hər şeydən əvvəl bu, iqtisadi-ticari əlaqələrə aiddir. Bu faciə ilə əlaqədar indi danışdığım bütün nüanslara, onunla əlaqədar hansısa məsələlərə baxmayaraq, iqtisadi-ticari əlaqələr inkişaf edib və uğurla inkişaf edir. Keçən il ticarət dövriyyəsində təqribən 6 faiz, bu il isə 16 faizdən çox artım olub. Bu, çox yaxşı göstəricidir.

Sizin bu mövzuya diqqətiniz sayəsində bizim humanitar əlaqələrimiz həmişə yüksək səviyyədə olub. Ancaq biz indi bu barədə hələ danışacağıq. Birincisi, bununla bağlı Sizə minnətdarıq, ikincisi, əlbəttə, özümüz də hər şeyi edəcəyik ki, bu dinamika qorunub saxlanılsın.

Təbii ki, bizim XİN-lər regionda vəziyyətlə bağlı, ümumilikdə beynəlxalq arenada şəraitlə əlaqədar həmişə bir-biri ilə çox sıx fəaliyyət göstərib. Ümidvaram ki, bu əməkdaşlıq, sadəcə, bərpa olunmayacaq, həm də bizim münasibətlərimizin, müttəfiqliyimizin ruhunda davam edəcək. Biz bunu heç vaxt unutmuruq, o qədər də uzaq olmayan keçmişdə imzalanan müqaviləni xatırlayırıq və öz tərəfimizdən hər şeyi edəcəyik ki, onun bütün əsas müddəaları həyata keçirilsin.

Sizə təşəkkür edirəm.

*

Sonra çıxış edən **Prezident İlham Əliyev** dedi:

– Vladimir Vladimiroviç, çox sağ olun.

Əvvəlcə görüşə görə Sizə təşəkkürümü bildirmək istərdim. Siz qeyd etdiyiniz kimi, biz Pekində Sizinlə qısaca görüşdük, həmçinin elə iki gün əvvəl doğum gününüzlə əlaqədar Sizə zəng etdim. Fürsətdən istifadə edərək, Sizi bir daha təbrik etmək və Sizə, yaxınlarınıza, dost Rusiya xalqına ən xoş arzularımı çatdırmaq istərdim.

Əlbəttə, Azərbaycan Hava Yollarının təyyarəsinin keçən ilin dekabrında qəzaya uğraması ilə bağlı faciə haqqında ətraflı informasiyaya görə xüsusilə təşəkkür edirəm. Biz Sizinlə dərhal təmasa keçdik. Xatırlayırsınızsa, bu faciəli gündə mən Sankt-Peterburqda görüşə uçurdum və mənə məlumat verildikdə təyyarədən dərhal Sizə zəng etdim və bir-birimizə başsağlığı verdik. Həmçinin Sizdən MDB-nin qeyri-rəsmi sammitində iştirak edən həmkarlarımıza da obyektiv səbəblərdən bu tədbirdə iştirak edə bilməyəcəyimi çatdırmağınızı xahiş etdim.

Eyni zamanda, bu vəziyyəti nəzarətdə saxladığınıza görə Sizə təşəkkür etmək istərdim. Sizinlə dəfələrlə fikir mübadiləsi aparmışıq, həmçinin komandalarımızın üzvləri daim təmasdadırlar. Siz şəxsən istintaqın gedişinə nəzarət edirsiniz və bizim heç bir şübhəmiz olmayıb ki, o, bütün məsələləri obyektiv araşdıracaq. Ona görə də bizim görüşümüzdə məhz bu məsələyə aydınlıq gətirməyi zəruri hesab etdiyiniz üçün Sizə bir daha minnətdarlığımı ifadə etmək istərdim.

Siz qeyd etdiyiniz kimi, bu il təkcə iqtisadi-ticari münasibətlər deyil, həm də bütün istiqamətlər üzrə əlaqələr uğurla inkişaf edir, əmtəə dövriyyəsinin artımında yaxşı dinamika mövcuddur. Həmçinin bütün başqa istiqamətlər üzrə heç bir yerdə hər hansı gecikmə və yaxud geriləmə olmayıb. Əksinə, Sizinlə təsdiq etdiyimiz yol xəritələri uğurla həyata keçirilir.

Həmçinin bu yaxınlarda Rusiya-Azərbaycan Hökumətlərarası Komissiyasının iclası keçirilib, həmsədrlər təkcə iqtisadi-ticari deyil, bütün məsələlərin geniş spektrini ətraflı müzakirə ediblər.

Əlbəttə, bu gün gündəliyi bir daha nəzərdən keçirmək üçün yaxşı imkandır. O, kifayət qədər geniş və müsbətdir. Beləliklə, bu informasiyaya görə bir daha təşəkkür edirəm və əminəm ki, bu gün cəmiyyətlərimizə göndərdiyiniz mesajlar da müsbət qarşılanacaq.

**Prezident Vladimir Putin:** Sağ olun.

**Prezident İlham Əliyev:** Sağ olun.

## Azərbaycan, Gürcüstan və Türkiyə müdafiə nazirlərinin üçtərəfli görüşü




**Oktyabrın 9-da Azərbaycan, Gürcüstan və Türkiyə müdafiə nazirləri arasında 12-ci üçtərəfli görüş keçirilib.**

Türkiyənin Ankara şəhərində keçirilən görüşdə xalqlarımız arasında mehriban qonşuluq və dostluq münasibətlərinin, qarşılıqlı əlaqələrin dövlət və hökumət başçılarımızın rəhbərliyi ilə daim inkişaf etdiyi diqqətə çatdırılıb.

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov, Türkiyə Respublikasının milli müdafiə naziri Yaşar Güler və Gürcüstanın müdafiə naziri İrakli Çikovani regionda mövcud hərbi-siyasi vəziyyət, üçtərəfli formatda hərbi əməkdaşlığın inkişaf etdirilməsi, regional layihələrin təhlükəsizliyinin təmin olunması məsələlərini, eləcə də hərbi, hərbi-texniki, hərbi təhsil və hərbi tibb sahələrində əməkdaşlığın yeni perspektivlərini müzakirə ediblər.

Görüşdə müdafiə sahəsində üçtərəfli əməkdaşlığın bölgədə sülhün, sabitliyin və təhlükəsizliyin, davamlı inkişafın, eləcə də xalqlarımızın rifahının təmin olunması baxımından mühüm rol oynadığı xüsusi qeyd olunub.

Üçtərəfli görüşün yekununa dair protokol imzalandıqdan sonra media nümayəndələri üçün mətbuat konfransı keçirilib.

## "İtkin düşmüş şəxslər probleminin həlli üçün səylərin birləşdirilməsi və əməkdaşlığın genişləndirilməsi" mövzusunda beynəlxalq konfransın iştirakçılarına

**Hörmətli konfrans iştirakçıları!**

Sizi itkin düşmüş şəxslər mövzusuna həsr olunmuş beynəlxalq konfransda səmimi-qəlbdən salamlayıram.

İtkin düşmüş şəxslər məsələsi dünyanı narahat edən mühüm bəşəri problemlərdən biridir. İllər keçdikcə bu problem aktuallığını itirməmiş, əksinə, daha kəskin xarakter almışdır. Birləşmiş Millətlər Təşkilatının məlumatına görə son iyirmi il ərzində itkin düşənlərin sayında 2024-cü ildə ən yüksək artım qeydə alınmış, həmin il münaqişə bölgələrində 57 minə yaxın insan itkin düşmüşdür. Bu, silahlı münaqişələr dövründə beynəlxalq hüquq normalarına məhəl qoyulmamasının acı nəticəsidir.

Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə başlamış və 30 ildən artıq davam etmiş müharibənin doğurduğu humanitar faciələrdən biri də içərisində uşaqlar, qadınlar və ahılların olduğu 4000-dək azərbaycanlının itkin düşməsidir. Torpaqlarımızın işğaldan azad edilməsindən sonra həmin ərazilərdə 29 kütləvi məzarlıq aşkar edilmişdir. Məzarlıqlardan tapılmış meyitlərin qalıqlarının ekspertizası qətlə yetirilmiş azərbaycanlıların dəhşətli işgəncələrə məruz qoyulduqlarını sübut edir. Bu, çox ağır mənzərədir. İnsanların kütləvi şəkildə, işgəncə ilə öldürülməsi, qeyri-insani qaydada basdırılması və cinayətin izlərinin itirilməsi beynəlxalq hüquq normalarının ciddi pozuntusudur.

Qarabağ müharibəsində itkin düşmüş şəxslərin taleyinə aydınlıq gətirilməsi daim qarşımızda duran önəmli vəzifələrdən olmuşdur. 1993-cü ildən Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası fəaliyyət göstərir. Bu günə qədər müharibə dövründə itkin düşmüş 187 nəfərin şəxsiyyəti eyniləşdirilmiş və onlar dəfn edilmişlər.

2025-ci il avqustun 8-də Vaşinqtonda Amerika Birləşmiş Ştatları Prezidentinin iştirakı ilə Azərbaycan və Ermənistan arasında Birgə Bəyannamənin imzalanması və sülh sazişinin paraflanması böyük tarixi hadisə olmaqla, Cənubi Qafqaz regionunda davamlı sülhün və sabitliyin təmin edilməsi üçün yeni imkanlar yaradır. Sülh sazişinə münaqişə dövründə itkin düşmüş şəxslərlə bağlı xüsusi bir maddənin salınması məsələyə verdiyimiz önəmin təzahürüdür və sazişdə də təsbit olunduğu kimi bu şəxslərin taleyinə aydınlıq gətirilməsi tərəflər arasında barışıq və etimad mühitinin yaradılmasında əhəmiyyətli vasitədir. Bu baxımdan, Ermənistan tərəfi azərbaycanlıların qətlə yetirilərək basdırıldığı digər kütləvi məzarlıqların yeri barədə Azərbaycan tərəfinə məlumat verməlidir.

Azərbaycan dövləti itkin düşmüş şəxslər probleminə beynəlxalq birliyin diqqətinin artırılması üçün böyük səy göstərir. Artıq üçüncü dəfədir ki, ölkəmiz itkin düşmüş şəxslər mövzusuna həsr olunmuş beynəlxalq tədbirə ev sahibliyi edir. Azərbaycan itkin düşmüş şəxslərlə bağlı BMT Baş Assambleyasında qətnamələrin qəbul edilməsi üzrə 2002-ci ildən təşəbbüslərlə çıxış etməklə, dövlətləri və beynəlxalq təşkilatları bu istiqamətdə lazımi tədbirlər görməyə təşviq edir. Zənnimcə, BMT bu sahədə səylərini daha da artırmalıdır.

Əminəm ki, bu konfrans çərçivəsində keçiriləcək müzakirələr itkin düşmüş şəxslər probleminin həlli istiqamətində beynəlxalq əməkdaşlığın gücləndirilməsinə mühüm töhfə verəcəkdir.

Bir daha sizi salamlayır və konfransın işinə uğurlar arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 9 oktyabr 2025-ci il**

## Azərbaycanla Slovakiya arasında hərbi-texniki sahədə əməkdaşlıq müzakirə olunub



**Oktyabrın 9-da müdafiə nazirinin birinci müavini – Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev ölkəmizdə rəsmi səfərdə olan Slovakiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general Daniel Zmekonun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Görüşdə general-polkovnik K.Vəliyev Azərbaycanla Slovakiya arasında hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün geniş imkanların olduğunu vurğulayıb.

General D.Zmeko bu cür səfərlərin iki ölkə arasında hərbi əlaqələrin genişləndirilməsi və ordularımızın inkişafı baxımından əhəmiyyətli olduğunu diqqətə çatdırıb.

Görüşdə, həmçinin Azərbaycanla Slovakiya arasında müdafiə sahəsində maraq doğuran bir sıra məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

Sonra nümayəndə heyəti Kibertəhlükəsizlik Mərkəzində olub. Qonaqlar, həmçinin Hərbi Hava Qüvvələrinin Döyüşü İdarəetmə Mərkəzində yaradılmış şəraitlə də tanış olublar.

*XQ*

## Venesuela VSP heyəti YAP-da



**Oktyabrın 9-da Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ilə Venesuela Bolivar Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Kristofer Alberto Martinez Berroteran arasında görüş keçirilib.**

Görüşdə dövlət başçılarının iki ölkə arasında əlaqələrin inkişafına mühüm önəm verdikləri, müxtəlif istiqamətlərdə, o cümlədən energetika, təhsil, gənclər və idman, turizm, mədəniyyət və digər sahələrdə səmərəli əməkdaşlıq üçün geniş potensialın mövcud olduğu qeyd edilib.

Azərbaycan ilə Venesuelanın qlobal müstəvidə, o cümlədən Birləşmiş Millətlər Təşkilatı, Qoşulmama Hərəkatı kimi beynəlxalq təşkilatlar səviyyəsində işbirliyini diqqət mərkəzində saxlayaraq bir-birinin mənafelərini müdafiə etdikləri, eləcə də ərazi bütövlüyü və suverenliyini dəstəklədikləri vurğulanıb.

Görüşdə Yeni Azərbaycan Partiyası ilə Venesuela Vahid Sosialist Partiyası arasında gələcək əməkdaşlıq perspektivləri də müzakirə olunub.

*XQ*

# Azərbaycan–Rusiya: münasibətlərin müttəfiqlik ruhu üstün gəldi

**(əvvəli 1-ci səhifədə)**

Bu yüksəksəviyyəli izahat son bir ildə ikitərəfli münasibətləri müşayiət edən soyuqluğa son qoyulması üçün göstərilən təşəbbüslərin nəticəsi kimi qarşılandı. Rusiya liderinin belə müsbət çalarlarla zəngin açıqlaması Moskva–Bakı dialoqunun inamla davam etdirilməsinə, əlaqələrin əvvəlki məcraya qaytarılmasına meydan açır.

Rusiya liderinin Düşənbədə Azərbaycan Prezidenti İlham Əliyevlə təkbətək görüşdə söylədiklərinin siyasi tutumuna və diplomatik məna yükünə diqqət yetirsək, anlaşmanın hansı ruhda davam edəcəyini də başa düşmək olar: "Amma bizim borcumuz, bir daha təkrar edirəm, biz Sizinlə əvvəldən baş verənlərə obyektiv qiymət vermək və əsl səbəbləri üzə çıxarmaq barədə razılaşmışdıq. Ancaq bu, müəyyən vaxt tələb edir. Qəti nöqtəni qoymaq üçün yəqin ki, hələ bir az vaxt tələb olunacaq".

Məlum təyyarə qəzasından sonra liderlərin ilk dəfə keçirilən üzbəüz görüşü təkcə iki ölkənin deyil, dünya mediasının da diqqət mərkəzində idi. Əsas gözləntilər isə məlum təyyarə qəzası ilə bağlı iki ölkə arasında yaşananlara Rusiya liderinin necə şərh verəcəyi idi. Prezident Vladimir Putin təyyarə qəzasına ölkəsinin münasibətini belə açıqladı: "Birincisi ondan ibarətdir ki, səmada Ukraynanın pilotsuz uçuş aparatı vardı. Biz faciə günü gecə Rusiya Federasiyasının sərhədini keçən üç belə pilotsuz aparatı eyni vaxtda izləyirdik. İkinci səbəb Rusiyanın hava müdafiə sisteminin özündə texniki nasazlığın olmasından ibarətdir".

Rusiya rəhbərinin sözlərinə görə, buraxılan iki raket birbaşa təyyarəyə dəyməyib: "... Əgər bu baş versəydi, təyyarə yerindəcə məhv olardı, - raketlər partlayıb, ola bilər ki, bu, bir neçə metr məsafədə, təqribən 10 metrlik məsafədə özünü məhv etmək olub. Ona görə də təyyarə zədələnib".

Moskvanın AZAL təyyarəsinin qəzaya uğramasının səbəblərinin araşdırılmasına hər cür kömək göstərdiyini qeyd edən Rusiya Prezidenti, əvvəlcədən razılaşdırıldığı kimi, istintaqla əməkdaşlıq etdiklərini, onun yekunlaşmaq üzrə olduğunu da azərbaycanlı həmkarının nəzərinə çatdırdı.

Rusiya liderinin məlum insidentlə bağlı açıq və konkret mövqeyinin nümayişi sayılacaq bu açıqlama davam edən qeyri-müəyyənliyin aradan qaldırılmasına xidmət etdiyini, məsələnin həlledilmə mərhələsində olduğunu göstərir.

Düşənbə görüşündə diqqətçəkən əsas məqamlardan biri də Vladimir Putinin Moskva ilə Bakı arasında münasibətlərin müttəfiqlik ruhunda davam edəcəyinə ümidvar olduğunu bildirməsi oldu: "Sizin bu mövzuya diqqətiniz sayəsində bizim humanitar



əlaqələrimiz həmişə yüksək səviyyədə olub".

Rusiya Prezidenti Moskvanın da, öz növbəsində, bu dinamikanı saxlamaq üçün əlindən gələni əsirgəməyəcəyini vurğuladı: "Ümidvaram ki, bu əməkdaşlıq, sadəcə, bərpa olunmayacaq, həm də bizim münasibətlərimizin, müttəfiqliyimizin ruhunda davam edəcək. Biz bunu heç vaxt unutmuruq, o qədər də uzaq olmayan keçmişdə imzalanan müqaviləni xatırlayırıq və öz tərəfimizdən hər şeyi edəcəyik ki, onun bütün əsas müddəaları həyata keçirilsin".

Öz növbəsində, Azərbaycan Prezidenti İlham Əliyev AZAL-ın təyyarəsinin qəzaya uğraması ilə bağlı vəziyyəti nəzarətdə saxladığına, istintaqın gedişinə şəxsən nəzarət ediyinə görə Rusiya Prezidenti Vladimir Putinə minnətdarlığımı bildirdi: "Siz şəxsən istintaqın gedişinə nəzarət edirsiniz və bizim heç bir şübhəmiz olmayıb ki, o, bütün məsələləri obyektiv araşdıracaq. Ona görə də bizim görüşümüzdə məhz bu məsələyə aydınlıq gətirməyi zəruri hesab etdiyiniz üçün Sizə bir daha minnətdarlığımı ifadə etmək istərdim".

*

Sonda bir məsələni də qeyd etməyi vacib sayırıq. Bu, Azərbaycan cəmiyyətinə, xalqına, onun liderinə qarşı Rusiyada bu gün də kəsilməyən anti-Azərbaycan ritorikasının, ideoloji kampaniyanın və erməniپərəst qüvvələrin məqsədyönlü fəaliyyətinin ictimai rəydə, düşüncələrdə buraxdığı ciddi narahatlıqdır. Güman edirik ki, Vladimir Putinin Düşənbədən, faktiki olaraq, həm də dünyaya verdiyi açıqlamalar bu məsələyə də müəyyən aydınlıq gətirməklə bədxah kampaniyanın sona çatmasına verilən mesaj oldu.

Azərbaycanla Rusiya arasında münasibətləri pozmağa, ona xələl gətirməyə can-dildən çalışan qüvvələr – simonyanlar, solovyovlar, zatulinlər və bu qəbildən olan digərlərinin məkrli niyyətləri gözlərində qaldı. Başqa cür ola da bilməzdi. Çünki Rusiya rəhbərliyinin siyasi iradəsi, ikitərəfli münasibətlərin qonşuluq, qarşılıqlı anlaşma və strateji tərəfdaşlıq ruhuna söykənən praqmatik yanaşması sayəsində sağlam məntiq qalib gəldi.

Əlbəttə, dünən Düşənbədə liderlərin görüşündə eşitdiklərimiz və gördüklərimiz hər iki tərəfin gözləntisi idi. Dövlət başçılarının nümayiş etdirdikləri siyasi iradə və qətiyyət, cəmiyyətlərə ünvanladıqları açıq-dolayı diplomatik mesajlar sülh və əmin-amanlıq şəraitində əməkdaşlığın daha sürətlə davam etdiriləcəyindən xəbər verir.

Düşənbə görüşündən bir gün əvvəl Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov maraqlı açqlama vermişdi: "Görüşün baş tutması faktının özü iki liderin bütün aktual məsələləri müzakirə etmək niyyətindən xəbər verir".

Peskov haqlı imiş. Onun nikbin proqnozu xalqımızın "niyyətin hara, mənzilin də ora" kəlamının müdrikliyini bir daha təsdiqlədi. Bəli, niyyətimiz milli marağımızın qorunması, mənzilimiz tələbimizin qəbul edilməsi idi. Görüş isə göstərdi ki, niyyət saf, münasibətlər səmimi olanda anlaşma ilə başa çatır.

***İmran BƏDİRXANLI***
***XQ***

# İtkinlərin taleyi naminə beynəlxalq həmrəylik

## *Bu həssas mövzu Bakıda qlobal müzakirəyə çevrildi*

**Dünən Bakıda – Gülüstan sarayında Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının təşkilatçılığı ilə İtkin düşmüş şəxslər üzrə Bakı Dialoqu çərçivəsində "İtkin düşmüş şəxslər probleminin həlli üçün səylərin birləşdirilməsi və əməkdaşlığın genişləndirilməsi" mövzusunda növbəti beynəlxalq konfrans keçirilib.**



Dünyanın müxtəlif ölkələrində və ölkəmizdə müvafiq sahədə fəaliyyət göstərən təsisatların nümayəndələrinin iştirakı ilə keçirilən tədbirdə əvvəlcə Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının sədri general-polkovnik Əli Nağıyev Prezident İlham Əliyevin konfrans iştirakçılarına müraciətini oxuyub, sonra isə açılış nitqi söyləyib.

Xidmət rəisi itkin düşmüş şəxslərlə bağlı artıq üçüncü ildir təşkil olunan beynəlxalq tədbirin məqsəd və əhəmiyyəti barədə məlumat verərək Prezident İlham Əliyevə hər il olduğu kimi konfransın keçirilməsində göstərdiyi dəstəyə və bu həssas mövzuya verdiyi önəmə görə təşəkkürünü bildirdi. İtkin düşmüş vətəndaşlarımızın taleyinin aydınlaşdırılması məsələsində dövlətimizin başçısının qətiyyətli və prinsipial mövqeyini qeyd etdi.

Əli Nağıyev bildirdi ki, Dövlət Komissiyasında 3990 nəfər itkin düşmüş şəxs kimi qeydiyyata alınıb: "Onlardan 3984 nəfəri XX əsrin 90-cı illərində, yəni I Qarabağ müharibəsində, 6 nəfəri isə 2020-ci ildə baş vermiş 44 günlük Vətən müharibəsində itkin düşmüşlər. 3990 nəfərdən 3211 nəfəri hərbçi, 779 nəfəri mülki şəxslərdir. Mülki şəxslərdən 71 nəfəri yetkinlik yaşına çatmamış uşaq, 284 nəfəri qadın, 316 nəfəri qocalardır. Dövlət Komissiyası ilə Beynəlxalq Qırmızı Xaç Komitəsinin vaxtilə Azərbaycan Respublikasında fəaliyyət göstərmiş nümayəndəliyi arasında 2008-ci ildə imzalanmış "İtkin düşmüş şəxslər haqqında Ante Mortem məlumatların toplanması və mərkəzləşdirilmiş şəkildə idarə olunması üzrə" çərçivə Sazişinə uyğun olaraq, 2014-cü ildən etibarən itkin düşmüş Azərbaycan vətəndaşlarının yaxın qohumlarından bioloji nümunələrin toplanılmasına başlanılmışdır. Hazırda 3800-dən çox itkin şəxslə bağlı 11 mindən artıq donordan bioloji nümunələr toplanılıb sistemləşdirilmişdir. Mütəxəssislər itkin düşmüş şəxslərin böyük əksəriyyətinə aid bioloji nümunələrin toplanılmasını müsbət qiymətləndirir. Vurğulamalıyam ki, itkin düşmüş vətəndaşlarımıza aid məzar yerlərinin müəyyən olunması, zəruri qazıntı və ekshumasiya işlərinin aparılması Dövlət Komissiyasının qarşısında duran ən ümdə vəzifələrdəndir. Bu fonda 2020-ci ilin noyabr ayında başa çatmış II Qarabağ müharibəsindən sonra, daha dəqiq desək, 2021-ci ilin fevral ayından etibarən intensiv şəkildə itkin düşmüş şəxslərə aid olduğu ehtimal edilən məzar yerlərinin axtarışı, qazıntı, ekshumasiya və aşkarlanmış meyit qalıqlarının eyniləşdirilməsi prosesinə başlanılıb. 2025-ci il oktyabrın 1-nə olan məlumata əsasən, 800-ə yaxın itkin düşmüş şəxsə aid olduğu ehtimal edilən meyit qalıqları aşkarlanaraq işğaldan azad edilmiş ərazilərdən götürülüb. Bu kontekstdə həmin ərazilərdə aparılmış qazıntılar zamanı aşkarlanmış 29 kütləvi məzarlıqdan 218 şəxsə aid olduğu ehtimal edilən meyit qalıqları müəyyən olunaraq istintaq orqanları nümayəndələrinin iştirakı ilə ekshumasiya edilib".

Dövlət Komissiyasının sədri diqqətə çatdırdı ki, sözügedən ərazilərdə aparılmış genişmiqyaslı tikinti-quruculuq işləri və həyata keçirilmiş digər təxirəsalınmaz tədbirlər nəticəsində 342 şəxsə aid olduğu ehtimal edilən meyit qalıqları aşkar olunaraq ekshumasiya edilib. Bundan başqa, I Qarabağ müharibəsində həlak olmuş və respublikanın 20 şəhər və rayonunun ərazisində yerləşən 31 qəbiristanlıqda tanınmadan dəfn edilmiş naməlum şəhid məzarlarından 210 nəfərə aid meyit qalığı ekshumasiya edilib.

Əli Nağıyev bildirdi ki, Prezident İlham Əliyevin müvafiq tapşırığı və ayrılmış vəsait hesabına 2022-ci ildə Dövlət Təhlükəsizliyi Xidmətinin Hərbi-tibb Baş idarəsində Genetik araşdırmalar mərkəzinin yaradılması ölkə rəhbərinin bu sahəyə böyük önəm verdiyini bir daha təsdiqləyir. Qısa müddətdə adıçəkilən mərkəz müasir avadanlıqlarla təmin edilib və bacarıqlı kadr potensialı işə cəlb olunub: "Sadalananlar fonunda aşkarlanmış meyit qalıqlarının məhkəmə molekulyar-genetik ekspertizasının nəticəsi olaraq, I Qarabağ müharibəsində itkin düşmüş şəxslərdən 187 nəfərin şəxsiyyəti eyniləşdirilərək ictimaiyyətə açıqlanmış, ailələrinə təhvil verilmiş, qanunvericiliyin tələblərinə və milli-dini ənənələrə uyğun dəfn edilmişlər".

Natiq qeyd etdi ki, qazıntılarda aşkarlanmış meyit qalıqları ilə bağlı aparılmış ilkin tədqiqatlar və antropoloji müayinələr bu şəxslərin I Qarabağ müharibəsində itkin düşmüş azərbaycanlılara aid olduğunu sübut edib. Hazırda aşkar edilmiş digər meyit qalıqlarının eyniləşdirilməsi istiqamətində Dövlət Komissiyası tərəfindən zəruri işlər davam etdirilir.

Əli Nağıyev onu da bildirdi ki, işğaldan azad edilmiş ərazilərdə itkin düşmüş şəxslərə aid meyit qalıqlarının axtarışı, qazıntı və ekshumasiya sahəsində Dövlət Komissiyası tərəfindən qısa müddətdə müəyyən işlər həyata keçirilsə də, işğal dövründə ərazilərin mina və partlamamış sursatlarla həddindən artıq çirkləndirilməsi, infrastrukturun, yaşayış məntəqələrinin, qəbiristanlıqların, o cümlədən itkinlərə aid məzar yerlərinin dağıdılması prosesə ciddi əngəl yaradır: "Qeyd etdiyim səbəblərə görə hətta məzar yerləri barədə Dövlət Komissiyasına məlumat verən hadisə şahidləri belə, ərazilərə aparılarkən onlara məlum olan dəfn yerlərini dəqiq göstərə bilmirlər. Bütün çətinliklərə baxmayaraq, 2025-ci ildə Dövlət Komissiyası aidiyyəti dövlət qurumlarının mütəxəssis heyəti ilə birlikdə üç dəfə ən çətin relyefə və kəskin hava şəraitinə malik Kəlbəcər rayonundakı Murovdağ silsiləsində axtarış və qazıntı işlərini həyata keçirib. Əvvəlki illərdə Kəlbəcər istiqamətində axtarış-qazıntı işləri aparılsa da, bu il artıq bu proses sistemli şəkildə, dron texnologiyası tətbiq edilməklə həyata keçirilib və müsbət nəticə əldə edilib. Həmçinin diqqətinizə çatdırıram ki, hazırda mütəxəssislərdən ibarət heyət Ağdərə rayonunda axtarış qazıntı işlərini davam etdirir. Mənə verilmiş məlumata əsasən, keçmiş döyüş mövqeyi olmuş yüksəklikdə növbəti kütləvi məzarlıq aşkarlanıb. İlkin məlumata əsasən, kütləvi məzarlıqda 10-dan çox Azərbaycan hərbçisinə aid meyit qalıqları müəyyən edilib. Tədbirin proqramına əsasən, sabah (bu gün – red.) konfrans iştirakçılarının həmin əraziyə səfəri reallaşdırılacaq".

İtkin düşmüş şəxslər üzrə Beynəlxalq Komissiyanın (ICMP) Baş direktoru Katrin Bomberger bildirdi ki, son 10 ildə dünyada itkin düşənlərin sayı xeyli artıb. Onun sözlərinə görə, hazırda dünyada silahlı münaqişələrin sayı ən yüksək həddə çatıb. Bunun nəticəsində itkin düşənlərin sayı da artmaqdadır.

Baş direktor əlavə etdi ki, itkin düşmə hallarının digər səbəbi də qlobal istiləşmədir: "Meşə yanğınları, qasırğalar, daşqınlar dünyada itkinlərin sayını artırır. Bununla bağlı digər mühüm məsələ miqrantların itkin düşməsidir. Hazırda dünyada təxminən 1 milyard insan köç halındadır və onların bir çoxu itkin düşür.

Katrin Bomberger, həmçinin bildirdi ki, əməkdaşlıq həqiqətən də itkin düşmüş şəxslərin taleyinin araşdırılmasında çox vacibdir: "Konfransın açar sözlərindən biri də əməkdaşlıqdır. Ailələrin bu məsələlərlə bağlı yüzlərlə sualı var. Onlarla işləmək çox önəmlidir. Qurumlararası əməkdaşlıq da xüsusi əhəmiyyət kəsb edir".

Türkiyənin ədliyyə nazirinin müavini Hurşit Yıldırım Azərbaycan və Türkiyənin bütün sahələrdə birgə hərəkət etdiklərini dedi: "İtkin düşmüş şəxslərlə bağlı bu beynəlxalq tədbirin bütün iştirakçı ölkələr üçün vacib əhəmiyyət daşıdığını düşünürəm. Məcburi itkin düşmənin nəticəsi bəzi hallarda ölüm olmasa da, bu hadisənin həmin şəxslər, onların yaxınları üzərində mənfi təsirləri, psixoloji travmaları qaçılmazdır. İtkin düşmüş şəxslər problemi sadəcə keçmişin yox, həm də bu günün problemidir". H.Yıldırımın fikrincə, həmin şəxslərin yerini və şəxsiyyətini müəyyənləşdirmək üçün texnoloji yeniliklərdən faydalanmaq vacibdir.

Böyük Britaniya parlamentinin sabiq deputatı və ölkənin Xarici İşlər Ofisində sabiq nazir Rəhman Çişti Azərbaycan və Ermənistan liderləri Vaşinqtonda əldə etdikləri tarixi nailiyyət itkin düşmüş azərbaycanlıların taleyini müəyyənləşdirmək yönündə mühüm irəliləyişdir. Bu, həm də xalqların yaxınlaşması baxımından önəmlidir: "Mən Pakistanda doğulmuşam. 2005-ci ildə baş verən Kəşmir zəlzələsində 26 qohumumu itirmişəm. O zaman dünya ölkələrindən insanlar bizə köməyə tələsdilər. Türkiyə çətin vəziyyətdə qalan insanlara, mənim ailə üzvlərimə çox böyük köməklik göstərdi. Mən bu konfransdakı Türkiyə təmsilçilərinə həmin köməyə görə bir daha təşəkkürümü bildirirəm. Həmçinin Azərbaycan Prezidenti İlham Əliyevə itkin düşmüş şəxslərin talelərinin müəyyənləşdirilməsi ilə bağlı beynəlxalq platformalarda göstərdiyi səylərə görə minnətdarlığımı bildirirəm".

Beynəlxalq konfransda İtaliyanın Sanremo şəhərindəki Beynəlxalq Humanitar Hüquq İnstitutunun prezidenti Giorgio Battistinin, Gürcüstanın Barışıq və vətəndaş bərabərliyi üzrə dövlət naziri, İtkin düşmüş şəxslərin qalıqlarının tapılması və ötürülməsi üzrə Qurumlararası Komissiyanın rəhbəri Tea Axvledianinin, Xorvatiyanın sabiq prezidenti Stepan Mesiçin, Moldovanın sabiq baş naziri Kiril Qaburiçinin, Uqandanın Gender, əmək və sosial inkişaf üzrə dövlət naziri Ester Anyakun Davinianın, Ukrayna Ali Radasının İnsan Hüquqları üzrə Komissarı (Ombudsman) Dmitro Lubinetsin, Türkiyənin ailə və sosial xidmətlər nazirinin müavini Zəfər Tarıkdaroğlunun və digər şəxslərin maraqlı çıxışları dinlənildi.

Daha sonra Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası ilə Bosniya və Herseqovinanın İtkin düşmüş şəxslər İnstitutu arasında Anlaşma Memorandumunun imzalanması mərasimi keçirildi. Beynəlxalq konfrans öz işini panel sessiyalarla davam etdirdi.

Bu gün və sabah iştirakçıların Ağdərə, Şuşa, Cəbrayıl və Zəngilan rayonlarına səfərləri gerçəkləşdiriləcək.

***Səxavət HƏMİD***
***XQ***



# Qəbələ Zirvəsindən görünən gələcək

## Türk dövlətləri başçıları Alban–türk tarixi üzərindən sabaha boylandılar

**Təşkilatımızın təməl sənədi olan Naxçıvan Sazişində sülhün qorunması və təhlükəsizlik əsas məqsəd və vəzifələr sırasında yer alıb. Dünyanın üzləşdiyi hazırkı geosiyasi və təhlükəsizlik çağırışları fonunda, ötən il Şuşada qeyri-rəsmi Zirvə Görüşü zamanı qəbul edilmiş Qarabağ Bəyannaməsinə və bugünkü Zirvə Görüşünün "Regional sülh və təhlükəsizlik" mövzusuna uyğun olaraq, türk dövlətlərinin vahid güc mərkəzi kimi çıxış etməsi olduqca vacibdir.**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Qəbələ şəhəri, 7 oktyabr 2025-ci il.**

**Yəqin ki, diqqətli oxucular dövlət başçımızın bir neçə gün əvvəl Qəbələdə keçirilmiş Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündəki çıxışından məhz bu abzası nə üçün seçib qabartmağımızın səbəbini bilirlər. Səbəb aydındır: bu çıxışda Azərbaycanın üç qədim şəhərinin adı çəkilir. TDƏŞ-in (həmin şura sonradan TDT kimi daha mötəbər beynəlxalq təşkilata çevrildi) ilk təməl daşları Naxçıvanda atılmış, Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini tam təmin edəndən sonra ilk qeyri-rəsmi Zirvə Görüşü Şuşada keçirilmiş, bu qurumun türkdilli dövlətlərin gələcəyi üçün daha məsul qərarları qəbul etməsi isə Qəbələnin bəxtinə düşmüşdür.**

Bu sətirlərin müəllifinin Türkiyə Cümhuriyyətinin bir əsrlik tarixi barədə qələmə aldığı "100 yaşlı Türkiyə Cümhuriyyəti Turana gedən yolumuzda lokomotivdir" adlı yazıdakı ("Xalq qəzeti", 29 oktyabr 2023-cü il) lokomotiv ifadəsi bu il oktyabrın 7-də – Qəbələdə Azərbaycanın ünvanına səsləndirildi. Məmnun olduq. Ancaq bu o demək deyil ki, Azərbaycan Türkiyədən önə keçdi. Qətiyyən elə deyil. Sadəcə, Azərbaycanın yerləşdiyi geosiyasi, coğrafi məkan, ölkəmizin Avropa ilə Asiyanın qovuşuğunda yerləşməsi, Şimal–Cənub, Şərq–Qərb nəqliyyat yollarının, eləcə də Orta Dəhlizin, son məqamda Şanxaydan Londona qədər uzanan müasir İpək Yolunun məhz Azərbaycandan keçməsi, üstəlik, Azərbaycan Prezidentinin nümayiş etdirdiyi qətiyyət, əzmkarlıq və prinsipiallıq Turana gedən yolda rəsmi Bakının üstünə daha çox məsuliyyət düşdüyünü sübut edir. Biz məmnunuq ki, Azərbaycan və dövlət başçımız həmin məsul missiyanın reallaşdırılması üçün lazım olan bütün addımları uğurla atır və arzuolunan nəticələri əldə edir.

Bu məqamda başqa bir faktı da yada salmaq zərurəti var. Qəbələ haqqında olan ensiklopediya materiallarında yazılır ki, qədim Qəbələ şəhəri Böyük İpək Yolunun üstündə yerləşirdi. Xatırladım ki, bu fikir mənim hansısa axtarışımın və ya tədqiqatımın (ömründə tarix barədə tədqiqat aparmamışam) nəticəsi yox, kitablardan və son illərdə elektron resurslardan oxuduğum fikirlərdir. Yeri gəlmişkən, bu gün beynəlxalq aləmdə çoxsaylı müzakirə və hətta münaqişələrə səbəb olan əsas məsələlərdən biri də nəqliyyat–kommunikasiya layihələrinin bərpası, bəzilərinin yenidən qurulması və həmin layihələrə kimin nəzarət etməsidir. Azərbaycanın bəxti bu baxımdan həmişə gətirmişdir. Yəni əlliyədək ölkənin bizim nəqliyyat-kommunikasiya imkanlarımıza ehtiyacı var.



Dövlət başçımızın oktyabrın 7-də Qəbələdə səsləndirdiyi "Qəbələ geniş coğrafiyanı əhatə edən, eramızdan əvvəl IV əsrdə əsası qoyulmuş və eramızın VIII əsrinə qədər mövcud olmuş Qafqaz Albaniyasının paytaxtı idi" xatırlatması da təsadüfi deyildi. Cənab Prezident bu faktları yada salmaqla həm Azərbaycandakı İslamdan əvvəlki ibadət yerlərinin həqiqi sahiblərinin kim olduğu barədə bədxahlarımıza məhz səkkiz liderin iştirakı ilə müsaj göndərirdi, həm müasir Qəbələnin qədim Qəbələnin adına layiq bərpa edildiyini göstərirdi – bəli, sadəcə demirdi, göstərirdi, – həm də beynəlxalq aləmdəki dostlarımıza xatırladırdı ki, qədim Qəbələnin ancaq karvan yolu var idisə, müasir Qəbələnin üç istiqamətdən gələn avtomobil yolları, dəmir yolu, super-müasir hava limanı var.

Yəni damarlarında türk qanı olan hər kəs kimi Azərbaycan rəhbərliyi də qurub-yaratmaq, bərpa edib yaşatmaq və dosta dost olmaq, bədxaha dərs vermək kimi qədim ənənələrini bu gün də yaşadır. Həm də daha geniş miqyasda. Azərbaycan bu milli xarakterini otuz il düşmən tapdağında olan ərazilərini işğaldan azad edəndə də nümayiş etdirmişdi, yağı əsarətindən xilas olunmuş şəhər, qəsəbə və kəndlərimizin cənnətə çevrilməsi prosesində də.

Yeri gəlmişkən, cənab Prezident Qəbələdəki çıxışında növbəti dəfə xatırlatdı ki, işğaldan azad edilmiş ərazilərimizin bərpası prosesində bütün türk dövlətləri Azərbaycanın yanında oldular: "...Qarabağın və Şərqi Zəngəzurun bərpasına dəstək üçün qardaş ölkələrə bir daha təşəkkürümü bildirirəm. Füzulidə Mirzə Uluqbəy adına məktəb, Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi, Ağdamda Manas adına məktəb artıq fəaliyyətdədir. Bu, özbək, qazax, qırğız qardaşlarımızın hədiyyəsidir. Macar qardaşlarımızın hədiyyəsi Cəbrayılda tikilən məktəbdir. Türkmən qardaşlarımızın hədiyyəsi – bu gün təməli qoyulan Füzuli məscididir. Qardaş Türkiyənin şirkətləri bir çox tunellər, körpülər, yollar inşa edir. Azərbaycan xalqı bu qardaş dəstəyini heç vaxt unutmayacaq".

Təbii ki, türkdilli dövlət başçılarının Qəbələ sammitinin bütün materialları cəzbedici, maraqlı və xüsusən, müasir zamanın çağırışları baxımından vacib idi. Məsələn, mən bu zirvə görüşü zamanı eşitdiyim "Regional sülh və təhlükəsizlik" mövzusuna uyğun olaraq, türk dövlətlərinin vahid güc mərkəzi kimi çıxış etməsi olduqca vacibdir" tezisindən də məmnun oldum, təşkilatın "TDT+" prinsipi ilə daha da genişləndirilməyə açıq olmasından da. Ekspertlərin fikrincə, bu təşkilata türk mənşəli olmayan region ölkələrinin də qəbul edilməsi nəticə etibarilə daha möhkəm sülhün bərqərar edilməsinə stimul ola bilər.

"Qəbələ Türk dünyasının qədim mədəniyyətinin əksidir", – deyən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın bu şəhərdə söylədiyi fikirlər daha maraqlı idi. Qardaş ölkənin dövlət başçısı xatırlatdı ki, son 16 il ərzində təşkilatımız mühüm uğurlar əldə edib və onlara yeni nailiyyətlər əlavə olunur. Vaxtilə BMT tribunasından söylədiyi "beynəlxalq hüquq böhranı" və "BMT Təhlükəsizlik Şurası bir çox məsələlərdə fəaliyyətsiz qalır" arqumentlərini Qəbələdə də xatırladan Türkiyə lideri bu gün TDT ölkələri arasında həmrəylik və əməkdaşlığın daha vacib olduğu barədə çağırış səsləndirdi. Cənab Ərdoğan dedi ki, biz öz aləmimizdə (həm də ailəmizdə – İ.M.) qapanıb qalmalı deyilik. Əksinə, digər beynəlxalq təşkilatlarla da sıx əməkdaşlıq etməliyik. Bu baxımdan o, Qəbələdə razılaşdırılan "TDT +" formatının əhəmiyyətini xüsusilə vurğuladı.

TDT-nin Qəbələ Sammitindən hazırlanmış televiziya materiallarına baxarkən – sonradan həmin materialları qəzetdən də oxudum – yadıma düşən ilk məqamlardan biri ulu öndər Heydər Əliyevin fikirləri oldu: "Mən bu gün, həqiqətən, qeyd etmək istəyirəm ki, bizim xalqlarımız əsrlər boyu bir-birinə yaxın dost olmuşlar. Biz bir kökdənik, biz birdilli xalqlarıq. Bizim milli ənənələrimiz çox yaxındır, bir-birinə bənzərdir, oxşardır. Ona görə də bunlar hamısı xalqlarımızı hələ biz müstəqil olmadığımız vaxtda, ayrı-ayrı dövlətlərin əsarəti altında yaşadığımız vaxtda da bir-birimizdən ayırmayıb, bir-birimizə bağlayıb, bir-birimizlə daha sıx əlaqədə saxlayıb. İndi isə xalqlarımız öz müstəqilliyini əldə edəndən sonra, müstəqil dövlət kimi dünyada tanınandan sonra biz tarixi ənənələr əsasında, həmin fundamental əsaslar üzərində bundan sonra da irəliyə getməliyik, inkişaf etməliyik".

Bəli, artıq 16 ildir ki, xalqlarımız həmin fundamental əsaslar üzərində mükəmməl bir qardaşlıq, dostluq, tərəfdaşlıq və müttəfiqlik dastanı yaradıblar. Biz məmnunuq ki, həmin dastanın ilk boyu Naxçıvanda yarandı, qəhrəmanlar 16 ildə bütün türk dünyasını dolaşaraq qədim Qəbələ torpağına toplaşdılar.

Tanrı Türkü qorusun! Biz məmnunuq ki, Tanrı bizə "Türk əsri"ndə yaşamaq, türkün Zəfər tarixinə, Qələbə hekayələrinə şahidlik etmək şansı vermişdir. Şansımız əbədi olsun!

***İttifaq MİRZƏBƏYLİ,***
***Əməkdar jurnalist***

# Bir "+", min imkan: Türk dünyasının yeni üfüqləri



**(əvvəli 1-ci səhifədə)**

Bu fonda Türk Dövlətləri Təşkilatının (TDT) oktyabrın 7-də Qəbələdə keçirilən Zirvə görüşündə "TDT+" formatının təsis olunması geosiyasi iddianın bəyanatıdır. Sammitin sonunda liderlər Qəbələ Bəyannaməsini, həmçinin TÜRKSOY-un gücləndirilməsi barədə qərarı imzalayıblar. Bu, türk dünyasının beynəlxalq arenada yeni strateji missiyasını formalaşdırır, onu Avrasiya güc memarlığının aparıcı sütunlarından birinə çevirir.

Son illər beynəlxalq və regional təşkilatların üzvlük modelində "+" və ya "tərəfdaş/müşahidəçi/genişləndirilmiş" formatlara keçid meyli müşahidə olunur. Bu tendensiyanın arxasında bir neçə amil dayanır. Qlobal güc balansı artıq soyuq müharibədən sonrakı birqütblü və ya ikiqütblü düzəndən çoxqütblü dünyaya keçir. Dövlətlər daha çox seçim imkanı qazanmaq, müəyyən bir bloka bağlı qalmamaq istəyir. Məhz "plyus" formatları bu cür çevik əməkdaşlığa imkan verir, tam üzvlük və ya hüquqi öhdəliklər olmadan çoxşaxəli əməkdaşlıq üçün platforma yaradır. Digər tərəfdən, təşkilatlar öz legitimliyini və beynəlxalq çəkisini artırmaq üçün üzvlük bazasını genişləndirməyə çalışır. Üçüncü dövlətləri "+" formatı ilə cəlb etməklə diplomatik tərəfdaşların sayını çoxaldır, beynəlxalq arenada təsir gücünü artırırlar.

*

Qlobal siyasi-iqtisadi gərginlik, sanksiyalar və ticarət məhdudiyyətləri fonunda ölkələr bir mənbədən asılılığı azaltmaq və alternativ əməkdaşlıq xətləri formalaşdırmaq istəyir. "+" formatları bu məqsədə xidmət edir. Həmçinin qitələrarası ticarətin genişlənməsi, enerji və nəqliyyat marşrutlarına artan tələbat, rəqəmsal iqtisadiyyatın inkişafı dövlətləri daha sıx əməkdaşlığa sövq edir. Beləliklə, "plyus" formatının meydana çıxması əslində yeni reallığın etirafıdır. Bu, həm də onu göstərir ki, təşkilatın daxili sabitliyi artıq o səviyyədədir ki, üçüncü tərəf dövlətləri müəyyən sahələrdə əməkdaşlığa cəlb edə bilir, əsas qərarvermə mexanizmini isə qoruyur.

"TDT+" formatı üzv olmayan dövlətlər üçün təşkilatla əməkdaşlıq platforması rolunu oynayacaq. Bu, qapalı və ya hərbi blok deyil, əksinə iqtisadi, logistika, nəqliyyat, enerji və rəqəmsal əməkdaşlığa yönəlmiş tərəfdaşlıq modelidir. Qərarın rəsmi şəkildə qəbulu Qəbələ Sammitinin mühüm nəticələrindən biridir. Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Zirvədə çıxışı zamanı bu təşəbbüsün TDT-nin beynəlxalq nüfuzunu artıracağını bəyan edib. Beləliklə, "TDT+" həm təşkilatın yüksələn ambisiyalarının məntiqi davamı, həm də xarici tərəfdaşların artan marağına cavabdır. Əsas məqsədlərdən biri iqtisadi və nəqliyyat potensialının artırılmasıdır. TDT regionu Orta Dəhliz üzərində yerləşir. Bu marşrutun iqtisadi və logistik potensialı artdıqca "+" formatı əlavə tərəfdaşların cəlbini zəruri edəcək.

"TDT+" formatında ən real namizəd kimi Pakistanın adı çəkilir. İslamabadın üzvlüyü ideyası həm praktiki, həm də strateji baxımdan məntiqlidir. Mövcud vəziyyət belədir ki, Pakistan, Azərbaycan və Türkiyə arasında üçtərəfli strateji əməkdaşlıq formatı artıq reallaşıb. Prezident İlham Əliyev may ayında bəyan etmişdi ki, Azərbaycan, Türkiyə və Pakistan suverenlik, ərazi bütövlüyü və ədalət prinsiplərində eyni, rəsmi İslamabad isə coğrafi baxımdan mühüm strateji mövqedədir. Ölkənin türk dünyasına, Mərkəzi və Cənubi Asiyaya eyni anda çıxış imkanı var. Çin–Pakistan İqtisadi Dəhlizi (CPEC) layihəsi və Mərkəzi Asiya ilə əlaqələr bu ölkəni TDT marşrutlarının təbii tərəfdaşına çevirir.

Pakistanın üzvlüyünün məntiqi üstünlükləri də əhəmiyyətlidir. Tranzit və nəqliyyat üstünlüyü baxımından, Pakistanın "TDT+" formatına qoşulması türk dünyasına Hind okeanına çıxış imkanı verər, Orta Dəhlizi daha da strateji edər və ticarət xətlərini genişləndirər. Regional balanslaşdırma baxımından, Pakistan nüvə dövləti və Cənubi Asiyada mühüm geosiyasi aktordur. Onun "TDT plyus" çərçivəsində iştirakı həm Hindistanın təsirini balanslaşdırar, həm də türk dövlətlərinə yeni təhlükəsizlik dəstəyi qazandırar. İqtisadi imkanlar baxımından, Pakistan TDT bazarlarına çıxış əldə edər, türk dövlətləri isə öz növbəsində 200 milyondan çox əhalisi olan ölkə kimi yeni bazar və istehsal potensialı qazanmış olar. Diplomatik baxımdan Pakistan üçün bu addım türk dünyası ilə strateji yaxınlığı rəsmiləşdirmək, TDT üçün inklüziv və regional liderlik ambisiyasını göstərmək imkanıdır.

"TDT+" yeni dünya düzəni baxımından müəyyən mənada onun tərkib hissəsidir. Bu format bir daha sübut edir ki, regional və qlobal aktorlar arasında sərhədlər zəifləyir, iqtisadi potensialın və infrastrukturun vəziyyəti dövlətləri əməkdaşlığa yönəldir, orta güclər artıq böyük dövlətlərin orbitində deyil, öz regional qaydalarını formalaşdırmaq istəyirlər. Bu mənada "TDT+" köhnə düzənin əvəzlənməsi deyil, onun təkamülüdür, daha çevik, daha çoxşaxəli və daha inklüziv əməkdaşlıq modelidir.

***Tacir SADIQOV***
***XQ***

### *Ekspert rəyi*



**Faiq ƏLƏKBƏRLİ,**
**AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun Türk xalqlarının fəlsəfi fikir tarixi və müasir fəlsəfəsi şöbəsinin müdiri**

Türk Dövlətləri Təşkilatının regionda və dünyada nüfuzunun artması üçün digər dövlətlərlə əməkdaşlıq etməsi mühüm strateji əhəmiyyət daşıyır. Məhz bu səbəbdən təşkilatın "TDT+" kimi müsbət və genişlənməyə açıq format yaratması tamamilə qanunauyğundur və bu, təsadüfi addım deyil. Hazırda təşkilatda üzv və müşahidəçi dövlətlər var. Lakin həmçinin elə ölkələr mövcuddur ki, etnik və ya coğrafi baxımdan türk dünyasına mənsub olmasalar da, TDT-nin məqsədləri və dəyərləri ilə səsləşən maraqlara malikdirlər. Məsələn, Pakistan və Ukrayna kimi dövlətlər bu baxımdan diqqətəlayiq tərəfdaşlardır. Onların TDT ilə əməkdaşlıq etməsi, ortaq layihələrdə iştirakı və müxtəlif istiqamətlərdə təşəbbüslər göstərməsi tamamilə mümkündür.

Bu kontekstdə TDT-nin açıq əməkdaşlıq modeli regional sabitlik və çoxtərəfli diplomatiyanın güclənməsi baxımından müsbət hadisədir. Mən hesab edirəm ki, təşkilat həm regionda, həm də beynəlxalq müstəvidə nüfuzunu artırmaq üçün ona yaxın olan, dəyərləri, təhlükəsizlik və iqtisadi hədəfləri oxşar olan dövlətlərlə əməkdaşlığı genişləndirməlidir.

Bu xüsusda Pakistan ən bariz nümunədir. Lakin perspektivdə Ukrayna, Qətər və digər dövlətlərlə də əməkdaşlıq imkanlarını nəzərdən keçirmək məqsədəuyğundur. Əsas məsələ ondan ibarətdir ki, TDT bu əlaqələri öz maraqları və strateji prioritetlərinə uyğun şəkildə qursun.

Qəbələdə keçirilən Zirvə görüşündə qəbul edilən qərarlar məhz bu istiqamətdə atılmış doğru və uzaqgörən addımdır. Əgər TDT gələcəkdə regionun və dünyanın siyasi, iqtisadi və təhlükəsizlik baxımından önəmli güc mərkəzlərindən birinə çevrilmək niyyətindədirsə, bu kimi əməkdaşlıq imkanlarını mütləq dəyərləndirməlidir.

# Azərbaycan–İspaniya münasibətləri: ikitərəfli diplomatiyadan çoxqütblü əməkdaşlığa

**Bakıda Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və İspaniya Krallığının Xarici və qlobal məsələlər üzrə dövlət katibi Dieqo Martinez-Belionun görüşü Avropa İttifaqının (Aİ) Cənubi Qafqaz siyasətində dəyişən dinamikanın və Azərbaycanın postmüharibə dövründə Qərblə münasibətlərdə qurmağa çalışdığı yeni tarazlığın göstəricisi kimi dəyərləndirilə bilər.**



Azərbaycan–İspaniya münasibətləri son illər klassik diplomatik protokoldan çıxaraq daha dərin strateji məna daşımağa başlayıb. Əgər əvvəllər bu münasibətlər “siyasi etiket” çərçivəsində qalırdısa, indi qarşılıqlı maraqlara söykənən uzunmüd-



dətli tərəfdaşlıq xətti formalaşır. Azərbaycanın xarici siyasətində yeni tendensiya aydın görünür: Bakı Qərb ilə münasibətlərini yalnız Brüssel mərkəzli platformalar üzərindən deyil, Avropa dövlətlərinin milli diplomatik kanalları vasitəsilə də genişləndirmək strategiyasını həyata keçirir. Rəsmi Bakınn bu siyasəti “Brüssel mərkəzliliyindən çıxış” siyasətidir – yəni Avropa ilə münasibətlərin diversifikasiyası.

Ceyhun Bayramovun “qarşılıqlı hörmət və dostluq prinsipləri” ifadəsi mahiyyətcə Qərb dövlətlərinə ünvanlanan dərin mesaj daşıyır. Azərbaycan Qərb ilə münasibətlərdə artıq “müştəri” və ya “resurs tədarükçüsü” statusunda qalmaq niyyətində deyil. O, qarşılıqlı asılılıq modeli qurmaq, yəni enerji və kommunikasiya layihələrində tərəfdaş, eyni zamanda, regional sabitliyin təminatçısı kimi qəbul edilmək istəyir. Maraqlıdır, bu yanaşma Qərb diplomatiyasının mövcud paradiqması ilə uyğun gəlirmi? Qismən. Qərb, xüsusilə Aİ Cənubi Qafqazda uzun illər “dəyərlər diplomatiyası” üzərindən siyasət qurmağa çalışıb. Azərbaycan isə indi bu modelə qarşı “real maraqlar diplomatiyası”nı qoyur. Bu iki yanaşmanın sintezi hələ tam formalaşmayıb, lakin Bakı bu balansın praktiki əsaslarını yaratmaqda qərarlıdır.

Görüşdə müzakirə olunan mövzuların spektri – enerji, nəqliyyat, “yaşıl keçid”, turizm və mədəni diplomatiya – əslində çoxvektorlu siyasətin strukturunu formalaşdırır. Enerji və nəqliyyat mövzularının paralel şəkildə müzakirəsi təsadüfi deyil. Hər iki sektor həm Azərbaycan, həm də Avropa üçün siyasi və iqtisadi sabitliyin təməl sütunlarıdır. Bakı üçün bu, enerji ixracının təhlükəsiz marşrutlarını və nəqliyyat dəhlizlərinin şaxələndirilməsini təmin edir; Madrid üçün isə Avropanın enerji təhlükəsizliyinə yeni mənbə və istiqamət deməkdir.

İspaniya kimi Aralıq dənizi ölkəsinin Cənubi Qafqazla bu qədər maraqlanmasının səbəbi nədir? İspaniya artıq Aralıq dənizi və Latın Amerikası məkanlarında kifayət qədər “doymuş” iqtisadi iştirak portfelinə malikdir. İndi onun Avrasiya məkanına çıxışı həm iqtisadi, həm də geosiyasi baxımdan yeni fürsətlər yaradır. Azərbaycan bu prosesdə körpü rolunu oynaya bilər – Xəzər regionundan Aralıq dənizinə qədər uzanan enerji və logistika xətlərinin birləşdiricisi kimi.

İkitərəfli əlaqələrin yalnız enerji və nəqliyyatla məhdudlaşmaması diqqətçəkicidir. Turizm, mədəniyyət və humanitar əməkdaşlıq sahələrinin müzakirəsi siyasi dialoqun sosial əsaslarını möhkəmləndirməyə yönəlib. Çünki müasir diplomatiyada “yumşaq güc” amili artıq təkcə əlavə element deyil, dövlət imicinin və regional təsir imkanlarının ayrılmaz hissəsidir.

Əgər 2010-cu illərdə Bakı–Avropa münasibətləri çox vaxt siyasi tənqidlər və normativ gərginliklərlə yadda qalırdısa, indi prioritet “proseslərdə iştirak” prinsipinə keçir. Yəni Azərbaycan Qərb ilə “müzakirə olunan tərəf” deyil, “müzakirə edən tərəf” statusunu gücləndirir. Məhz bu baxımdan Azərbaycan–İspaniya dialoqu simvolik əhəmiyyət daşıyır: Avropa ilə münasibətlərdə qarşılıqlı etimad və praktiki fayda üzərində qurulan modelin test nümunəsidir. Burada emosional və ideoloji elementlər minimuma endirilir, qarşılıqlı maraqlar maksimum dərəcədə qabardılır.

Bəs bu model davamlı ola bilərmi, yoxsa siyasi vəziyyət dəyişərsə, münasibətlər zəifləyəcək? Davamlılıq yalnız institusional səviyyədə əməkdaşlığın dərinləşməsi ilə mümkündür. Əgər tərəflər Strateji İqtisadi Dialoq kimi platformaları nəticəyönümlü saxlasalar, münasibətlər siyasi dalğalanmalardan təsirlənməyəcək.

*

Görüşdə dolayı şəkildə önə çıxan əsas strateji ideya budur: Bakı–Madrid xətti Avropanın enerji və nəqliyyat infrastrukturunda yeni “Cənub–Qərb dəhlizi” yarada bilərmi? Cənub Qaz Dəhlizi artıq Cənubi Avropaya təbii qazın etibarlı təchizatını təmin edən sistemdir. Lakin gələcək mərhələdə Avropa enerji keçidi siyasəti – xüsusilə bərpaolunan enerji və hidrogen texnologiyaları kontekstində – bu dəhlizin məzmununu dəyişir. Azərbaycanın məqsədi artıq yalnız qaz ixracatçısı olmaq deyil, həm də “yaşıl enerji daşıyıcısı” kimi çıxış etməkdir. Azərbaycanın enerji siyasətində bu transformasiya realdır, yoxsa deklarativ səviyyədədir?

Real proseslər artıq başlayıb. Qarabağ və Zəngəzur regionlarında günəş və külək stansiyalarının inşası, Xəzərin qərb sahilində dəniz külək potensialının araşdırılması və Avropaya ixracyönümlü “yaşıl enerji” layihələrinin planlaşdırılması Azərbaycanın enerji modelinin təkamülə getdiyini göstərir. Burada İspaniyanın təcrübəsi – xüsusilə hidrogen istehsalı və enerji saxlama texnologiyalarında – Bakıya strateji tərəfdaş kimi dəyər qazandıra bilər.

İspaniya uzun illərdir ki, Avropanın enerji bazarında “şimaldan asılılığı” balanslaşdırmaq üçün mühüm körpü rolunu oynayır. O, həm Afrikadan, həm də Aralıq dənizindən enerji axınlarını qəbul edən və Avropanın quru hissəsinə ötürən mərkəzdir. Bu mənada Azərbaycan–İspaniya enerji dialoqu qarşılıqlı tamamlayıcı xarakter daşıyır: Bakı enerji istehsalçısı və ixracatçısı kimi, Madrid isə Avropa bazarının paylayıcı mərkəzi kimi çıxış edir. Belə bir sinerji Avropa üçün həm marşrut, həm də mənbə şaxələnməsi deməkdir. Yəni bir növ “enerji alternativləri alyansı”.

Azərbaycan–İspaniya əməkdaşlığı Avropanın enerji təhlükəsizliyinə real təsir göstərə bilərmi? Bəli, amma bu, mərhələli şəkildə mümkündür. Qısa müddətdə əsas fokus bərpaolunan enerji texnologiyalarının paylaşımı və layihə birgə maliyyələşməsində olacaq. Orta və uzunmüddətli perspektivdə isə Azərbaycan–İspaniya enerji tərəfdaşlığı Avropanın hidrogen bazarına inteqrasiyanı asanlaşdıra bilər.

*

Cənubi Qafqazda postmünaqişə mərhələsi regionun siyasi arxitekturasını köklü şəkildə dəyişir. Azərbaycan üçün bu yeni dövr, sadəcə, ərazi bütövlüyünün bərpası ilə yekunlaşmır; bu, həm də diplomatik, iqtisadi və təhlükəsizlik sistemlərinin yenidən qurulması anlamına gəlir.

Ceyhun Bayramovun ispaniyalı həmkarı ilə görüş zamanı “postmünaqişə reallıqları” barədə ətraflı məlumat verməsi məhz yeni mərhələnin diplomatik təqdimatı idi. Bakı artıq regionun gələcəyini sülh və sabitlik üzərində qurulan yeni nizam kimi formalaşdırır və bu konsepsiyanı Avropa paytaxtlarında qəbul olunan siyasi reallığa çevirmək istəyir.

Avropa dövlətləri üçün Cənubi Qafqazda sülhün bərqərar olması təkcə humanitar və ya normativ məsələ deyil, həm də enerji və logistika təhlükəsizliyinin əsas təminatıdır. Qafqazda davamlı sülh demək, Avropa üçün enerji axınlarının sabitliyi, yeni nəqliyyat marşrutlarının etibarlılığı və Şərq–Qərb ticarət sisteminin dayanıqlılığı deməkdir. Avropa bu reallığı həm dəyərlər, həm də maraqlar müstəvisində qiymətləndirir. Azərbaycan isə bu iki yanaşmanı tarazlaşdırmaq üçün öz diplomatik çevikliyindən istifadə edir – Qərbin normativ ritorikasını qəbul etsə də, qərarvermədə praqmatik maraqları üstün tutur.

İspaniyanın bu prosesdə iştirakı ayrıca diqqətəlayiqdir. Madridin postsovet məkanında birbaşa geosiyasi iddialarının olmaması və neytral diplomatik xətti onu etimadlı tərəfdaş və mümkün vasitəçi kimi önə çıxarır. İspaniya nə Brüssel qədər siyasi təzyiq gücünə malikdir, nə də Moskva və Tehran kimi regional təsir ambisiyaları daşıyır. Azərbaycan üçün Avropa ilə münasibətlərdə emosionallıqdan uzaq, qarşılıqlı hörmətə və faydaya əsaslanan dialoq vacibdir. İspaniya bu dialoqun reallaşması üçün təbii platformadır – o, Azərbaycanın suverenlik məsələlərinə müdaxilə etmədən əməkdaşlığı iqtisadi, ekoloji və mədəni müstəvilərdə dərinləşdirməyə meyillidir.

Bunu da qeyd etməliyik ki, Cənubi Qafqazda formalaşan yeni reallıqlar – sülh prosesi, enerji marşrutları, kommunikasiya dəhlizləri – artıq yalnız Bakı və Brüssel xətti ilə məhdudlaşmır. Madrid kimi paytaxtların da bu prosesə marağı göstərir ki, Azərbaycan diplomatiyası Qafqaz məsələsini Avropanın regional siyasətinin periferiyasından mərkəzinə daşıya bilib. Bakı indi proseslərin iştirakçısı yox, istiqamətverici aktorudur, regional sabitliyin memarı, enerji təhlükəsizliyinin təminatçısı və Qərb–Cənub əlaqələrinin tənzimləyicisi kimi çıxış edir.

Beləliklə, 8 oktyabr görüşü Azərbaycanın beynəlxalq münasibətlər sistemində yeni statusunun təsdiqidir: balans yaradan deyil, tarazlığı müəyyən edən dövlət statusu. Amma bu vəziyyət postsovet coğrafiyasında çox nadir haldır, çünki Azərbaycan öz diplomatiyasını artıq “strateji təşəbbüs” səviyyəsinə qaldırıb və məhz bu təşəbbüskarlıq onu çoxqütblü dünyanın regional dayaqlarından birinə çevirir.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Hibrid təhdidlər fonunda yeni mənzərə

**(əvvəli 1-ci səhifədə)**

Avropa Komissiyasının sədri Ursula Fon der Lyayen mövcud vəziyyətlə bağlı danışarkən bildirib ki, qitənin bir sıra ölkələrində hava məkanının pozulması, kiberhücumlar və infrastruktur obyektlərinə qarşı texnoloji təxribatlar baş verir. Hadisələrin təsadüfən cərəyan etmədiyini diqqətə çatdıran komissiya sədri bunu Avropanın dayanıqlılığını sınaqdan keçirməyə yönəlmiş addım kimi dəyərləndirib: “Avropa bu hadisələrə, sadəcə, müşahidəçi kimi yanaşa bilməz. Hər bir insident araşdırılmalı, məsuliyyətin kimin üzərinə düşdüyü dəqiq müəyyən edilməlidir”. Şübhəsiz, Fon der Lyayenin çağırışının arxasında hərbi təhlükələrlə yanaşı, geosiyasi sabitlik amili də dayanır. Çağdaş dövrdə dron hücumları, kiberhücumlar və sabotaj aktları ölkələrin təhlükəsizlik konsepsiyalarının köklü şəkildə dəyişməsinə səbəb olub. Ona görə də İttifaq belə təhdidlərlə mübarizədə müasir müdafiə mexanizmləri yaratmaq üzərində işləyir. Aİ-nin bu istiqamətdə irəli sürdüyü təşəbbüslərdən biri “dron divarı” adlanan texnoloji sistemin yaradılmasıdır. Yüksək dəqiqlikli sensorlar, izləmə və zərərsizləşdirmə vasitələri ilə təchizi nəzərdə tutulan sistemin məqsədi dronları vurmaq, onların mənbəyini, idarəedici sistemlərini və uçuş trayektoriyalarını müəyyənləşdirməkdir. Qitə bu yolla gələcəkdə baş verə biləcək hibrid hücumlara qarşı qabaqlayıcı tədbirlər görmək niyyəti güdür.

Avrokomissiya sədrinin çıxışında diqqətçəkən digər mühüm məqam onun məsələyə iqtisadi aspektdən yanaşmasıdır. Ursula Fon der Lyayen qeyd edib ki, ucuz dronları zərərsizləşdirmək üçün bahalı qırıcı təyyarələrin havaya qaldırılması iqtisadi baxımdan səmərəli üsul deyil. O, daha sadə, çevik və məqsədyönlü anti-dron sistemlərinin yaradılmasının vacibliyini vurğulayıb. Lyayenin fikrincə, bu yolla müdafiə xərclərini azaltmaq, texnoloji asılılığı aradan qaldırmaq mümkün olar. Lyayen müdafiə sənayesinə yatırımların Avropanın öz daxilində cəmlənməsinin vacibliyini də diqqətə çatdırıb. Doğrudan da, hazırda Avropa ölkələrinin təxminən üçdə ikisi bunun üçün ABŞ şirkətlərinə müraciət edir və qitədə iqtisadi baxımdan asılı vəziyyətə düşür. Əslində, müdafiə layihələrinin, ən azı, 65 faizi Avropa ərazisində həyata keçirilməlidir ki, yeni iş yerləri və innovativ texnologiyaların tətbiqi üçün münbit şərait yaransın. Avropanın özünün istehsal etdiyi müdafiə sistemləri ilə qitənin sənaye potensialını artırmaq, gənc mütəxəssislərin yeni sahələrdə fəaliyyətinə təkan vermək mümkündür. Avropada təhlükəsizlik anlayışı kiberhücumlar, enerji asılılığı, informasiya manipulyasiyası və texnoloji təxribatlar səbəbindən yeni məna qazanıb. Ona görə də Aİ dövlətləri müxtəlif təhdidlərə qarşı diplomatik, hüquqi və iqtisadi alətlərlə cavab verməyi məqsədəuyğun hesab edir. Bu günlərdə ASB-nin Kopenhagen



sammitində Avropa liderləri ciddi mövqe nümayiş etdiriblər. Hava məkanının qorunması, enerji infrastrukturlarının təhlükəsizliyi və sanksiyalardan yayınmanın qarşısının alınması məsələləri müzakirə olunub. Bütün təşəbbüslər, sözsüz ki Avropanın öz təhlükəsizliyinə və sabitliyinə daha sistemli yanaşmaq istəyindən qaynaqlanır.

Qlobal siyasətdə baş verən dəyişikliklər fonunda Avropa qarşılıqlı təhlükəsizlik və diplomatik sabitlik mühiti qurmağa çalışır. Məlumdur ki, Rusiya ilə Avropa arasında münasibətlər Ukrayna müharibəsi fonunda xeyli mürəkkəbləşib. Enerji təhlükəsizliyi, iqtisadi əlaqələr və diplomatik münasibətlərdə daha çox müşahidə olunan gərginlik müdafiə sahəsində yeni çağırışların zərurətini ortaya qoyub. Avropa ölkələri Ukraynadakı vəziyyətə cavab olaraq müdafiə və təhlükəsizlik sahəsində daha sıx əməkdaşlığa, enerji asılılığının azaldılmasına və strateji müstəqilliyin gücləndirilməsinə yönəlmiş addımlar atırlar. Bununla belə, Avropa daxilində məsələ ilə bağlı fikir ayrılıqları mövcuddur. Bəzi dövlətlər dialoqun və diplomatik yolların qorunmasını vacib hesab etsə də, təhlükəsizliyin yalnız birgə və qətiyyətli addımlarla təmin oluna biləcəyini düşünənlər də var. Kreml isə öz növbəsində Avropanın atdığı bəzi addımları təhlükəsizlik maraqlarına təhdid kimi qəbul edir. Moskvanın mövqeyi ondan ibarətdir ki, Avropada formalaşan yeni təhlükəsizlik arxitekturası kontekstində onun maraqları nəzərə alınmayıb və bu, etimad mühitini zəiflədir. Qarşılıqlı narahatlıqlar fonunda “boz zona” adlandırılan gərginlik xətti yaranıb. Aİ-nin hazırkı təşəbbüsləri, o cümlədən müdafiə sistemlərinin gücləndirilməsi və kibertəhlükəsizlik sahəsində əməkdaşlığın şaxələndirilməsi məhz gələcək risklərin qarşısını almağa yönəlib. Ümumiyyətlə, Avropa və Rusiya arasındakı fikir ayrılıqları çoxşaxəli xarakter daşıdığından hələlik öz həllini tapmır. Hər iki tərəf balanslı və ölçülü yanaşma, risklərin nəzarət altında saxlanması və uzunmüddətli sabitliyin qorunmasını vacib hesab edir. Avropanın bu məsələdəki prioriteti qitənin müdafiəsini gücləndirmək, diplomatik kanalları açıq saxlamaqla regionda davamlı sabitliyi bərpa etməkdir. Birbaşa qarşıdurmaya çevrilməyən, amma tərəflər arasında etimadı zəiflədən “boz zona” fəaliyyətləri, əfsuslar olsun ki, hələ də mövcuddur. Sözügedən təhlükə qitəni hər an hazırlıqlı olmağa məcbur edir.

***Nəzrin ELDARQIZI***
***XQ***

## *Ekspert rəyi*



**Elçin MİRZƏBƏYLİ,**
**Milli Məclisin deputatı**

“Boz zona” hücumlarının ən təhlükəli tərəfi onların “müəllifinin” naməlum qalmasıdır. Əgər hücumun arxasında konkret bir dövlətin dayandığı sübuta yetirilmirsə, beynəlxalq hüquqa əsaslanan cavab tədbiri çətinləşir. Bu isə “hücumçu” üçün əlverişli şərait yaradır. O, həm məsuliyyətdən yayınır, həm də qarşı tərəfi qeyri-müəyyənlik içində saxlayır. Nəticədə Avropa hadisəni ehtiyatla qiymətləndirməyə məcbur olur və bu ehtiyatlılıq bəzən real fəaliyyətin gecikməsi ilə nəticələnir. Avropa İttifaqının bu vəziyyətə qarşı cavabı təkcə hərbi tədbirlərlə məhdudlaşa bilməz. Müasir müdafiə sistemləri, xüsusilə pilotsuz uçuş aparatlarının neytrallaşdırılması texnologiyaları, enerji və kommunikasiya xətlərinin qorunması üzrə yeni mexanizmlər bu istiqamətdə prioritet olmalıdır.

Müasir informasiya müharibəsi də prosesin ayrılmaz tərkib hissəsidir. Sosial şəbəkələr vasitəsilə yayılan saxta məlumatlar, ictimai rəyin manipulyasiyası və populist narrativlərin gücləndirilməsi Avropa cəmiyyətini içəridən zəiflətməyi hədəfləyir. Hibrid hücumların qarşısının alınması üçün hüquqi çərçivələrin yenilənməsi vacib amildir. Kibermüdaxilələrin hansı hallarda “silahlı hücum” sayılacağı və kollektiv müdafiə mexanizmlərinin hansı şərtlərlə işə düşəcəyi məsələləri beynəlxalq hüquqda hələ tam dəqiqləşdirilməyib. Aİ və NATO bu sahədə yeni standartların hazırlanmasına, məsuliyyətin dəqiq müəyyən edilməsinə çalışır. Bu, həm cavab tədbirlərinin legitimliyini təmin edəcək, həm də potensial təxribatların qarşısını almaqda çəkindirici təsir göstərəcək. İnstitusional və əməli səviyyədə bir sıra praktiki addımlar da artıq gündəmdədir. Bunlara üzv dövlətlərin kəşfiyyat məlumatlarının real vaxt rejimində paylaşılması, kibertəhlükəsizlik infrastrukturunun modernləşdirilməsi, ictimai kommunikasiya strategiyalarının gücləndirilməsi və kritik infrastruktur obyektlərinin müdafiəsi daxildir.

Ukrayna bu gün hibrid müharibənin bütün formalarını yaşayır və Avropa üçün real təcrübə laboratoriyasına çevrilib. “Boz zona” hücumları görünməz müharibənin yeni mərhələsidir və Avropa bu mərhələyə çevik şəkildə cavab verməlidir. Əks halda, zəif reaksiyalarla müşayiət olunan uzunmüddətli qeyri-müəyyənlik həm təhlükəsizlik sistemini, həm də Avropanın siyasi iradəsini sarsıdacaq.

# Gürcüstan xalqı milli maraqlara sadiq qaldı

**Gürcüstanda sülh və sabitliyin hər hansı alternativdən üstün dəyər olduğunu bir daha təsdiqləyən anlar yaşanır. Seçkilərdən sonrakı ölkə məhz belə tarixi sınaqlardan şərəflə çıxaraq dövlətçilik təsisatlarının dayanıqlılığını və xalqın müdrikliyini nümayiş etdirdi. Oktyabrın 4-də Qərbyönlü müxalifətin radikal qanadının dövlət çevrilişinə yönəlmiş cəhdi opera müğənnisi Paata Burçuladzenin Tbilisinin Azadlıq meydanında guya "hakimiyyətin xalqa verilməsi" şüarı altında "milli yığıncağın" yaradıldığını elan etməsi və prezident sarayını ələ keçirməyə yönəlmiş qanunsuz addımlar Gürcüstanın konstitusion quruluşunun sarsılmazlığı qarşısında tam uğursuzluqla nəticələndi.**



## *Tbilisinin "Azadlıq" meydanına yönələn xaos gecənin zülmətində boğuldu*

Oktyabrın 4-dən 5-nə keçən gecə ərzində hüquq-mhafizə orqanlarının peşəkar və qətiyyətli fəaliyyəti nəticəsində dövlətə qarşı yönəlmiş xəyanətkar planın qarşısı alındı, çevrilişin əsas təşkilatçıları Paata Burçuladze, Murtaza Zodelava və İrakli Nadiradze həbs edildilər. Həmin hadisələr, sadəcə, hüquqi müstəvidə cinayət aktının qarşısının alınması mahiyyətində qalmadı, eyni zamanda, Gürcüstan cəmiyyətinin və dövlətinin xaosa, anarxiyaya və xarici diktə ilə idarə olunan inqilab ssenarilərinə qarşı aydın və birmənalı mövqeyinin isbatına çevrildi. Sülh və sabitliyin ölkənin gələcək inkişafı üçün əsas şərt olduğunu dərindən anlayan gürcü xalqı küçə demokratiyasının aldadıcı vədlərinə aldanmaq əvəzinə, qanunun aliliyinə və təkamül yolu ilə inkişafa səs verdi.

Oktyabrın 4-də axşam saatlarında Azadlıq meydanında cərəyan edən hadisələr "Qızılgül inqilabı" texnologiyasının klassik, lakin köhnəlmiş elementlərini özündə ehtiva edirdi. Siyasi təcrübəsi şübhə doğuran, incəsənət sahəsindən gələn fiqur – Paata Burçuladzenin kütlə qarşısına çıxarılması prosesə emosional fon vermək və guya, xalq hərəkatı görüntüsü yaratmaq məqsədi güdürdü. "Milli yığıncaq" elanı və "hakimiyyətin xalqa verilməsi" kimi populist şüarlar seçkilərdə məğlub olmuş və demokratik yolla hakimiyyətə gəlmək şansını itirmiş siyasi qüvvələrin niyyətini pərdələyən miskin cəhddən başqa mahiyyət daşımırdı. Lakin ritorikadan əməli addımlara keçid kütlənin prezident sarayına doğru yönləndirilməsi və dövlət binasını ələ keçirməyə çağırışlar həmin dəstənin əsl simasını, onların Gürcüstan üçün sülh və demokratiya yerinə vətəndaş qarşıdurması və idarəolunmaz xaos hazırladığını aşkara çıxardı. Onların planı aydın idi: Dövlət binalarını zəbt etməklə hakimiyyət boşluğu yaratmaq, hüquq-mühafizə orqanları ilə toqquşmalar törədib qan tökülməsinə nail olmaq və beynəlxalq aləmdə Gürcüstanda, guya, humanitar fəlakət, siyasi böhran yaşandığı görüntüsü yaradaraq xarici müdaxiləyə zəmin hazırlamaq.

Çevriliş cəhdinə qarşı Gürcüstan dövlətinin reaksiyası müasir və yetkin dövlətə xas təmkin, peşəkarlıq və qətiyyətin mükəmməl nümunəsi idi. Hüquq-mühafizə orqanları təxribatlara uymadılar, kütləvi güc tətbiqindən çəkinərək radikal dəstələrə vətəndaş qarşıdurması üçün bəhanə vermədilər. Eyni zamanda, dövlət institutlarının mühafizəsi ən yüksək səviyyədə təmin edildi və "çevrilişçilərin" prezident sarayına soxulmaq cəhdlərinin qarşısı qətiyyətlə alındı. Ən mühüm məqam isə dövlətin gücünün intellektual və operativ üstünlükdə təzahür etməsi idi. Xüsusi xidmət orqanlarının əvvəlcədən əldə etdiyi məlumatlar əsasında çevrilişin idarəetmə mərkəzi və əsas fiqurları tam nəzarətə götürülmüşdü. Gecə saatlarında Paata Burçuladze, Murtaza Zodelava və İrakli Nadiradze kimi təşkilatçıların xüsusi əməliyyatla həbs edilməsi, başsız qalan və xarici kuratorlarından məhum olan dağıdıcı dəstənin tamamilə iflic olmasına və səhərə yaxın tamamilə dağılmasına gətirib çıxardı. Hakimiyyət xaos ssenarisinin müəlliflərinə və onların xarici havadarlarına aydın mesaj verdi.

Ölkə 2003-cü ilin Gürcüstanından fərqlənir və heç kimə dövlətin taleyi ilə oynamağa imkan verilməyəcək. Həmin addım həm də bütün potensial təxribatçılara xəbərdarlıq idi ki, siyasi mübarizə yalnız seçki qutusu çərçivəsində aparıla bilər və küçələrdə hakimiyyət dəyişikliyi cəhdləri ən sərt şəkildə cəzalandırılacaq.

***

Hadisələrin acı nəticələri və fiaskonun səbəbləri barədə Gürcüstanın ictimai-siyasi dairələrində aparılan təhlillər diqqət çəkir. XQ-yə danışan **"Media Center Mtavari"nin təsisçisi və direktoru Katerina Qulua** baş vermiş hadisələri planın tam iflası kimi qiymətləndirdi. O qeyd etdi ki, oktyabrın 4-də "müxalifət planları" tamamilə uğursuzluğa düçar oldu: "Nəticədə 40-a yaxın təxribatçı həbs edildi və bunun davam etməsi gözlənilir. Tbilisinin mərkəzi meydanındakı infrastruktur zədələndi və məhv edildi, aksiyanın minlərlə iştirakçısı isə taleyin ümidinə buraxıldı. Yekunda "etiraz liderləri"nin heç bir planının olmadığı ortaya çıxdı. Onlar mühacirləri, müxtəlif şəhər və kəndlərdən sakinləri paytaxta gətirmiş, onlara "Qələbə" vəd etmişdilər. Amma sonda nə baş verdiyini heç kim anlamadı. Gürcü xalqının missiyası və marağı sülh, əmin-amanlıq və sabit ölkədə yaşamaqdır".

K.Qulua ölkənin artıq inqilablara və çevrilişlərə dözümünün qalmadığını və keçmiş rejimə qayıdışın gürcü xalqının maraqlarına cavab vermədiyini xüsusi qeyd etdi.

**Gürcüstanda yaşayan soydaşımız Turqay Bayramov** da qəzetimizə verdiyi açıqlamasında seçkidən sonra baş vermiş hadisələrin burada yaşayan azərbaycanlılar tərəfindən də ciddi narahatlıqla izlənildiyini qeyd etdi. O, Gürcüstanda sülhün və sabitliyin qorunmasının həm gürcü xalqı, həm də onun strateji tərəfdaşı olan Azərbaycan üçün əhəmiyyət daşıdığını vurğuladı. Onun fikrincə, Gürcüstan hakimiyyətinin qanun çərçivəsində atdığı qətiyyətli addımlar və xalqın böyük əksəriyyətinin radikalizmi rədd etməsi, regionun ümumi təhlükəsizliyi baxımından müsbət hadisədir.

***

Demokratik prosesin ayrılmaz hissəsi olan seçki nəticələrini qəbul etməkdən imtina edən, xalqın iradəsini şübhə altına alan və mandatlarını parlamentdə yox, küçələrdə reallaşdırmağa çalışan həmin siyasi qüvvələr, əslində, ölkəni addım-addım siyasi böhrana sürükləyirdilər. Onların yeganə ümidi daxili sabitliyi pozmaqla, ölkənin beynəlxalq imicinə zərbə vurmaqla hakimiyyəti növbədənkənar seçkilərə və ya qeyri-konstitusion yolla hakimiyyət dəyişikliyinə məcbur etmək idi.

Oktyabrın 4-dəki çevriliş cəhdi məhz həmin məsuliyyətsiz və antimilli siyasətin kulminasiya nöqtəsi, demokratik yolla hədəflərinə çata bilməyəcəklərini anlayanların son cəhdi idi. Onlar unudurdular ki, gürcü xalqı artıq vətəndaş müharibəsinin, daxili çəkişmələrin və xaosun ölkəyə hansı fəlakətlər gətirdiyini yaxın keçmişin acı təcrübəsindən bilir. Məhz buna görə də "Azadlıq" meydanına toplaşan kiçik radikal qrup istisna olmaqla, Tbilisi və Gürcüstanın digər bölgələrinin əhalisi həmin avantüraya dəstək vermədi.

Uğursuz çevriliş cəhdinin Gürcüstan və bütövlükdə Cənubi Qafqaz regionu üçün mühüm nəticələri və dərsləri var. Birincisi, həmin hadisə, paradoksal olsa da, Gürcüstan dövlətçiliyini daha da gücləndirdi. Dövlət konstitusion quruluşu qorumaq üçün bütün zəruri siyasi iradəyə və gücə malik olduğunu sübut etdi. İkincisi, cəmiyyətdə qırmızı xətlər çızıldı. Siyasi müxalifətçiliklə dövlətə qarşı cinayətkar fəaliyyət arasında aydın sərhəd müəyyənləşdi. Üçüncüsü, Gürcüstanın daxili sabitliyinin bütün regionun təhlükəsizliyi və inkişafı üçün nə qədər həlledici əhəmiyyətə malik olduğu bir daha anlaşıldı.

Oktyabrın 4-dən 5-nə keçən gecə Gürcüstanın müasir tarixinə dövlətçiliyin və qanunun aliliyinin təntənəsi kimi daxil oldu. Xaos və anarxiya planları iflasa uğradı, sülh və sabitlik qalib gəldi. Gürcüstan dövləti və xalqı bütün dünyaya və xüsusilə regiona aydın mesaj verdi ki, ölkənin inkişaf yolu təkamül, demokratik təsisatların gücləndirilməsi və milli maraqlara əsaslanan müstəqil siyasətdən keçir. Uğursuz çevriliş cəhdi təşkilatçılarının həbsi zorakılığın və qanunsuzluğun cəzasız qalmayacağının təsdiqidir. Həmin hadisə Gürcüstan üçün ağrılı sınaq olsa da, eyni zamanda, ölkənin siyasi immunitetini gücləndirən və gələcək təhdidlərə qarşı daha dayanıqlı edən mühüm təcrübə oldu.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Ermənistanda hakimiyyətə etimadsızlıq çağırışı

## *"Ölümə məhkum" cəhdi "siyasi oyunbazlıq" ssenarisidir*

**Ermənistanda müxaliflərin aktivləşməsi fonunda baş nazir Nikol Paşinyan hökumətinə etimadsızlıqla bağlı kampaniya tərəfdarlarının da səsləri eşidilməkdədir. Kampaniyanın təşəbbüskarı parlamentin "Şərəfim var" fraksiyası və onun rəhbəri Hayk Mamicanyandır. Əslində, indiyədək də məsələ gündəmə gəlib, amma əks cinah təmsilçilərinin istəkləri həyata keçməyib. Yazımızda bunun səbəbini açıqlamağa çalışacağıq.**



Məlumat üçün deyək ki, Paşinyana və komandasına etimadsızlıq kampaniyası ilk dəfə 2021-ci ilin may-iyun aylarında aparılıb. Həmin vaxt "Vətənin qurtuluş hərəkatı" adlanan koalisiya yaradılmışdı ki, onun liderləri sırasında Vazgen Manukyan, Seyran Ohanyan və İşxan Saqatelyan yer alırdı. Məqsəd Nikol iqtidarının həmin ilin iyununda keçirilmiş növbədənkənar parlament seçkilərində iştirakına yol verməmək idi.

İkinci belə cəhdə birincidən düz bir il sonra baş vurulmuşdu. Bu dəfə parlamentin "Ermənistan" və "Şərəfim var" fraksiyaları ön planda idilər. Həmin vaxt müxaliflər impiçment üçün kifayət qədər deputat imzası toplamaq məqsədilə parlament binasında etiraz aksiyaları və blokadalar təşkil etdilər. Yekunda cəmi 35 deputat təşəbbüsə qoşuldu ki, bu sayın necə yarandığını vurğulayacağıq.

2023–2024-cü illərdə də hökumətə etimadsızlıq göstərilməsinə nail olmaq cəhdləri qeydə alınıb. Bu məqsədlə yenə İşxan Saqatelyan, Artur Vanesyan kimi fiqurlar, habelə indiki təşəbbüsün müəllifi H.Mamicanyan öndə olublar. Onlar bəyanatlarında etimadsızlıq səsverməsi üçün siyasi zəmin hazırlandığını vurğulamışdılar. Əlbəttə, o zəmini "görən" olmadı.

Hazırda "Şərəfim var" fraksiyası tərəfindən qaldırılmış etimadsızlıq təşəbbüsünün məqsədi də 2021-ci ildəki aksiyanın məqsədindən fərqlənmir. Mamicanyan bildirib ki, istəkləri Paşinyanın "Vətəndaş sazişi" Partiyasının 2026-cı ildə keçiriləcək parlament seçkilərində iştirakına yol verməməkdir. O, mövcud istiqamətdə hazırlıq işlərinin getdiyini bildirsə də, detalları açıqlamaqdan yayınıb. Yalnız onu deyib ki, indiki mərhələdə əsas diqqət prosesə müstəqil deputatların cəlb edilməsinə ayrılır. Təşəbbüsə dəstək verəcək şəxslərə gəldikdə, Mamicanyan ad çəkməyin hələ tez olduğunu bildirib: "Kim və necə prosesi dəstəkləyəcək, hamımız görəcəyik".

Mamicanyanın fikirlərindən gəlinən nəticə onu deməyə əsas verir ki, "Şərəfim var" fraksiyasının başlıca məqsədi Paşinyanı devirməkdən sonra seçki keçirməkdir. Ancaq bu fikri Ermənistan parlamentində təmsil olunan bütün müxalif qüvvələrin dəstəklədiklərini söyləmək doğru sayılmaz. Məsələn, bir neçə gün öncə mətbuat konfransı düzənləyən ölkənin ikinci prezidenti Robert Koçaryan deyib ki, növbəti parlamentə "Vətəndaş müqaviləsi", "Ermənistan" bloku və iş adamı, hazırda həbsdə yatan Samvel Karapetyanın rəhbərlik etdiyi qüvvə daxil olacaq. Parlamentdəki "Şərəfim var" fraksiyasında hərəkətverici qüvvə isə üçüncü prezident Serj Sarkisyanın "Respublika" Partiyasıdır. Deməli, Sarkisyanın istəyi Koçaryanın istəyi ilə üst-üstə düşmür. Ən başlıcası, ikinci birincini parlamentdə görmək istəmir. Ona görə də Mamicanyanın "əgər bu işdə bütün həmkarlarımız bizə kömək etsələr, yaxşı olardı" söyləməsinin heç bir əhəmiyyəti yoxdur. Çünki indidən köməyin olmayacağı bəllidir.

Qeyd edək ki, Mamicanyan impiçment təşəbbüsünün reallaşmasının zəruriliyini də əsaslandırıb. Onun sözlərinə görə, hazırkı iqtidar seçkilərədək imzalayacağı siyasi sazişlərlə Ermənistanı risklərə ata bilər, nəticədə ölkənin gələcəyi qeyri-müəyyənliyə sürüklənər. Yeri gəlmişkən, Ermənistanda hakimiyyətə ilk etimadsızlıq kampaniyası cəhdi Qarabağdakı rüsvayçı məğlubiyyətlə, ikincisi, Paşinyanın ölkəni qeyri-bərabər razılaşmalara sürükləməsi ilə əsaslandırılmışdı.

Maraqlıdır ki, Mamicanyan təmsil olunduğu müxalif cinahın hakimiyyətə gəlmək niyyətinin olmadığını da açıqlayıb. Hakimiyyətin getməsinə nail olmaq, amma hakimiyyətdə təmsil olunmamaq. Əlbəttə ki, məsələ şübhəlidir. Ümumən isə müxaliflərin impiçment təşəbbüsü yalnız siyasi təzyiq vasitəsidir. Onlar bu yolla erməni cəmiyyətində iqtidara qarşı ciddi antipatiya yaratmağa çalışırlar. Yəni çalışırlar ki, antipatiya fonunda həyata keçirəcəkləri nümayiş və mitinqlərə daha çox insan toplansın, izdiham qeydə alınsın. O qədər böyük izdiham ki, hakimiyyəti zorakılıqla devirmək üçün güc formalaşsın.

Ancaq müxaliflərin indiyədək reallaşdırdıqları küçə aksiyalarında da ciddi say nəzərə çarpmır. Səbəb budur ki, erməni xalqı daşnak cinayətkarlardan, Qarabağ canilərindən ibarət "ekslərin" hakim rol oynadıqları siyasi birləşmələrə inanmır. Onların müstəqil şəkildə parlamentdə təmsil oluna bilməmələri də fikrimizin sübutudur. Elə "Şərəfim var" fraksiyasını götürək. Bu fraksiya S.Sarkisyanın Respublika Partiyası ilə Ermənistan Dövlət Təhlükəsizliyi Xidmətinin sabiq rəisi Artur Vanesyanın Vətən partiyasının, bir növ, sintezidir.

Koçaryanın "Ermənistan" ("Hayastan") partiyası 2021-ci il seçkilərində parlamentə düşmək üçün "Daşnaksütyun" partiyası və kiçik mühafizəkar siyasi qurum olan Dirçəlişlə ittifaqa girmiş, "Ermənistan" fraksiyası formalaşdırmışdı. Hazırda sabiq müdafiə naziri Seyran Ohanyanın rəhbərlik etdiyi bu fraksiya erməni Milli Assambleyasında 29 mandat yerinə sahibdir. "Şərəfim var" fraksiyası isə ali qanunverici orqanda cəmi 6 deputat yeri ilə təmsil olunmaqdadır.

Sonda qeyd edək ki, Ermənistan konstitusiyasına görə, hökumətə etimadsızlıq səsverməsi yalnız parlament çoxluğunun - ən azı 54 deputatın dəstəyi ilə həyata keçirilə bilər. Hazırda hakim "Vətəndaş sazişi" partiyası parlamentdə 107 yerdən 71-nə sahibdir. Belə demək mümkünsə, blokçu müxalifətin müstəqil deputatları ələ almasına gəlincə, ötən impiçmentə cəhd təcrübəsi göstərir ki, onlardan heç biri etimadsızlıq məsələsinə dəstək verməmişdi. Heç şübhəsiz, indi Mamicanyan fikrindən daşınmasa, say iki fraksiyanın ümumi 35 deputat sayını keçməyəcək, yaxud vəziyyət çox az dəyişəcək. Deməli, Paşinyanı və komandasını impiçmentlə hakimiyyətdən uzaqlaşdırmaq mümkünsüzdür. Seçkidə onun rəhbərlik etdiyi qüvvəni məğlubiyyətə uğratmaq da müşkil görünür. Ermənistanda belə bir qüvvə nəzərə çarpmır.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Türk xalqlarının minillik arzusu




**Müasir dövrümüzdə dünya düzəninin yenidən formalaşması və bu fonda beynəlxalq münasibətlər sistemində yeni regional platformaların meydana çıxması dünyada sabitlik, təhlükəsizlik və inkişaf anlayışlarına yeni məzmun gətirir. Bu reallıqlar fonunda Türk Dövlətləri Təşkilatı təkcə ortaq tarix və mədəniyyət zəminində yaranmış birlik deyil, həm də geosiyasi və geoiqtisadi təsir gücünə malik strateji platforma kimi formalaşmaqdadır. Son illərdə təşkilatın inkişaf dinamikası göstərir ki, türk dövlətləri artıq qlobal sabitlik və təhlükəsizlik arxitekturasında müstəqil subyekt kimi çıxış etməyə iddialıdır. Bu mənada 7 oktyabr 2025-ci ildə Qəbələdə keçirilən Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşünü həm siyasi, həm də ideoloji baxımdan yeni mərhələnin başlanğıcı kimi dəyərləndirmək olar. Zirvənin "Regional sülh və təhlükəsizlik" mövzusuna həsr olunması da qlobal idarəetmə sistemində türk dünyasının rolunun və strateji məramının birbaşa göstəricisidir.**

XII Qəbələ Zirvəsi göstərir ki, Prezident İlham Əliyevin bundan əvvəl Bişkek, Şuşa və Budapeşt zirvələrində səsləndirdiyi "Türk Dövlətləri Təşkilatı dünya miqyasında güc mərkəzlərindən birinə çevrilməlidir" çağırışı artıq strateji konsepsiya səviyyəsinə yüksəlmişdir. Azərbaycanın ardıcıl təşəbbüsləri nəticəsində TDT etno–mədəni birlikdən real təsir gücünə malik olan siyasi-iqtisadi birliyin təşəkkül mərhələsinə qədəm qoymuşdur. Prezidentin XII Zirvə Toplantısındakı çıxışı TDT-nin transformasiya proseslərini dərin elmi-siyasi əsaslarla izah edir. Dövlət başçısının vurğuladığı kimi, bu gün TDT artıq yalnız əməkdaşlıq platforması deyil, beynəlxalq münasibətlər sistemində ciddi geosiyasi mərkəzlərdən birinə çevrilməkdədir.

Qəbələ Zirvəsində təşkilata sədrliyin Qırğızıstandan Azərbaycana keçməsi sadəcə rotasiya deyil, ölkəmizin liderlik missiyasının beynəlxalq səviyyədə rəsmi təsdiqi kimi qiymətləndirilməlidir. Şübhə yoxdur ki, Azərbaycanın TDT-yə sədrliyi bu təşkilatın institusional dayanıqlılığının möhkəmlənməsində mühüm mərhələ olacaq. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, birgə hərbi təlimlər, iqtisadi inteqrasiya və humanitar əməkdaşlıq istiqamətlərində ölkəmiz fəal rol oynayır. Azərbaycanın sabit siyasi sistemi, iqtisadi potensialı, strateji–coğrafi mövqeyi və güclənən hərbi-siyasi imkanları TDT-nin təşəkkül proseslərinə mühüm töhfələr verir. Bütün bunlar Azərbaycanın təşkilat daxilində təkcə ideoloji baxımdan istiqamətverici deyil, həm də regional və qlobal strategiyanı müəyyənləşdirən mərkəz kimi formalaşdığını nümayiş etdirir.

Təhlükəsizlik və sülh anlayışları TDT-nin əsas sütunlarını təşkil edir. Prezident İlham Əliyevin vurğuladığı kimi "təhlükəsizlik təmin edilmədən inkişaf mümkün deyil". 2020-ci ilin Vətən müharibəsində əldə edilmiş tarixi Zəfərimiz və 2023-cü ildə böyük uğurla həyata keçirilmiş antiterror tədbirləri nəticəsində Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpası yalnız milli səviyyədə deyil, həm də bütövlükdə regionda ədalətin, sülhün və sabitliyin bərqərar olunması baxımından beynəlxalq əhəmiyyət kəsb edən mühüm hadisədir. Vaşinqtonda paraflanan sülh sazişi və ATƏT-in müvafiq qərarları isə Cənubi Qafqazda yeni sülh mərhələsinin başlanğıcını təsdiqləyir. Bu, Azərbaycanın sülh gündəliyinin beynəlxalq səviyyədə reallaşması deməkdir.

Türk Dövlətləri Təşkilatının çağdaş inkişaf trayektoriyası onu təkcə mədəni inteqrasiya mərkəzinə deyil, həm də strateji təhlükəsizlik və iqtisadi əməkdaşlıq platformasına çevirir. Naxçıvan Sazişindən bu günə qədər TDT regional sabitliyin möhkəmləndirilməsi, etimad mühitinin formalaşdırılması və enerji-nəqliyyat dəhlizlərinin koordinasiyasında aparıcı rola malik olub. Gələcəkdə planlaşdırılan birgə hərbi təlimlər, kibertəhlükəsizlik təşəbbüsləri və müdafiə sənayesi sahəsində sıx əməkdaşlıq layihələri təşkilatın Avrasiya təhlükəsizlik sistemində mühüm aktora



*Cavanşir FEYZİYEV,*
*Milli Məclisin deputatı,*
*fəlsəfə doktoru*

çevrilməsini təmin edəcək. Bu istiqamətdə Azərbaycan-Türkiyə müttəfiqliyi TDT-nin strateji dayağını formalaşdırır.

Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən nəqliyyat və enerji layihələri TDT çərçivəsində iqtisadi əməkdaşlığın dərinləşməsinə güclü təkan verir. Yaxın gələcəkdə Zəngəzur dəhlizinin açılması, Orta Dəhliz boyunca tranzit müddətlərinin azaldılması və Xəzər dənizi üzərindən logistika əlaqələrinin genişləndirilməsi türk dövlətlərinin inteqrasiyasını daha da sürətləndirəcək. Azərbaycanın bərpaolunan enerji sahəsində həyata keçirdiyi layihələr – külək, günəş və su enerjisinə yönələn sərmayələr – regionun ekoloji və iqtisadi dayanıqlılığını gücləndirir. Hazırda Mərkəzi Asiya, Azərbaycan, Türkiyə və Avropa arasında yaradılan "yaşıl enerji dəhlizi" layihəsi bu əməkdaşlığın strateji hədəfinə çevrilməkdədir.

Azərbaycanın azad edilmiş ərazilərində qardaş Türk dövlətlərinin iştirakı ilə reallaşan humanitar və infrastruktur layihələri böyük türk həmrəyliyinin praktiki ifadəsidir. Füzulidə Özbəkistanın inşa etdiyi Mirzə Uluqbəy məktəbi, Qazaxıstanın dəstəyi ilə yaradılmış Kurmanqazı Yaradıcılıq Mərkəzi, Ağdamda Qırğızıstan tərəfindən tikilən məktəb, Cəbrayılda Macarıstanın layihəsi və Füzulidə Türkmənistan tərəfindən məscid binasının tikilməsi bu birliyin mənəvi dərinliyini təcəssüm etdirir. Bu layihələr təkcə qardaşlıq rəmzi deyil, həm də TDT-nin humanitar və mədəni diplomatiyasının real təzahürüdür. Qarabağ Bəyannaməsi də məhz bu qardaşlıq ruhunun siyasi manifesti kimi çıxış edir.

Türk Dövlətləri Təşkilatı sadəcə ölkələrimiz arasında iqtisadi və siyasi inteqrasiyanın deyil, həm də türk sivilizasiyası çərçivəsində müasir dövrün çağırışlarına uyğun yeni bir siyasi birlik modelinin ifadəsidir. Bakı, Şuşa, Bişkek, Budapeşt və Qəbələ Zirvə görüşləri bu inteqrasiyanın ideoloji, institusional və strateji əsaslarını möhkəmləndirərək, türk dünyasının birliyini qlobal miqyasda yeni bir mərhələyə daşıyır. Türk dövlətlərinin vahid güc mərkəzi kimi çıxış etməsi sülhün, ədalətin və inkişafın təminatına yönəlmiş regional birlik modelidir. Bu modelin hərəkətverici qüvvəsi kimi Azərbaycan yalnız TDT-nin gələcəyini deyil, bütövlükdə Avrasiyanın sabitlik və tərəqqi arxitekturasını formalaşdırır. Məhz bu səbəbdən sülh, təhlükəsizlik və davamlı inkişaf Türk Dövlətləri Təşkilatının yol xəritəsində başlıca istiqamətlər kimi öz əksini tapır.

TDT-nin fəaliyyətində Avropa İttifaqının üzvü olan Macarıstanın Baş naziri Viktor Orbanın iştirakı, TDT-nin qlobal siyasətdə koordinasiyalı mövqeyinin formalaşdırılması baxımından olduqca əhəmiyyətlidir. Bu, türk dünyasının XXI əsrdə geosiyasi qütb kimi möhkəmlənməsinə və beynəlxalq münasibətlər sistemində daha fəal rol oynamasına öz töhfələrini verəcək.

Qəbələ Zirvə Toplantısında qəbul olunmuş qərarlar TDT inkişafının növbəti mərhələsində vahid iqtisadi məkanın yaradılmasını, bütün türk coğrafiyasında insanların, əmtəə və xidmətlərin sərbəst hərəkətini, vahid müdafiə sisteminin formalaşdırılmasını və nəhayət, qlobal siyasət meydanında vahid mövqedən çıxış edilməsini təmin edəcək.

TDT minillərdən bəri türk xalqlarının arzuladığı, tarixin müxtəlif zamanlarında çox yaxın olduqları, lakin son anda xarici təsir və daxili anlaşılmazlıqlar səbəbindən reallaşdıra bilmədiyi ən müqddəs arzuların həyata keçirilməsinə açılan bir qapıdır. Bu qapı bütün türk dünyasının sarsılmaz birlik, yüksək rifah və zəmanətli təhlükəsizlik şəraitində yaşayacağı gələcəyə açılan qapıdır.

# Ermənilər "Gümrü anlaşması"ndan niyə qorxurlar?

**(əvvəli 1-ci səhifədə)**

Məlumdur ki, indi Ermənistanla Türkiyə arasında münasibətləri normallaşdırmaq üçün danışıqlar gedir. 44 günlük Qarabağ müharibəsindən, Ermənistanın darmadağın edilməsindən sonra bölgədə yaranmış yeni reallıq qonşu dövlətlər arasında mübahisəli bütün məsələləri masaya qoymaq və razılaşmaq üçün imkanlar yaradıb. İkitərəfli danışıqlarda rəsmi Ankara təmsilçisi, tanınmış diplomat Sərdar Kılıç, İrəvanın xüsusi nümayəndəsi Ermənistan parlamentinin sədr müavini Ruben Rubinyan arasında bugünədək 6 görüş keçirilib. Münasibətlərinin normallaşması və sərhədlərin açılması məsələsi əsas müzakirə mövzusudur. Ermənistan–Türkiyə münasibətlərinin həlli həm də Azərbaycan–Ermənistan münasibətlərinin sülhlə nəticələnməsindən asılıdır. Bunu Türkiyə tərəfi gizlətmir və Vaşinqton Bəyannaməsindən sonra Ermənistanla Azərbaycan arasında hazırlanan 17 bəndlik sülh müqaviləsi layihəsi paraflanandan sonra bölgədə möhkəm sülh üçün əngəl qalmadığı görünməkdədir.

***

Kılıç–Rubinyan arasında sonuncu görüş İrəvanda oldu. Şübhəsiz ki, bu görüşdən son qərarın çıxması gözlənilmirdi. Erməni mediasının məlumatına əsasən, bağlı qapılar arxasında daha bir məsələdən bəhs edilib: Ermənistan–Türkiyə sərhədlərinin demarkasiyası və delimitasiyası. İndiki sərhədlər 1921-ci il Qars müqaviləsi ilə müəyyənləşdirilib. 1921-ci il martın 16-da imzalanan Moskva müqaviləsi, daha sonra 13 oktyabr 1921-ci ildə Qars müqaviləsi Ermənistanla deyil, Sovet dövləti ilə Türkiyənin sərhədlərini müəyyənləşdirib. Ankara və İrəvan arasında bağlanan ən son anlaşma Qars müqaviləsidir ki, indi həmin müqavilədən bəhs edilməsi təbiidir. Yeni mərhələdə Ermənistanla Türkiyə arasında münasibətlərin normallaşmasını istəməyən revanşist qüvvələr Paşinyan hakimiyyətini bu danışıqlardan imtina etməyə çağırırlar. Məsələn, "İşıqlı Ermənistan" partiyasının sədri Edmon Marukyan deyir ki, Türkiyə ilə diplomatik münasibətlərin qurulması Ermənistana yaxşı heç nə vəd etmir. Sərhədlər açılarsa, Ermənistan "iqtisadi işğala" məruz qalacaq və dövlət kimi öz suverenliyini itirəcək. Ermənistan İctimai Televiziyasında Petros Qazaryanın moderatorluğu ilə aparılan müzakirədə açıq şəkildə bildirənlər oldu ki, Ermənistan bu anlaşmalardan imtina etməlidir. Revanşist "Milli Demokratik Qütb" təşkilatının rəhbərlərindən biri Vahe Qasparyan deyir ki, əgər Ermənistanla Türkiyə müəyyən razılaşmaya gələrsə, o zaman 1920-ci il dekabrın 2-dən 3-nə keçən gecə imzalanan Aleksandropol müqaviləsinin maddələrinin bu gün tətbiq olunmayacağına təminat yoxdur.

Erməni cəmiyyətində antitürk əhvali-ruhiyyəsindən doğan fikirlər və şübhələr ayrı-ayrı şəxslərin bəyanlarında yer alır. Bu onu göstərir ki, erməni cəmiyyəti mövcud reallıqla barışmaqdan hələ uzaqdır. Bəli, o vaxtkı Ermənistan dövləti Gümrü anlaşması ilə elədiklərinin bədəlini ödəmişdi. Amma bu tarixi hadisədən yüz ildən artıq vaxt keçməsinə baxmayaraq, nəticə çıxarılmayıb.

***

Tarixə nəzər yetirək. Bu müqavilə 1920-ci il Ermənistan–Türkiyə müharibəsində erməni tərəfinin məğlubiyyəti nəticəsində imzalanıb. 1920-ci il noyabrın 24-də Ermənistan nümayəndə heyəti Türkiyənin əlində olan Aleksandropola gəldilər. Ertəsi gün TBMM hökuməti təmsilçiləri ilə erməni heyəti arasında sülh danışıqları rəsmən başlandı. Ermənistan nümayəndə heyətinin rəhbəri Aleksandr Xatisyan olub. 16 nəfərdən ibarət heyətin səlahiyyətli üzvləri, həmçinin keçmiş maliyyə naziri Abraham Gülxandanyan, Qarsın işğalı dövründə buranın qubernatoru olmuş Stepan Qorqanyan idilər. Müqaviləni Türkiyə tərəfdən Türkiyə Ordusunun komandanı Kazım Karabəkir Paşa, erməni tərəfdən isə baş nazir Aleksandr Xatisyan imzalayıb.

Müqaviləyə əsasən, Qars vilayəti və Sürməlu qəzası Türkiyəyə verildi, Naxçıvan, Şərur, Şahtaxtı bölgələri isə Türkiyənin himayəsində Azərbaycanın elan edildi. Ermənistan ordu saxlamaq hüququndan məhrum oldu, onun ordusunun sayı 1500 əsgər, 8 top və 20 pulemyotla müəyyən edildi. Türkiyə Ermənistan hökumətinin müraciətinə əsasən, daxili və xarici təhlükə yarandığı təqdirdə Ermənistana silahlı yardım etməyə borclu idi. Aleksandropol müqaviləsi imzalandıqdan bir ay sonra ratifikasiya edilməli idi. Fəqət Ermənistan Sovet Sosialist Respublikası müqaviləni tanımadı. Bu sənəd 1921-ci il martın 16-da Moskva müqaviləsi, 13 oktyabr 1921-ci ildə isə Qars müqaviləsi ilə əvəz olundu.



Məsələ burasındadır ki, Türkiyə bu müqaviləni Sovet Rusiyası ilə imzalayıb. Əgər indi Sovetlət İttifaqı və Ermənistan SSR yoxdursa, deməli, Türkiyə–Ermənistan sərhədləri Aleksandropol müqaviləsinə görə müəyyən edilməlidir. Bu zaman Qars anlaşması qüvvədən düşmüş hesab ediləcək. Həmin anlaşmaya görə, Ermənistanın ərazisi 10 min kvadratkilometrə yaxındır. İndiki Ermənistanın Türkiyə ilə sərhəddəki yaşayış məntəqələri (o zaman burada Azərbaycan türkləri yaşayırdılar) Türkiyəyə aid olub. Müqavilənin maddələrinıə nəzər salsaq görərik ki, bu sənəd Ermənistanın kapitulyasiya aktıdır. 10-ci maddəyə görə, Türkiyə və Ermənistan arasında müharibə başa çatıb. 2-ci maddə Ermənistan Respublikası ilə Türkiyə arasındakı sərhədləri müəyyənləşdirdi. Qars rayonu və Sürməli vilayəti (20,7 kvadratkilometrdən çox) Türkiyəyə keçdi, Naxçıvan, Şərur və Şahtaxtı bölgələri isə müvəqqəti olaraq Türkiyənin himayəsi altında elan edildi. Daha sonra referendum yolu ilə burada xüsusi idarə yaradılacaqdı. Ermənistan hökuməti həmin idarənin hansı formada olmasından asılı olmayaraq, onun fəaliyyətinə müdaxilədən məhrum idi. Ermənistan Respublikası Türkiyədən Qars vilayəti və Sürməli qəzasında referendum keçirməyi tələb etmək hüququnu özündə saxlayırdı. Amma həmin maddənin 3-cü bəndində bu ərazilərin Türkiyə ilə mübahisəsiz tarixi, etnik və hüquqi əlaqəsi olduğu bildirilirdi. 4-cü maddəyə görə, tərk–silah edilən Ermənistan ordu saxlamaq hüququndan məhrum edilmişdi. 5-ci maddəyə əsasən, sülh bağlandıqdan sonra İrəvana gəlməli olan Türkiyənin siyasi nümayəndəsi və ya elçisinə yuxarıda qeyd olunan şərtlərin yerinə yetirilməsi ilə bağlı öz mülahizəsinə uyğun olaraq, yoxlama və araşdırma aparmaq hüququ verilmişdi. Əvəzində Türkiyə həm xarici, həm də daxili təhlükə yarandığı təqdirdə Ermənistana silahlı yardım göstərməyi öhdəsinə götürdü. İrəvan hökuməti Sevr müqaviləsindən (1920) imtina edir, ölkələr arasında münasibətləri gərginləşdirən, qızışdıran bütün şəxsləri dövlət idarəçiliyindən kənarlaşdırmağı öz öhdəsinə götürürdü. Bundan başqa, ABŞ-dakı nümayəndələrini geri çağırmalı idi. Bu müqavilə ilə Türkiyənin zərərinə bağlanmış və ya onun dövləti maraqlarına toxunan bütün anlaşmalar etibarsız sayılmışdı. Türkiyə Ermənistanın dəmir yollarına və kommunikasiya yollarına nəzarət etmək, ölkə ərazisində hərbi tədbirlər görmək hüququ əldə edirdi. Müqavilə ilə Ermənistanın bir hissəsi kimi tanınan, lakin Türkiyənin nəzarətində olan rayonlar (əsasən Gümrü vilayəti) Ermənistan müqavilənin bütün bəndlərini yerinə yetirdikdən sonra azad edilməli idi. Bu bənd Türkiyəyə vilayət üzərində uzunmüddətli nəzarəti davam etdirmək imkanı verirdi. Sənəd elə tərtib edilmişdi ki, onun bu və ya digər şərtlərinin natamam və ya düzgün yerinə yetirilməməsindən həmişə yapışmaq olardı. Çünki diplomatiya siyasi cığallıq üzərində qurulmur.

***

İndi bəzi erməni politoloqları Türkiyənin həmin müqaviləni ortaya qoymasından narahat olurlar. Əlbəttə, Türkiyə bu məsələyə bütün parametrləri ilə baxır. Ermənistan rəsmi dairələrindən bu məsələnin danışıqlar predmeti olduğu barədə məlumatlar yoxdur. Bəlkə də bəzi dairələr Ermənistan–Türkiyə danışıqlarını pozmaq üçün qəsdən belə iddialar yayırlar. Şübhəsiz, yeni münasibətlər qurularkən sərhədlərin dəqiqləşdirilməsi üçün keçmiş müqavilələr nəzərə alınacaq, amma bu o demək deyil ki, Türkiyə yeni şərtlər irəli sürür. Belə bir məqsəd yoxdur. Əslində, görmüşük ki, Ermənistan həm Aleksandropol, həm də Qars müqavilələrinin "tarixi ədalətsizlik" yaratdığını iddia edərək, müqavilələrin yenidən nəzərdən keçirilməsini tələb edib. Türkiyə bu iddianı da anlayışla qarşılayır.

Hər iki müqavilə müasir münasibətlərdə simvolik və hüquqi mübahisə mənbəyi olaraq qalır. Türkiyə mövcud sərhədlərin tanınmasını təkid edərkən, Ermənistan tarixi müqavilələrin "siyasi təzyiq" nəticəsində yarandığını vurğulayır. İntəhası, məsələyə fərqli yanaşmalar münasibətlərin normallaşmasına, sərhədlərin dəqiqləşdirilməsinə əngəl yaratmır.

*Qafar ÇAXMAQLI,*
*XQ-nin Türkiyə üzrə xüsusi müxbiri*

# Müstəqilliyə və dövlət suverenliyinə konstitusiya təminatı mexanizmi

## *2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi Azərbaycanın tarixi uğurları ilə bağlı dünyaya verilən mesajdır*

**Azərbaycan xalqı ərazilərinin 30 illik işğalına son qoyulması, tarixi ədalətin və beynəlxalq hüquq normalarının bərpası ilə nəticələnən, Cənubi Qafqazda yeni geosiyasi reallığın əsasını qoyan tarixi Zəfərinin beşinci ildönümünü qeyd etməyə hazırlaşır. Müzəffər Ordumuz 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək davam edən İkinci Qarabağ müharibəsi zamanı qazandığı parlaq hərbi-siyasi qələbə ilə torpaqlarımızın otuz ildən çox davam edən işğalına son qoyaraq, üzləşdiyi ədalətsiz münaqişənin həllinə məhz döyüş meydanında nail olub.**




*Nüfuzlu italyan filosofu və yazıçısı Nikkolo Makivelli yazırdı ki, "Müharibədən qaçmaq mümkün deyil, onu yalnız düşməndən üstün olana qədər təxirə salmaq olar".* Uzun illər ərzində rəsmi Bakının danışıqlar prosesində iştirakını şərtləndirən mühüm amillərdən biri də respublikamızın haqlı mövqeyini beynəlxalq miqyasda, əsasən də mötəbər təşkilatlar çərçivəsində sübuta yetirmək üçün vaxt imkanı əldə etmək istəməsi olub. Tarixin arxivinə gömülmüş ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlar prosesi nəticəsiz olsa da, təcavüzkarı ifşa etmək, onun işğalçı siyasəti barədə beynəlxalq miqyasda düzgün rəy formalaşdırmaq baxımından mühüm əhəmiyyət daşıyıb. Rəsmi Bakının danışıqlar prosesində sonadək təmkinlə iştirakı ona həm də hərb yolunun seçilməsi üçün əsaslı arqumentlər verib. Yəni danışıqlar prosesinin nəticəsiz qalması rəsmi Bakıya hərb yolunun qaçılmazlığını zamanla beynəlxalq ictimaiyyətə əsaslandıraraq çatdırmaq, münaqişəsinin keyfiyyətcə yeni mərhələyə transformasiyasına və hərbi-siyasi yolla həllini gündəliyə gətirmək imkanı yaradıb.

Xalqımızın 44 günlük Vətən müharibəsində qazandığı mənəvi zəfərin ictimai təfəkkürə təsiri hərbi əməliyyatlar zamanı əldə edilmiş qələbələr qədər möhtəşəmdir. Ali Baş Komandanın prinsipiallığı və dəmir iradəsi, qəhrəman hərbçilərimizin canı-qanı bahasına qazanılmış bu şərəfli qələbə xalqın milli qürurunu, özünə güvənini, inamını qaytarıb.

Sonrakı mərhələdə 2023-cü il sentyabrın 19-20-si tarixində müzəffər Ordumuz həyata keçirdiyi cəmi 23 saatlıq lokal antiterror tədbirləri ilə təcavüzkar Ermənistanın ərazimizdə formalaşdırdığı qeyri-qanuni xunta rejiminin mövcudluğuna son qoyub, separatizmin kökünü kəsib. Xalqımız hələ ötən əsrin 90-cı illərində dövlətçiliyə qarşı yönəlmiş xəyanətkar qəsdlər, çevriliş cəhdləri zamanı, eləcə də Azərbaycan Respublikasının ilk milli Konstitusiyasının qəbulu zamanı göstərdiyi birlik və həmrəyliyi ərazilərinin işğaldan azad edilməsi, suverenliyinin bərpası zamanı daha böyük mütəşəkkiliklə nümayiş etdirib. Bu şanlı zəfərlərin qayəsində yer alan həlledici amil xalqımızın vahid amal uğrunda dəmir yumruq kimi birləşməsi, öz liderinə sonsuz güvənməsi, onun qərarlarını tərəddüdsüz dəstəkləməsi olub.

Suverenliyimizin bərpasının nəticəsində "Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi" adlı qondarma problemin gələcək nəsillərə ötürülməsinin də qarşısı alınıb. Azərbaycanın bu zəfərlərə son dərəcə mürəkkəb geosiyasi vəziyyətdə - dünyada ikili standartların hökm sürdüyü, beynəlxalq hüququn işləmədiyi bir şəraitdə nail olması da xüsusi qeyd olunmalıdır.

Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 25-də ABŞ-ın Nyu-York şəhərində BMT Baş Assambleyasının 80-ci sessiyasında çıxışı zamanı bununla bağlı bildirib: *"Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi dörd qətnamədə Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb olundu. Təəssüf ki, bu qətnamələr heç vaxt icra edilmədi. Ermənistan beynəlxalq ictimaiyyət tərəfindən heç bir sanksiyaya məruz qalmadığı üçün qətnamələrə nümayişkaranə şəkildə məhəl qoymadı. 1992-ci ildə münaqişənin həlli üçün təsis edilmiş ATƏT-in Minsk qrupu isə öz missiyasını yerinə yetirə bilmədi. Onun həmsədrləri beynəlxalq hüququn norma və prinsiplərini təmin etmək əvəzinə, status-kvonu qoruyub saxlamağa və münaqişənin dondurulmasına çalışdılar."*

İkinci Qarabağ müharibəsi və lokal antiterror tədbirlərinin digər mühüm nəticəsi ondan ibarətdir ki, Ordumuzun həyata keçirdiyi uğurlu hərbi əməliyyatların yekunu olaraq, xalqımızın konstitusion hüquq və azadlıqları tam təmin olunub. Məlumdur ki, Ermənistanın xarici dəstək hesabına 30 ildən çox davam etmiş işğalçı siyasəti nəticəsində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində Azərbaycan qanunlarının yurisdiksiyasının, habelə inzibati dövlət qurumlarının fəaliyyətinin təmini mümkün olmayıb. İşğalın davam etdiyi dövrdə ərazilərimizdə qeyri-qanuni separatçı rejimin formalaşdırılması, bələdiyyə və parlament seçkilərinin keçirilməməsi, dövlət orqanlarının fəaliyyət göstərməməsi xalqın suverenliyi prinsipi ilə ziddiyyət təşkil edib.

Prezident İlham Əliyevin 28 dekabr 2024-cü il tarixli sərəncamı ilə 2025-ci ilin Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik ili" elan olunması, bu mənada, regiondakı yeni geosiyasi reallıqlarla şərtlənməklə, özündə tarixi zəfərlərimizi simvolizə edir. Bu il noyabr ayının 12-də ümumxalq referendumu yolu ilə qəbulunun 30-cu ildönümünü qeyd edəcəyimiz müstəqil Azərbaycan Respublikasının ilk milli Konstitusiyasının suverenlik, ərazi bütövlüyü və digər vacib məsələlərlə bağlı müddəaları qazanılan tarixi zəfərlər nəticəsində tam hüquqi işləklik və təsir gücü əldə edib.

*Böyük fransız mütəffəkiri Şarl Monteskyö "Qanunların ruhu haqqında" əsərində yazırdı ki, hər bir xalqın azadlığı onun Konstitusiyasının ədalətindən asılıdır.* Xatırlatmaq yerinə düşər ki, 1995-ci il noyabrın 12-də ümumxalq referendumu yolu ilə qəbul olunmuş Konstitusiyamız müasir dünyanın sivil dəyərlərinə və qanun yaradıcılığı təcrübəsinə, xalqımızın çoxəsrlik dövlətçilik ənənələrinə, milli və ümumbəşəri prinsiplərə söykənərək, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu üçün möhkəm təməl yaradıb. Ötən illərdə hüquqi dövlət quruculuğu yolunda inamla irəliləyən, Avratlantik məkana inteqrasiya kursunu uğurla həyata keçirən Azərbaycanda Konstitusiya ən ali qüvvəyə malik olan, insan, dövlət və cəmiyyət münasibətlərinin əsaslarını nizamlayan hüquq normaları sistemidir.

Konstitusiyamız müstəqilliyin, suverenliyin və ərazi bütövlüyünün qorunmasını dövlətin ali vəzifələrindən biri kimi müəyyən edib. Suverenlik dövlətin öz ərazisində daxili və xarici siyasətini sərbəst müəyyənləşdirmək, dövlət qurumları vasitəsilə həyata keçirmək, müstəqil və azad qərarlar qəbul etmək gücünü özündə ehtiva edən anlayışdır. Xalqın suverenliyi prinsipi Azərbaycan Konstitusiyanın 2-ci maddəsində dolğun əksini tapıb. Həmin maddənin 1-ci hissəsində göstərilir ki, sərbəst və müstəqil şəkildə öz müqəddəratını həll etmək və idarəetmə formasını müəyyən etmək Azərbaycan xalqının suveren hüququdur. Həmin maddənin 2-ci hissəsində isə qeyd olunur ki, Azərbaycan xalqı öz suveren hüququnu bilavasitə ümumxalq səsverməsi – referendum və ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, gizli və şəxsi səsvermə yolu ilə seçilmiş nümayəndələri vasitəsilə həyata keçirir.

Suverenlik anlayışı həm də dövlətimizin beynəlxalq münasibətlər sistemində yerini də müəyyən edir. Ölkə Konstitusiyasının 8-ci maddəsinin 3-cü hissəsində göstərilir ki, Azərbaycan Respublikasının Prezidenti Azərbaycan dövlətinin müstəqilliyinin, ərazi bütövlüyünün və tərəfdar çıxdığı beynəlxalq müqavilələrə riayət olunmasının təminatçısıdır. Dövlət başçısı, Ali Baş Komandan İlham Əliyev Azərbaycanın təkcə hərbi deyil, siyasi-diplomatik zəfərlərimizin əsas müəllifi olaraq, bu vəzifələrin öhdəsindən inamla gəlir, müstəqilliyin və milli suverenliyin qarantı kimi çıxış edir.

Ərazi bütövlüyü anlayışı isə dövlət suverenliyinin ayrılmaz komponenti olmaqla, yalnız coğrafi deyil, hüquqi, iqtisadi və siyasi suverenliyin təməlində yer alır. Azərbaycan Konstitusiyasının 3-cü maddəsinin 2-ci hissəsində məhz bu prinsipə əsaslanaraq, dövlət sərhədlərinin dəyişdirilməsini yalnız ümumxalq səsverməsi – referendum yolu ilə həll edilə bilən məsələlər sırasına aid edir.

Konstitusiyanın 3-cü maddəsində milli suverenliyin bilavasitə ifadəsi olan referendum institutuna yer ayrılıb. Həmin maddənin 1-ci hissəsinə əsasən, Azərbaycan xalqı öz hüquqları və mənafeləri ilə bağlı olan hər bir məsələni referendumla həll edə bilər. Həmin maddənin 3-cü hissəsində qeyd olunur ki, aşağıdakı məsələlər üzrə referendum keçirilə bilməz: 1) vergilər və dövlət büdcəsi; 2) amnistiya və əfvetmə; 3) seçilməsi, təyin edilməsi və ya təsdiq edilməsi müvafiq olaraq qanunvericilik və (və ya) icra hakimiyyəti orqanlarının səlahiyyətlərinə aid edilmiş vəzifəli şəxslərin seçilməsi, təyin edilməsi və ya təsdiq edilməsi. Bu dəqiqləşdirmə suverenlik anlayışının konstitusion-hüquqi çərçivəsinin müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Konstitusiyamızın 6-cı maddəsinin I hissəsinə əsasən, "Azərbaycan xalqının heç bir hissəsi, sosial qrup, təşkilat və ya heç bir şəxs hakimiyyətin həyata keçirilməsi səlahiyyətini mənimsəyə bilməz". Bu müddəa mahiyyətcə ali hakimiyyətin konstitusion qərarlarının bütün ərazilər üzrə mütləq və qeyd-şərtsiz həyata keçirilməsini nəzərdə tutur.

Konstitusiyamızın 7-ci maddəsi xüsusi maraq doğurur. Bu maddə Azərbaycan dövlətinin əsaslarını müəyyən edir və qeyd olunur ki, Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublikadır. Bununla həm də dövlət idarəetmə modelinin mahiyyəti birmənalı şəkildə təsbit edilib. Konstitusiyada əksini tapmış unitar dövlət prinsipi son 30 ildə ölkəmizin inkişafının hüquqi çərçivəsini, ərazi bütövlüyü və dövlət suverenliyinin toxunulmazlığını təsbit edən əsas sütunlardan olub.

Unitar dövlət modeli – ölkənin vahid, mərkəzləşdirilmiş idarəetmə sisteminə malik olması Azərbaycan üçün yalnız idarəetmə forması deyil, həm də milli təhlükəsizliyin və sabitliyin təminatçısıdır. Bu model etnik və dini müxtəlifliyə baxmayaraq, dövlətin bütövlüyünü, suverenliyini qoruyur. Başqa sözlə, unitar dövlət anlayışının Konstitusiyamızda əksini tapması ərazi bütövlüyümüzə təminat baxımından prinsipial əhəmiyyət daşıyır.

Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan Konstitusiyada unitar dövlət anlayışına yer verilməsi Ermənistana və beynəlxalq ictimaiyyətə verilən mühüm mesaj olub: Azərbaycan heç zaman ərazi bütövlüyü məsələsində geri çəkilməyəcək, işğal və separatizmlə barışmayacaq. Unitar dövlət prinsipinin konstitusion səviyyədə təsbiti, eyni zamanda, ölkə daxilində milli həmrəyliyin və vətəndaş birliyinin qorunmasına xidmət edib.

*Fizika elmi üzrə dahi alim və tanınmış mütəfəkkir Albert Eynşteyn deyirdi ki, "Sülh zorakılığın yoxluğu deyil, ədalətin mövcudluğudur".* Xüsusi vurğulamaq istərdik ki, ölkəmizdə "Konstitusiya və suverenlik ili" elan edilən 2025-ci il həm də Azərbaycanın Cənubi Qafqazda dayanıqlı, beynəlxalq hüquqa söykənən ədalətli sülh naminə apardığı danışıqlar prosesinin məntiqi sonluğa yekunlaşması ilə əlamətdardır. Belə ki, avqust ayının 8-də Vaşinqton şəhərində Azərbaycan, ABŞ və Ermənistan liderlərinin imzaladığı Birgə Bəyannamə beynəlxalq ictimaiyyət tərəfindən haqlı olaraq Cənubi Qafqazda münaqişə səhifəsinin qapadılması, dayanıqlı sülhün reallığa çevrilməsi istiqamətində atılmış qətiyyətli addım kimi qiymətləndirilir.

İkinci Qarabağ müharibəsindən sonra Ermənistan daxilində və diaspor çevrələrində səsləndirilən "gələcəkdə guya vəziyyətin dəyişəcəyi", "revanş üçün hazırlıq" kimi sərsəm iddialar artıq erməni cəmiyyətinin həlledici qismi tərəfindən qeyri-ciddi, absurd qəbul edilir. Azərbaycanın dövlət suverenliyinin bərpası, sonrakı mərhələdə əldə olunmuş ikitərəfli razılaşmalar, nəhayət, avqustun 8-də Vaşinqtonda Yekun Sülh Sazişi layihəsinin paraflanması Ermənistanda radikal-revanşist qüvvələrin mövqeyinə öldürücü zərbə olub.

Birgə Bəyannamədə qisasçılığın və güc tətbiq etməyin yolverilməzliyi barədə konkret müddəanın yer alması da xüsusi vurğulanmalıdır. Sənəddə deyilir: *"Dərin insan iztirablarına səbəb olmuş münaqişədən sonra nəhayət ki, beynəlxalq sərhədlərin toxunulmazlığı və ərazi əldə olunması üçün güc tətbiq etmənin yolverilməzliyi əsasında dövlətlərimizin qonşuluq münasibətlərinin qurulmasına başlaması üçün şərtlər yaradılmışdır. Yenidən təftiş mövzusu olmayan və heç bir zaman olmayacaq bu reallıq dövlətlərimiz arasında düşmənçilik səhifəsinin bağlanmasına yol açır. Biz indi və gələcəkdə hər hansı bir qisas cəhdini qətiyyətlə rədd edir və istisna edirik."*

Bu müddəa hüquqi-siyasi baxımdan gələcəkdə hər hansı revanşist addımın qarşısına birmənalı sipər çəkir. Gələcəkdə Ermənistanda hakimiyyətə hansı siyasi qüvvənin gəlməsindən asılı olmayaraq, bu razılaşmalardan imtina hüquqi və diplomatik baxımdan mümkün görünmür.

Vaşinqton razılaşmaları sərhədlərin demarkasiya və delimitasiyası, kommunikasiya xətlərinin açılması, humanitar məsələlərin həlli kimi konkret istiqamətlərdə də əməkdaşlığa yol açır. Eyni zamanda, bu razılaşmalar yekun sülh sazişinə mane olan əsas məsələnin – Ermənistan Konstitusiyasında Azərbaycanın ərazi bütövlüyünə qarşı iddialara imkan verən mürtəce müddəaların gələn il bu ölkədə keçiriləcək referendum nəticəsində dəyişdiriləcəyinə siyasi zəmin yaradır.

Birgə Bəyannamə perspektivdə yalnız yekun sülh sazişinin imzalanmasına təminat yaratmır, eyni zamanda, iki ölkə arasında siyasi, iqtisadi və diplomatik münasibətlərin bərpasına, regional inteqrasiyaya yol açır. Ermənistanla Azərbaycan arasında beynəlxalq hüquq prinsipləri əsasında yeni münasibətlər qurulur, ikitərəfli və çoxtərəfli əməkdaşlıq perspektivləri açılır, iqtisadi layihələr, infrastruktur təşəbbüsləri gündəmə gəlir. Prezident İlham Əliyevin Vaşinqtonda səsləndirdiyi birgə bəyanat zamanı dediyi: *"Əminəm ki, Ermənistan ilə Azərbaycan sülhün əldə olunması üçün özlərində cəsarət və məsuliyyət tapacaq, xalqlarımız da barışacaqlar. Biz qarşıdurma və qan tökülməsi səhifəsini çevirəcəyik, uşaqlarımız üçün işıqlı və təhlükəsiz gələcək təmin edəcəyik"* fikri də bunun bariz ifadəsidir.

Vaşinqton razılaşmaları əsasında Ermənistan İkinci Qarabağ müharibəsindən sonra üzərinə götürdüyü daha bir mühüm öhdəliyi icra etməli olub və bu da Yekun Sülh Sazişinin imzalanmasına mühüm zəmin yaradan amillərdən biridir. Söhbət faktiki olaraq, Zəngəzur dəhlizinin reallaşmasından, ölkəmizin Ermənistan ərazisi ilə öz eksklavı – Naxçıvan Muxtar Respublikasına maneəsiz keçid imkanı qazanmasından gedir. Ermənistanda sülhə qarşı olan daxili qüvvələrin siyasi manipulyasiya alətinə çevrilmiş "Zəngəzur Dəhlizi" termininin bundan sonra "Beynəlxalq Sülh və Rifah üçün Tramp Marşrutu" (TRIPP) adlandırılması isə, sadəcə, texniki məsələdir.

Razılaşma əsasında tərəflərin bir-birinin nəqliyyat infrastrukturundan istifadə imkanı əldə etməsi ümumən regional əməkdaşlıq baxımından əhəmiyyətli sayılır. Bu kontekstdə xüsusilə avtomobil və dəmir yolu xətlərinin bərpası daha geniş coğrafiyada yeni geosiyasi, iqtisadi, ticari münasibətlərin formalaşmasına imkan yaradır. TRIPP mahiyyətcə kommersiya layihəsi kimi təqdim edilsə də, bu təşəbbüsün geosiyasi çəkisi və strateji hədəfləri danılmazdır. Naxçıvana maneəsiz nəqliyyat çıxışımızı təmin edəcək bu yolun 99 il müddətində ABŞ-a icarəyə verilməsi həm siyasi, həm də təhlükəsizlik baxımından Azərbaycanın da maraqlarına cavab verir. Ermənistanla ABŞ arasında bununla əlaqədar əldə edilmiş razılaşma Zəngəzur dəhlizinə qarşı çıxan bəzi ölkələrin tam neytrallaşdırılması deməkdir.

Yeni layihə təkcə Azərbaycan və Ermənistan üçün deyil, Türkiyə, Rusiya, Mərkəzi Asiya, Çin və digər ölkələr üçün strateji əhəmiyyət daşıyır. 42 kilometrlik bu yol təkcə avtomobil və qatarların maneəsiz hərəkətinə deyil, eyni zamanda, enerji və telekommunikasiya xətlərinin keçidinə imkan yaradacaq. Bu baxımdan, layihə Vaşinqtonun regionda ticarət yönümlü sülh konsepsiyasının tərkib hissəsi kimi də dəyərləndirilir. Çəkiləcək yeni yolun strateji əhəmiyyəti regionda dayanıqlı sülhə təminat yaratması, etimad mühitini dərinləşdirməsi ilə ölçülür. Rəsmi Vaşinqtonun bu təşəbbüsü tərəfləri bir masa arxasında gətirməklə yanaşı, sülh naminə iqtisadi əməkdaşlıq mexanizmlərini işə salıb.

Avropa Siyasi Birliyinin oktyabr ayının əvvəlində Kopenhagendə keçirilmiş 7-ci zirvə toplantısı da təsdiq edir ki, beynəlxalq ictimaiyyət iki ölkə arasında əldə olunan razılaşmaları alqışlayır, Azərbaycanın sülh gündəliyini dəstəkləyir. Hətta ermənipərəst mövqedə dayanan, son beş ildə ölkəmizə qarşı əsassız iftiralar yağdıran Fransa prezidenti E.Makronun belə 8 avqust razılaşmalarından sonra geri çəkilməsi, Kopenhagendə keçirilmiş ikitərəfli görüşdə Azərbaycan Prezidenti İlham Əliyevi sülh gündəliyinin uğurlu nəticələri münasibətilə təbrik etmək məcburiyyətində qalması Ermənistandakı radikal-revanşist qüvvələr üçün məğlubiyyət mesajıdır. Rəsmi Paris uzun illər ərzində yürütdüyü qərəzli siyasətin səmərəsiz olduğunu etiraf edir.

Qeyd edilən görüş göstərir ki, Fransa yeni geosiyasi reallıqları nəzərə almadan, sülh gündəliyini qəbul etmədən Cənubi Qafqazda hansısa mövqe, nüfuz qazana bilməz. Cənubi Qafqazın lokomotiv ölkəsi olan Azərbaycan Avropanın enerji təhlükəsizliyində və qlobal nəqliyyat dəhlizlərinin reallaşmasında açar rolunu oynayır. Bu reallığı nəzərə almayan Fransanın regionla bağlı siyasətinin hansısa uğur qazanması mümkün deyil.

Ermənistan parlamentinin 2025-ci il 2 oktyabr tarixli "Ermənistan və Azərbaycan arasında sülhün bərqərar olması haqqında" bəyanatı Cənubi Qafqazda yeni təhlükəsizlik və əməkdaşlıq mərhələsinin başlanğıcını ifadə edir. Bu, İrəvanın əvvəlki illərdə nümayiş etdirdiyi destruktiv siyasətdən fərqli olaraq, praktiki və strateji düşüncəyə əsaslanan yeni siyasi davranış modelidir. Sənəddə münaqişəni alovlandıra biləcək ritorikadan uzaq durmaq çağırışı təkcə diplomatik jest deyil, həm də daxili siyasi qüvvələrə verilən mesajdır.

**Sonda xüsusi qeyd etmək istərdik ki, "Konstitusiya və Suverenlik İli" xalqın milli kimliyinin, dövlətçilik məfkurəsinin təsdiqi, milli hüquq-mədəni identifikasiyanın möhkəmləndirilməsi, suverenliyin konseptual əsaslarına nəzər salınması istiqamətində strateji addımdır. Sərəncam həm də konstitusiya və suverenlik anlayışlarının ictimai şüura, siyasi davranış modellərinə və dövlətin idarəetməsinə nüfuz etməsinə xidmət edir.**

***İsaxan VƏLİYEV,***
***Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının hüquq kafedrasının müdiri, professor***

# Mərkəzi Asiyadan Xəzər regionuna nəqliyyat körpüsü

**Azərbaycan Prezidenti İlham Əliyev 2022-ci ilin oktyabrında Bişkekə səfəri zamanı demişdi ki, biz Xəzər dənizinə çıxışı olan Çin–Qırğızıstan–Özbəkistan dəmir yolunun çəkilməsi qərarını dəstəkləyirik. Artıq Xəzərin tərəfimizdə olan hissəsində bizim hava, dəmir yolu və avtomobil nəqliyyatımızdakı daşınmalar nəzərə alınmaqla geniş nəqliyyat infrastrukturu yaradılıb.**




## *Azərbaycan Çin–Qırğızıstan–Özbəkistan dəmir yolunun çəkilməsini dəstəkləyir*

Nəzərə almaq lazımdır ki, Zəngəzur dəhlizinin (TRIPP) perspektivləri görünməyə başladıqca qlobal nəqliyyat layihələrinin adının Azərbaycanla yanaşı çəkilməsi bundan sonra daha da artacaq. Vaşinqtonda paraflanan sülhün müsbət nəticəsi, Qəbələdə Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə görüşündən də bunu aydın görmək mümkündür.

Xüsusilə, Qəbələdə Türk dünyasının nəqliyyat arteriyalarına münasibətin genişlənməsi dövrün yeni çağırışlarından xəbər verir. İqtisadi dividendlərin artırılması, daha çox gəlir-mənfəət cədvəlində Avropa ölkələri ilə rəqabətdə irəlidə olmaq istəyi yeni çağırışları, planları bərabərində gətirir. Türk Dövlətləri Təşkilatı qədim İpək Yolunun bərpası ilə yanaşı, yeni iqtisadi və tranzit imkanlarına "yaşıl işıq" yandırır.

Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyevin Qəbələ Zirvəsindəki çıxışı məhz bu çərçivədə xüsusi önəm daşıyır: "Zəngəzur dəhlizinin təmin edilməsi tarixi əhəmiyyətə malikdir və bu, Türk dünyasını geosiyasi səviyyədə gücləndirəcək. Zəngəzur dəhlizinin açılması qədim İpək Yolunun bərpası ilə yanaşı, bizim ölkələr üçün yeni iqtisadi və tranzit imkanları yaradacaq. Çin-Qırğızıstan-Özbəkistan dəmir yolu layihəsi istismara verildikdən sonra Orta Dəhlizin strateji əhəmiyyəti daha da artacaq", – deyən TDT rəsmisi əslində, uzaq Şərqdən başlanan yeni nəqliyyat dəhlizinin Zəngəzur dəhlizinə qədər uzanan perspektivini dilə gətirir.

Çin–Qırğızıstan–Özbəkistan dəmir yolu layihəsinin gerçəkləşməsi dəyişən dünya nizamının bir parçasıdır. Belə ki, Sovet İttifaqı dağıldıqdan sonra Orta Asiya respublikaları müstəqil iqtisadi sistem qurmağa başladı. Dünyaya açılan bu respublikalar ticarət əlaqələrini hələ sovetlər dövründə yaradılmış infrastrukturdan istifadə etməklə qururdular. Onların iqtisadi potensialı Avropa ilə daha intensiv ticarət aparmağa imkan verir və bunun üçün də yeni, daha yaxın və daha təhlükəsiz yolların tapılması zərurəti meydana çıxıb.

2022-ci ilin sentyabrında isə Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) Özbəkistanın Səmərqənd şəhərində keçirilən Zirvə görüşü çərçivəsində Çin, Qırğızıstan və Özbəkistan arasında dəmir yolunun çəkilməsi haqqında saziş imzalandı. Ümumi uzunluğu 454 kilometr olan yol 18 stansiya, irili-xırdalı 81 körpü və 41 tuneldən ibarət olacaq. Çin–Qırğızıstan–Özbəkistan dəmir yolunun tikintisinin aparılacağı Toruqart–Arpa–Məkmal–Cəlalabad marşrutu üzrə texniki-iqtisadi əsaslandırma işləri 2023-cü il iyun ayında başa çatdırılıb.

Qeyd edək ki, Çindən və Orta Asiya ölkələrindən gələn böyükhəcmli yüklərin qəbulu, həmçinin Azərbaycanın tranzit imkanlarının genişləndirilməsi məqsədilə dəniz limanlarının keçid gücünün artırılması planlaşdırılır. Bu istiqamətdə Ələt Beynəlxalq Dəniz Ticarət Limanının illik yükdaşıma qabiliyyətinin 15 milyon tondan 25 milyon tona çatdırılması nəzərdə tutulur. Bundan əlavə, limanın konteyner dövriyyəsinin də mövcud 100 mindən 1 milyon konteynerə qədər artırılması planlaşdırılır.

Dəmir yolu layihəsi Mərkəzi Asiyanın iqtisadi mənzərəsini dəyişdirəcək. Onun səmərəliliyi həm də Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizinə qoşulmasındadır. Bu layihə "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində yükdaşımaları həyata keçirmək üçün nəzərdə tutulmuş Orta dəhlizin marşrutlarından biri olacaq. Bu xətt regionun Avropa ilə yanaşı, Cənub–Şərqi və Qərbi Asiya, eləcə də Yaxın Şərq bazarlarına çıxış imkanlarını genişləndirəcək.

Yeni dəmir yolunun istifadəyə verilməsi Çinlə Türkiyə arasında yükdaşımaların həcmini əhəmiyyətli dərəcədə artıracaq, məsafə isə 900 kilometr qısalacaq. Nəticədə, qatarlar cəmi 8 gün ərzində mənzil başına çatacaq. Bu isə təkcə vaxt itkisinin qarşısını almır, həm də nəqliyyat xərclərini xeyli azaldaraq marşrutu iqtisadi cəhətdən daha səmərəli edir.

Göründüyü kimi, Azərbaycanın qlobal nəqliyyat arteriyalarında qovşaq rolunu oynaması, qitələrarası yükdaşımada mənfəət baxımından alternativsiz olması əldə olunan iqtisadi dividendləri artırır. Mövcud zamanda artan tələbat fonunda ölkəmiz hələ bundan sonra da nəqliyyat və yükdaşımalar sahəsində böyük uğurlar əldə edəcək.

***RƏY***



**Eldəniz ƏMİROV,**
**iqtisadçı**

Bilirsiniz, Çindən başlayaraq Orta Asiya respublikalarının həm logistik xətləri, həm enerji resursları, həm də digər tranzit yollarının Avropaya ən təhlükəsiz keçidi məhz Azərbaycan üzərindən mümkündür. Bu ölkələr Azərbaycana Xəzər dənizi vasitəsilə daxil olurlar. Xəzərin sahilində isə Qazaxıstan və Türkmənistan yerləşir. Hər iki ölkənin limanları Bakıya, Bakı Beynəlxalq Dəniz Ticarət Limanına birləşir. Yəni Qazaxıstan və Türkmənistan limanlarının yaratdığı axın Azərbaycandakı əsas limanda – Bakı limanında birləşir. Başqa limanlar da olsa, regionun əsas tranzit mərkəzi məhz Bakı limanıdır.

Beləliklə, istər Özbəkistan, istər Qırğızıstan olsun, bu ölkələr Mərkəzi Asiyanın bir hissəsi olaraq Orta Dəhlizdən istifadə edirlər. Onlar Azərbaycanın qurduğu müasir infrastrukturdan, Trans-Xəzər nəqliyyat dəhlizindən yararlanaraq Avropaya çıxış əldə edirlər. Bu ölkələri bir-biri ilə birləşdirən əsas amil onların nəqliyyat-kommunikasiya və enerji dəhlizləridir. Məhz Çin–Qırğızıstan–Özbəkistan dəmir yolu layihəsinin perspektivi bu baxımdan Orta Dəhliz üçün böyük əhəmiyyət daşıyır. Eyni zamanda, Orta Dəhliz də bu ölkələrin iqtisadi əlaqələrinin möhkəmlənməsində mühüm rol oynayır.

Beləliklə, Çin, Qırğızıstan və Özbəkistan bu dəmir yolu vasitəsilə Qazaxıstana, oradan isə Xəzər dənizi üzərindən Azərbaycana, daha sonra isə Bakı–Tbilisi–Qars dəmir yolu ilə Avropaya qədər uzanan marşruta qoşula bilirlər.

Bütün bunlarla yanaşı, Azərbaycan həm enerji, həm də rəqəmsal qovşağın sahibidir. Böyük ölçüdə bu tərəfdaşlığın bazasını məhz Azərbaycan təkbaşına qarşılayır. "Azərbaycan-Mərkəzi Asiya Yaşıl Enerji Dəhlizi" layihəsi bunun bariz sübutudur. Bir sözlə, nəqliyyat və enerji dəhlizlərinin önəmi postneft dövründə önəmli maliyyə axınını təmin edəcəkdir.

***Nurlan ABDALOV***
***XQ***

# BP-nin yeni humanitar layihəsi

**BP şirkəti "Azəri–Çıraq–Günəşli", Bakı–Tbilisi–Ceyhan, "Şahdəniz" və Cənubi Qafqaz Boru Kəməri layihələrindəki tərəfdaşları ilə birlikdə cəmiyyətdə inklüzivliyin təşviqinə yönəlmiş daha bir sosial sərmayə layihəsini uğurla başa çatdırıb. Layihədə məqsəd eşitmə və nitq qüsurlu şəxslərin digər insanlarla və öz aralarında ünsiyyət imkanlarını genişləndirməkdir.**

"Nar" və ADA Universiteti ilə əməkdaşlıqda həyata keçirilən bu layihə BP və onun tərəfdaşlarının Azərbaycanda təhsilin inkişafına töhfə və inklüziv cəmiyyətin formalaşdırılmasına dəstək vermək öhdəliyini əks etdirir. Layihədə əsas diqqət Azərbaycan jest dilinin öyrənilməsi üçün əlçatan və interaktiv platforma kimi nəzərdə tutulmuş yeni mobil tətbiqin hazırlanmasına yönəldilib. Pedaqoji yanaşmaya əsaslanan bu tətbiq sadə lüğət anlayışından kənara çıxaraq strukturlaşdırılmış dərslər, interaktiv tapşırıqlar, viktorinalar və qiymətləndirmələr təqdim edir və bununla da dilin hərtərəfli mənimsənilməsini təmin edir.

Yeni istifadəyə verilmiş tətbiq istifadəçi interfeysi də daxil olmaqla bütünlüklə Azərbaycan dilindədir. Platformaya xüsusi olaraq layihə üçün hazırlanmış 789 video, 358 jest dili sözü və 27 illüstrativ şəkil daxil edilib ki, bu da öyrənmə prosesini həm maraqlı, həm də səmərəli edir. Eyni zamanda, bu məzmun istifadəçilərə jest dili lüğətini genişləndirməyə kömək etməklə yanaşı, vizual və interaktiv alətlər vasitəsilə real ünsiyyət ssenarilərini məşq etməyə imkan verir. Mobil tətbiqi bütün əsas tətbiq platformalarından yükləmək mümkün olacaq.



Layihənin uğurla tamamlanmasını qeyd etmək məqsədilə ADA Universitetində keçirilən tədbirdə çıxış edən BP-nin Xəzər regionu üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli əsl inklüzivliyin ünsiyyətdən başladığını diqqətə çatdıraraq bildirib ki, bu mobil tətbiqin hazırlanmasına dəstək göstərməklə BP və onun tərəfdaşları, "Nar" və ADA Universiteti öz səylərini birləşdirərək hər kəsin eşidilə və duyula biləcəyi bir cəmiyyətin qurulmasına töhfə vermək niyyətindədirlər: "Bu layihə təkcə innovativ bir öyrənmə vasitəsi təmin etmir, o, həm də anlama, empatiya və ünsiyyət üçün yeni imkanlar yaradır. İnanırıq ki, hər bir insan özünü cəmiyyətin tamhüquqlu üzvü kimi hiss etməsi üçün müvafiq vasitələrlə təmin edilməlidir".

Qeyd edək ki, 1 ilə tamamlanmış bu layihəyə BP və onun tərəfdaşlarının töhfəsi, təqribən, 117 min manat (68 min 824 ABŞ dolları) təşkil edib. Bu məbləğ layihənin bütün mərhələləri, yəni məlumatların toplanması, jest dili üzrə mütəxəssislərlə məsləhətləşmələr, tətbiqin dizaynı, hazırlanması və sınaqdan keçirilməsi, eləcə də tətbiqin onlayn platformalarda yerləşdirilməsi və bulud hostinq xidmətləri üzrə xərcləri əhatə edir. Layihənin icraçısı isə ADA Universiteti və ADA Universiteti Fondudur.

***XQ***




# Beynəlxalq maliyyə qurumlarının Bakı toplantısı

**Dünən Bakıda "Fintex Forumu-2025" keçirilib. "Azərbaycan Fintex Assosiasiyası" İctimai Birliyinin təşkilatçılığı, Azərbaycan Mərkəzi Bankı və "Azərbaycan Banklar Assosiasiyası" İctimai Birliyinin tərəfdaşlığı ilə təşkil olunan toplantıda beynəlxalq maliyyə institutlarının, fintexlərin, bankların və digər maliyyə təşkilatlarının nümayəndələri iştirak ediblər. Forumda yerli və beynəlxalq ekspertlər fintex sektorunda son illər həyata keçirilən yeniliklər ətrafında müzakirələr aparıb, öz proqnozlarını bölüşüblər.**

Azərbaycan Mərkəzi Bankının (AMB) baş direktoru Vüsal Xəlilov çıxış edərək rəhbərlik etdiyi qurumun hazırda QR ödənişlərin təşkili layihəsi üzərində işlədiyini diqqətə çatdırıb. Bank tərəfindən ödəniş sisteminin standartlaşdırılması ilə bağlı müzakirələr aparıldığını bildirən baş direktor bunu fintex sektorunun inkişafı üçün böyük imkan, önəmli addım kimi dəyərləndirib.

Onun sözlərinə görə, Azərbaycan Mərkəzi Bankının lisenziyalaşdırdığı ödəniş bazarı iştirakçıları bu ilin əvvəlindən 38,8 milyard manat dəyərində əməliyyat aparıb: "İndiyədək 18 elektron pul təşkilatına və 8 ödəniş təşkilatına lisenziya verilib. Bu ilin ortasına aylıq kart dövriyyəsi də 10 milyard manata çatıb. Bu, böyük rəqəmdir və ölkənin nağdsız ödənişlərə keçidinin bir nümunəsidir. Eyni zamanda, ani ödənişlər sisteminin artımının şahidi oluruq. Son ildə biz milli ödəniş sisteminin 10 faizə yaxın həcminin ani ödənişlər sisteminə keçidinə nail olduq və bu rəqəmin artımını planlaşdırırıq".

Azərbaycan Banklar Assosiasiyasının (ABA) prezidenti Zakir Nuriyev çıxışında qeyd edib ki, hazırda ölkə daxilində ödəniş kartları ilə aparılan nağdsız ödəniş dövriyyəsinin 87 faizi elektron ticarətin payına düşür. Onun sözlərinə görə, elektron ticarətin inkişafının davamlı olması, kiçik və orta sahibkarlıq subyektlərinin buna cəlb edilməsi, habelə maliyyə xərclərinə qənaət baxımından elektron ticarətdə ödəniş əməliyyatları üzrə hesablaşma müddətləri iştirakçılar arasında müstəqil qaydada tənzimlənməlidir. Qeyd olunub ki, maliyyə inklüzivliyinin inkişafı və açıq maliyyə yanaşmasının daha effektiv tətbiqi baxımından fintexlərin əlavə fəaliyyət istiqamətlərinin qanunvericilik əsasında genişləndirilməsi ekosistemdə innovasiyaların tətbiqini sürətləndirməklə yeni müştəri seqmentlərinin yaranmasına imkan verəcək.

ABA prezidenti bildirib ki, bərabər rəqabət mühitinin qorunub saxlanılması və bu əsasda dayanıqlı inkişafın təmin edilməsi məqsədilə məlumatlardan istifadə edilməsi və bu alətin daha effektiv idarə olunması üçün qabaqcıl Avropa təcrübəsindən yararlanmaq zəruridir. O əlavə edib ki, bank–fintex əməkdaşlığı çərçivəsində fırıldaqçılıq əməliyyatlarına qarşı mərkəzləşdirilmiş platformanın yaradılması ilə yanaşı, hər bir ödəniş xidməti təchizatçısı tərəfindən fərdi qaydada tədbirlərin görülməsi, infrastruktur imkanlarının təkmilləşdirilməsi, əlavə resursların cəlb edilməsi və preventiv tədbirlərin həyata keçirilməsi nəzərdə tutmalıdır.

Qazaxıstan Ödəniş Təşkilatları Assosiasiyasının sədr müavini Yulia Salehova isə çıxışında ölkəsinin Azərbaycanla "Öz müştərini tanı" sistemi üzrə ortaq təcrübə mübadiləsi aparmaq niyyətində olduğunu vurğulayıb: "İstərdim ki, yalnız banklar deyil, ödəniş xidməti təminatçıları da "Öz müştərini tanı" sisteminin bir hissəsi olsun. Hazırda bu sistemin Qazaxıstanda tam işləmədiyini görəndə bir az təəssüflənirəm. Lakin ümid edirəm ki, gələcəkdə bu təcrübəni Azərbaycanla qarşılıqlı şəkildə paylaşa biləcəyik".

"Caucasus Ventures" vençur fondunun baş tərəfdaşı Məmməd Kərim bildirib ki, son 3 ildə Azərbaycanda fintexlər sürət əldə edib. Bununla belə, hazırda fintexlərin inkişafı ilə əlaqədar qeyri-müəyyənliyin müşahidə olunduğunu diqqətə çatdıran fond rəsmisi deyib: "Bu qədər tənzimlənən bazar olduqda biz investor kimi narahat oluruq. Yəni böyüməklə əlaqəli suallarımız olur. Yaxud böyüdükdən sonra yeniliklər istifadəçi bazasını bir gündə 1 milyondan 10 minə sala bilər. Buna görə də bu coğrafiyada fintexə bir az marağımız azalıb".

Avropada fəaliyyət göstərən "Startup Wise Guys" vençur fondunun baş tərəfdaşı Güncə Önür isə öz növbəsində qeyd edib ki, "fintex" anlayışı tək bir sahə ilə məhdudlaşmır, əslində, 20-dən çox alt istiqaməti əhatə edir: "Maliyyə texnologiyaları bizim əsas yatırım istiqamətlərimizdən biridir. Hətta Azərbaycan mənşəli "ePoint" startapı da bizim investisiya etdiyimiz layihələrdən biridir və bu tədbirin tərəfdaşlarından olması bizim üçün xoş bir təsadüfdür. Onları burada görmək ayrıca sevindiricidir. Fintexə ümumi baxdıqda görürük ki, bu sahə təkcə Türkiyə və ya Azərbaycan üçün deyil, bütün dünyada vençur kapitalı investisiyalarında ilk üç yerdə qərarlaşan istiqamətlərdəndir".

Forum çərçivəsində, həmçinin açıq bankçılıq, rəqəmsal ödənişlər, süni intellekt, fırıldaqçılıqla mübarizə, kibertəhlükəsizlik kimi müxtəlif mövzular ətrafında panel müzakirələri aparılıb.

Sonda Azərbaycan və Türkiyə fintex assosiasiyaları arasında Anlaşma Memorandumu imzalanıb. Bundan əlavə, "Azərbaycan Fintex Assosiasiyası" ilə Beynəlxalq Konsaltinq Şirkəti arasında Anlaşma Memorandumuna da imza atılıb. Hər iki sənəd fintex sahəsində tərəfdaşlığın gücləndirilməsini, innovativ həllərin təşviqini və qarşılıqlı təcrübə mübadiləsinin genişləndirilməsini nəzərdə tutur, həm yerli, həm də beynəlxalq səviyyədə maliyyə texnologiyalarının inkişafına töhfə verməyi hədəfləyir.

Xatırladaq ki, fintex maliyyə xidmətlərində texnologiyaların və innovasiyaların tətbiqi ilə ənənəvi maliyyə metodlarına rəqabət aparan bir sahədir. Bu texnologiyalar maliyyə əməliyyatlarını sadələşdirmək, şəffaflığı artırmaq, xərcləri azaltmaq və istifadəçi təcrübəsini yaxşılaşdırmaq məqsədi daşıyır, mobil bankçılıq, rəqəmsal ödənişlər, kraudfundinq, kriptovalyutalar və onlayn sığorta kimi həllər təklif edir.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Sənaye parkları yüksək səmərə əldə edir



**İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) idarəçiliyində olan sənaye parklarında fəaliyyət göstərən sahibkarlara, ümumilikdə, 1805, cari ilin 8 ayında isə 210 təsdiqedici sənəd verilib.**

İZİA-dan bildirilib ki, bu sənədlər əsasında rezidentlər sənaye parklarında tətbiq edilmiş idxal ƏDV-si və gömrük güzəştləri nəticəsində, ümumilikdə, 524,5 milyon manatdan çox, 2025-ci ilin yanvar-avqust aylarında isə 19,5 milyon manatdan artıq şəxsi vəsaitlərinə qənaət ediblər.

Qeyd edək ki, sənaye parklarının rezidentləri qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak, torpaq, gəlir vergilərindən, istehsal məqsədilə texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və gömrük rüsumlarından tam azad olunurlar.

***XQ***

# Azərbaycan şərqşünaslıq elminin qadın lideri

**Azərbaycanın tarixən qüdrətli şərqşünaslıq məktəbləri olub. SSRİ dövründə bu məktəblərdən biri də əsərləri Mirzə Kazım bəyin, Mustafa bəy Topçubaşovun, İosif Braginskinin irsinə bərabər tutulan, adı görkəmli akademiklər Ziya Bünyadov və Vasim Məmmədəliyevlə, professor Rüstəm Əliyevlə bir çəkilən filologiya elmləri doktoru, professor Aida xanım İmanquliyevaya məxsus olub.**



Elmin bəşəri dəyərlər xəzinəsini ciddi elmi əsərləri ilə zənginləşdirən Aida xanım 1939-cu il oktyabrın 10-da Bakıda, mətbuatımızın korifeylərindən sayılan professor Nəsir İmanquliyevin ailəsində dünyaya gəlib. Paytaxtımızın məşhur təhsil ocaqlarından birini – 132 nömrəli məktəbi qızıl medalla bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Şərqşünaslıq fakültəsinə daxil olub. 1962-ci ildə universiteti də qızıl medalla bitirib. Sonra professorlar Rüstəm Əliyev və İosif Braginskinin rəhbərliyi ilə elmi fəaliyyətə başlayıb. Ərəb-məhcər ədəbiyyatının ilk qadın tədqiqatçısı kimi tanınıb.

Aida İmanquliyeva "Qələmlər cəmiyyəti və onun yaradıcılığında Mixail Nüaymənin rolu" mövzusundakı namizədlik dissertasiyası ilə dünya şərqşünaslığında yeni səhifə açdı. Suriyadan və Livandan Latın Amerikasına mühacirət edən ədiblərin – Mixail Nüaymənin və Cübran Xəlil Cübranın irsini dərindən araşdırması ilə mühacirət ədəbiyyatı tarixində də mühüm nailiyyətlər əldə etdi. İlklərə imza atan Aida İmanquliyeva ötən əsrin repressiya və mühacirət adlı burulğanını dünya ictimaiyyətinə cəsarətlə təqdim etdi. Mixail Nüaymə və Cübran Xəlil Cübranın poetik irsi ilə Hüseyn Cavid, Almas İldırım, Əhməd Cavad, Əhməd bəy Ağaoğlu, Əli bəy Hüseynzadə, Əlimərdan bəy Topçubaşovun irsinin müqayisəli səciyyəsini verən, onların irsində həm də Tolstoy, Dobrolyubov, Dostoyevski, Anna Axmatova kimi vaxtın-zamanın fövqünə qalxan ədiblərin yaradıcılığı ilə paralellər görən Aida xanım təkcə bir namizədlik dissertasiyası ilə dünyaya sübut etdi ki, əslində, insanlara bir-birini anlamağa və dinləməyə heç nə mane olmur. Bəşəriyyətin problemlərini ancaq sivilizasiyaların, mədəniyyətlərin dialoqu ilə çözmək, həll etmək mümkündür.

Sivilizasiyaları, dinləri, mədəniyyətləri dialoqa, harmoniyaya səsləyən Aida xanım "Cübran Xəlil Cübran" əsəri ilə fırça ilə qələmin vəhdətində tarix yaradan Cübran Xəlil irsinin ümumbəşəri dəyərlər xəzinəsində yerini müəyyənləşdirdi. Cübran Xəlilin əsərlərini bir rəssam və ədib kimi məşhur rəssamların irsi ilə müqayisə edən alim Ayvazovskinin "Tufana düşən gəmi"sindəki insan taleyini Cübran Xəlilin "Səhrada boğulan quş" əsəri ilə müqayisə edərkən şərqli, yaxud qərbli olmasından asılı olmayaraq, quruluşun-zamanın qurbanı olan insana təbiətin, cəmiyyətin yetirdiyi ağrı və problemlərdən söz açdı.

## Mühacirət ədəbiyyatının tədqiqi sahəsində yeni səhifə

Şərqin mütəfəkkir alimlərindən biri Mirzə Kazım bəy çar Nikolayın hüzurunda çıxış edərkən tarixi bir cümlə işlətmişdi: "Şərqi xilas və tərəqqi etdirəcək insanlar Şərqin içərisindən çıxmalıdır". Mirzə Kazım bəyin 2-ci tarixi cümləsi isə belə idi: "Şeyx Şamil qəhrəmandır, qəhrəmanlar yetirən qəhrəman!". Bu iki qüdrətli kəlamın sahibi türk, müsəlman və azərbaycanlı idi. Dərbənd şeyxülislamının oğlu Mirzə Kazım bəy tək və yeganə alimimiz idi ki, çar Rusiyasında əsərləri senzuradan kənar dərc olunurdu. Böyük qürurla qeyd edə bilərik ki, keçmiş SSRİ-ni çevrələyən ali zəkalılar arasında professor Aida İmanquliyeva yeganə alim, özü də türk, müsəlman və azərbaycanlı idi ki, əsərləri dünyada senzuradan kənar çap edilirdi. Bunun tək bir səbəbi vardı. O, bir mütəfəkkir alim kimi şərqşünaslıqda, eyni zamanda, mühacirət ədəbiyyatı tarixində yeni bir səhifə açmış, ərəb-məhcər ədəbiyyatının gələcəkdə tədqiqatı ilə məşğul olacaq alimlər üçün 3 istinad mənbəsi qoymuşdu: "Qələmlər cəmiyyəti və Mixail Nüaymə", "Cübran Xəlil Cübran" və "Yeni ərəb ədəbiyyatı korifeyləri". Bu səbəbdən də dünyada məşhur olan həmin əsərlərə istinad edən alimlərin hər biri tərəddüd etmədən Mirzə Kazım bəyin qeyd etdiyimiz kəlamlarını xatırlayır.

Aida xanım da Mirzə Kazım bəy, Mirzə Fətəli Axundzadə, Abbasqulu ağa Bakıxanov, Həsən bəy Zərdabi, Ziya Bünyadov, İosif Braginski, Vasim Məmmədəliyev, Rüstəm Əliyev, atası və qayınatası - professorlar Nəsir İmanquliyevlə Mir Cəlal Paşayev kimi öz məktəbini yaratdı. Şərqşünaslığın şərqli şahzadəsi, İpək yolunun mələk elçisi kimi Doğudan Batıya, Odlar yurdu Azərbaycandan dünyaya səs saldı. Milli-mənəvi dəyərlərin və bəşəri duyğuların himayədarına çevrildi.

## Nüaymənin qızılgülü

Ötən əsrin 70-ci illərində Mixail Nüaymə bəraət alıb Beyruta dönür. Ölkə onun 90 illiyini rəsmi şəkildə təntənə ilə qeyd edir. SSRİ-dən o tədbirə dəvət alan alimlərin sırasında Nüaymə irsinin ilk tədqiqatçısı Aida İmanquliyeva olmur. Onun yazdığı "Qələmlər birliyi və onun yaradıcılığında Mixail Nüaymənin rolu" kitabını Azərbaycan SSR Elmlər Akademiyasının vitse-prezidenti Cəmil Quliyev Nüaymeyə təqdim edir. Kitabı görüb heyrətlənən, müəllifə təşəkkür etmək istəyən yazıçıya Aida xanımın SSRİ-dən gələn nümayəndə heyətinin tərkibində olmadığını bildirirlər. Akademik Cəmil Quliyevi mülkünün arxasında, öz əliylə saldığı bağa aparan Nüaymə bir al qızılgülü dərib "Beyrutun səsi" qəzetinə bükür və onu Bakıya, Aida xanıma göndərir. Bu bir alim kimi professor Aida İmanquliyevanın həyatda aldığı, qazandığı böyük mükafatlara bərabər idi.

Qəribliyin, həsrətin, mühacirətin sərt üzünü görmüş Mixail Nüaymə illərlə vətənə dönməyi, mülkündə Peyğəmbərə (s.a.s.) xatir qızılgüllərlə süslənən bir bağ salmağı arzulayan, 89 yaşında bəraət alıb vətənə dönən Nüaymənin Peyğəmbər çiçəyindən birini dərib Aida xanıma göndərməsinin özündə də bir məhrəm qəlb çırpıntısı vardı. Axı Aida xanım özü də mühacirlərin ailəsində doğulmuşdu, onların ocağına gəlin getmişdi. Üstəlik, ömrü boyu mühacirlərin irsini araşdırmışdı.

## Aqanbekyanı, Balayanı, Starovoytovanı cavablandıran alim

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) mübariz alim qadınlarından biri kimi mənsub olduğu millətin haqq hayqıran səsinə dönmüş Aida xanım 20 Yanvar dəhşətləri, Xocalı faciəsi zamanı Abel Aqanbekyanı, Zori Balayanı, Qalina Staravoytovanı "tərk–silah" edən, Moskvada, Poltavada keçirilən konfranslarda onlara "dərs" vermiş, tarixdəki çirkin yerlərini göstərmişdir. AMEA-nın Şərqşünaslıq İnstitutunun ilk qadın direktoru, BDU-nun professoru kimi təkcə ərəb filologiyası məsələləri ilə deyil, ümumtürk və ümumşərq problemləri ilə məşğul olan alim Aida İmanquliyeva o dövrdə təşkil olunan əksər konfrans və simpoziumlarda ciddi elmi məqalələrlə çıxış etməklə yanaşı, dünya alimlərinin də diqqətini xalqımıza qarşı törədilən haqsızlıqlara yönəltməyə nail olmuşdur.

## Xatirəsi ürəklərdə yaşayır

Ömür yolu örnək olan, xalqının milli mənliyi və milli kimliyi uğrunda mücahidi kimi çıxış edən Aida xanım 1992-ci il sentyabrın 19-da dünyadan köçməsəydi, varlığı qədər sevdiyi, fəqət nigaran getdiyi müstəqil Azərbaycanın daha xoş günlərini görəcəkdi. O taylı-bu taylı Azərbaycanı taleyində birləşdirən bir ailədə doğulmuş, digərinə gəlin getmiş Aida İmanquliyeva sinəsində Təbrizin, Dərbəndin, Borçalının, İrəvanın ağrısını daşıyırdı. Alimin Qarabağ – Şuşa nisgilinin üstündə həm də doğmalarının, yaxınlarının həsrəti vardı. 1985-ci ilin Qorbaçov "perestroykasından" sonra ulu öndər Heydər Əliyevə, onun ailə üzvlərinə və yaxın ətrafına sərgilənən münasibət qohumluq bağı olan Paşayevləri və İmanquliyevləri də haqlamışdı. Bütün bunlara baxmayaraq, Aida xanım bir mütəfəkkir alim, müdrik insan, əyilməz şəxsiyyət kimi zamanın sınaqlarından ləyaqətlə çıxdı.

...Əfşarlara, Qacarlara, Sultanzadələrə, Mahmudbəyovlara bağlı bir soydan gəlmək, professor Nəsir İmanquliyevin, Gövhər xanım Sultanzadənin ruhunun və cisminin davamçısı olaraq ömür sürmək, "Yada satmaram" nidası ilə qələm çalan Mir Cəlal ocağının gəlini kimi səadətə qovuşmaq, akademik Arif Paşayevin könlünün sultanı olmaq, sivilizasiyaları, mədəniyyətləri, dinləri dialoqa səsləyən, elmə-irfana çağıran, xoşməramlı səfir kimi tanınan Birinci vitse-prezidentimiz Mehriban Əliyevanın və L.M.Lomonosov adına Moskva Dövlət Universitetinin rektoru, AMEA-nın vitse-prezidenti, akademik Nərgiz Paşayevanın anası, Leyla və Arzu Əliyevaların, Ülviyyə və Aida Mahmudovaların nənəsi kimi ehtiramla anılmaq da onun ruhunu şad edir. Bugünkü Azərbaycanın uğurlarının memarları Aida xanımın yaxınları, doğmalarıdır.

***Şərəf CƏLİLLİ***

# "Ağıllı şəhərlər"də kibermüdafiə ssenariləri

**Dünən Bakı Konqres Mərkəzində "CIDC 2025 – Critical Infrastructure Defence Challenge" adlı kibertəhlükəsizlik festivalı öz işinə başlayıb. Tədbir Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti (XRİTDX) və Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) birgə təşkilatçılığı ilə reallaşdırılır. İki il əvvəl ilk dəfə keçirilmiş bu format, bu dəfə də dövlət qurumlarının nümayəndələrini, sahə üzrə mütəxəssisləri və tələbələri bir araya gətirib. Festival dövlət, özəl sektor, təhsil müəssisələri və beynəlxalq tərəfdaşlar arasında əməkdaşlığın möhkəmləndirilməsi, kritik infrastrukturun müdafiəsi sahəsində bilik və təcrübə mübadiləsinin genişləndirilməsi üçün mühüm platformadır.**










Bu il "CIDC-2025" tədbirində ümumilikdə 2245 ziyarətçi, 934 təlim iştirakçısı, 51 komanda və 56 tərəfdaş təşkilat iştirak edir. Festivalın məqsədi kritik infrastrukturun müdafiəsi, informasiya təhlükəsizliyi, rəqəmsal sabitlik və süni intellektin tətbiqi üzrə qabaqcıl beynəlxalq təcrübələrin paylaşılmasıdır. İki gün davam edəcək tədbir çərçivəsində "Ağıllı şəhərlərdə kibermüharibə" yarışması, yerli və xarici ekspertlərin təqdimatları, panel müzakirələri, "Hack The Future 2" proqramı çərçivəsində təlimlər və kibertəhlükəsizlik sərgisi keçirilir.

Sərgidə 41 yerli və xarici şirkət informasiya təhlükəsizliyi, risklərin idarə edilməsi və şəbəkə mühafizəsi üzrə innovativ texnologiyalarını nümayiş etdirir. Ziyarətçilər interaktiv yarışlarda və viktorinalarda iştirak edərək praktiki bacarıqlarını da sınaya bilirlər. Panel müzakirələrində "Ağıllı şəhərlər"də kibertəhlükələr, yeni nəsil SOC sistemləri, biometrik nəzarət, insan hüquqları və məlumat mühafizəsi kimi mövzular diqqət mərkəzindədir.

Tədbirin əsas hissəsini təşkil edən "Ağıllı şəhərlərdə kibermüharibə" adlı yarışda dövlət və özəl sektorları, həmçinin xarici ölkələri təmsil edən 25 komanda (20 yerli, 5 xarici) iştirak edir (Birləşmiş Ərəb Əmirlikləri, Özbəkistan, Moldova, Qırğızıstan və Tacikistan). Komandalar Bakı şəhərinin hava, quru və dəniz infrastrukturuna yönəlmiş simulyasiya olunmuş hücum və müdafiə ssenarilərində biliklərini sınayır. Qaliblər üçün 30 min manatlıq mükafat fondu nəzərdə tutulub.

XRİTDX rəisi, general-leytenant İlqar Musayev açılış nitqində vurğulayıb ki, son illər geosiyasi və texnoloji dəyişikliklər informasiya təhlükəsizliyini milli təhlükəsizliyin əsas istiqamətlərindən birinə çevirib. O qeyd edib ki, "Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023–2027-ci illər Strategiyası" bu sahədə yol xəritəsi rolunu oynayır. "CIDC-2025" bu strategiyanın reallaşdırılması baxımından mühüm addımdır və kibermüdafiə qabiliyyətlərinin artırılmasına xidmət edir.

İlqar Musayev yarışın yalnız rəqabət platforması deyil, həm də öyrənmək, təcrübə toplamaq və əməkdaşlığı gücləndirmək üçün mühüm fürsət olduğunu qeyd edib və layihənin ərsəyə gəlməsində təşkilat komitəsinə, Avropa Birliyinə, Estoniya Elektron İdarəetmə Akademiyası Fonduna və digər tərəfdaşlara təşəkkürünü bildirib.

Milli Məclisin Aparat rəhbəri Fərid Hacıyev isə çıxışı zamanı deyib ki, informasiya təhlükəsizliyinin təmini Azərbaycanın əsas prioritetlərdəndir. Onun sözlərinə görə, bu gün iqtisadiyyatın rəqəmsallaşması, süni intellektin imkanları yeni risklər gətirir:

"Etibarlı kibertəhlükəsizlik tədbirləri üçün müxtəlif fəaliyyətlər həyata keçirilir. Azərbaycan innovasiyalar içərisində regionda mühüm yer tutur. Həmçinin rəqəmsal məkanın qorunması istiqamətində kömək edir".

O vurğulayıb ki, səmərəli qanunvericilik təhlükəsizliyin qorunması üçün təməl rolunu oynayacaq: "Vətən müharibəsindən sonra Azərbaycana qarşı kiberhücumlar davam edir. Bunun üçün Milli Məclisdə də qanunvericiliyə yeni əlavələr edildi. Milli təhlükəsizlik təkcə qurumların deyil, bütün cəmiyyətin öhdəsindədir".

DTX-nin Milli Kibertəhlükəsizlik Mərkəzinin rəisi Davud Rüstəmov çıxışında bildirib ki, kritik infrastrukturun rəqəmsallaşması onu kibertəhdidlərə qarşı daha həssas edir. Son illərdə hava limanlarına, enerji və maliyyə sistemlərinə edilən kiberhücumlar bu riskləri daha da artırıb. Onun sözlərinə görə, DTX tərəfindən kritik infrastruktur obyektlərinin reyestri yaradılıb, məsul şəxslərlə təhlükəsiz rabitə kanalları qurulub, həmçinin ISO-15408 Ümumi Meyarlar Laboratoriyası və MISP məlumat platforması fəaliyyətə başlayıb. D.Rüstəmov qeyd edib ki, bu addımlar Azərbaycanın kibertəhlükəsizlik imkanlarını beynəlxalq standartlara uyğun səviyyəyə qaldırır.

İqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev çıxışında bildirib ki, kibertəhlükəsizlik təkcə texnoloji məsələ deyil, həm də iqtisadi dayanıqlılığın mühüm amilidir. Onun sözlərinə görə, dövlət-özəl tərəfdaşlığı modeli kibertəhlükəsizlik sahəsində əməkdaşlığın inkişafı üçün əsas mexanizmlərdən biridir. Nazir müavini əlavə edib ki, kibertəhlükəsizlik xərclərinə strateji sərmayə kimi yanaşmaq lazımdır, çünki rəqəmsallaşma əmək məhsuldarlığını artırır və ÜDM-ə müsbət təsir göstərir.

Elnur Əliyevin sözlərinə görə, 2024-cü ildə qlobal kibertəhlükələrin iqtisadi zərəri 8 trilyon ABŞ dollarını keçib, 2025-ci ildə isə bu rəqəmin 10 trilyona çatacağı gözlənilir. Buna görə də Azərbaycanda kibertəhlükəsizlik sahəsində kadr potensialının artırılması və texnoloji imkanların genişləndirilməsi prioritet istiqamətlərdəndir. Nazirlik bu məqsədlə yeni laboratoriyaların yaradılması üzərində işləyir.

XRİTDX baş idarə rəisinin müavini Tural Məmmədov qeyd edib ki, "CIDC-2025" dörd əsas hissədən ibarətdir: xüsusi təlimlər, sərgi, konfrans və "Kibermüharibə" yarışı. O bildirib ki, tədbir çərçivəsində keçirilən simulyasiyalar "ağıllı şəhər" və "ağıllı kənd" sistemlərinə qarşı mümkün kiberhücum ssenarilərini, onların nəticələrini və müdafiə mexanizmlərini əhatə edir.

"CIDC-2025" dövlət qurumlarını, kritik infrastrukturlarını, maliyyə və telekommunikasiya sektorunu, özəl şirkətləri və beynəlxalq tərəfdaşları bir araya gətirən strateji platformadır. Tədbirin keçirilməsi ölkəmizin kibertəhlükəsizlik sahəsində regional lider mövqeyini möhkəmləndirmək, gənc mütəxəssislərin bacarıqlarını inkişaf etdirmək və dövlət–özəl əməkdaşlığını dərinləşdirmək baxımından mühüm əhəmiyyət kəsb edir. T.Məmmədovun sözlərinə görə, tədbirin keçirilməsi bu sahədə maarifləndirmə, təcrübə mübadiləsi və beynəlxalq əməkdaşlığın gücləndirilməsinə xidmət edir. Yarışın mövzusu olan "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyası ölkəmizdə inkişaf etdirildiyi üçün simulyasiyada həmin sistemlərə qarşı mümkün kiberhücumlar, onların təsirləri və qarşısının alınması məsələləri əhatə olunub.

***Səbuhi MƏMMƏDOV,***
***Rauf İBRAHİMOV (foto)***
***XQ***

# Vətən savaşımızın məramı rusdilli teleməkanda

*Azərbaycan lideri Rusiyanın ermənipərəst dairələrini həqiqət silahı ilə tərk-silah etmişdi*



**Prezident İlham Əliyev 2020-ci il oktyabrın 10-da, Vətən müharibəsinin ən gərgin günündə Rusiyanın nüfuzlu RBK televiziya kanalına müsahibə verdi. Bu çıxış sadəcə bir media hadisəsi deyildi, həm diplomatik, həm informasiya, həm də psixoloji cəbhədə atılan mühüm bir addım idi. Azərbaycan lideri məhz bu müsahibə vasitəsilə Moskva siyasi dairələrinə və beynəlxalq ictimaiyyətə, eləcə də xalqımıza mühüm mesajlar ötürdü.**

Azərbaycan liderinin həmin dövrdə hər bir çıxışı qlobal auditoriyanın diqqət mərkəzində idi. Lakin RBK kanalına müsahibə xüsusi önəm daşıyırdı. Çünki Rusiya Cənubi Qafqazdakı əsas güc mərkəzlərindən biri olmaqla yanaşı, həm də regionun təhlükəsizlik arxitekturasına birbaşa təsir göstərən dövlət idi. Prezident İlham Əliyev bu auditoriyada öz mövqeyini açıq-aydın və arqumentlərlə əsaslandırılmış şəkildə təqdim etdi.

Müsahibə təkcə Azərbaycan həqiqətlərini Rusiyaya çatdırmaq məqsədi daşımırdı, eyni zamanda, beynəlxalq hüquq müstəvisində ədalətin bərpası çağırışı, informasiya mübarizəsində üstünlüyün təmin olunması və diplomatik balansın qorunması niyyəti güdürdü. Burada bir məqam da diqqət çəkirdi. Belə ki, RBK kanalına müsahibə verilməsi Ermənistanın işğalçı siyasətinin iflasa uğradığı bir vaxta – 2020-ci il oktyabr ayının 10-na təsadüf edirdi. Bu, o zaman idi ki, Azərbaycan Ordusu öz torpaqlarını azad etmək uğrunda irəliləyir, beynəlxalq səviyyədə isə informasiya müharibəsi aparırdı. Bu şəraitdə Rusiya mediası vasitəsilə birbaşa çıxış etmək Azərbaycanın diplomatik manevrinin mühüm hissəsi kimi dəyərli idi.

Prezident İlham Əliyev müsahibədə həm Rusiya ictimaiyyətinə, həm də Kremlin siyasi dairələrinə açıq mesaj göndərdi: Azərbaycan Rusiyanın strateji tərəfdaşıdır, lakin heç bir qüvvə onun ərazi bütövlüyünü və suverenlik prinsipini mübahisə predmeti edə bilməz. Bu, siyasi cəsarətin, eyni zamanda, balanslaşdırılmış diplomatiyanın parlaq nümunəsi idi.

Onu da qeyd edək ki, dövlətimizin başçısının RBK kimi ciddi, iqtisadi-siyasi təmayüllü kanala müsahibə verməsi təsadüfi deyildi. Bu kanalın auditoriyasında siyasi qərarvericilərlə bərabər, biznes, ekspert və analitik çevrələr də xüsusi yer tuturdu. Ölkə rəhbəri belə bir platformada respublikamızın müharibə şəraitində bu cür açıq, proqnozlaşdırıla bilən və rasionallığa əsaslanan siyasət apardığını diqqətə çatdırırdı. Müsahibənin əsas tezisi isə Azərbaycanın ərazi bütövlüyü məsələsinə həsr olunmuşdu. Dövlət başçısı ölkəmizin mövqeyinin dəyişməz olduğunu açıq şəkildə bildirdi: “Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu ola bilməz. Bu, beynəlxalq hüququn təməl prinsipidir və BMT qətnamələri ilə təsdiqlənib”.

Bu bəyanat RBK auditoriyası üçün, necə deyərlər, hüquqi dərs idi. Azərbaycan lideri beynəlxalq hüquq normalarını və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrini xatırladaraq, münaqişənin mahiyyətini həqiqi müstəviyə yönəltdi. Söhbətin mübahisəli torpaqdan yox, işğal olunmuş ərazilərdən getdiyini diqqətə çatdırdı. Prezident İlham Əliyevin bu arqumenti informasiya savaşında həlledici önəm daşıyırdı. Çünki Ermənistan illərlə beynəlxalq mediada “mübahisəli ərazi” konseptini formalaşdırmağa çalışmışdı. Lakin dövlətimizin başçısı hüquqi terminlərlə və faktlarla bu saxtalığı ifşa etdi.

Yeri gəlmişkən, dövlətimizin başçısının RBK televiziya kanalında səsləndirdiyi ən mühüm və belə demək mümkünsə, incə diplomatik xətt Rusiya ilə münasibətlərin xarakterinə dair idi. Ona görə də ölkə rəhbəri müsahibədə Azərbaycan və Rusiya arasında münasibətlərin qarşılıqlı hörmət, bərabərlik və maraqlara əsaslandığını bildirdi. Bu mesaj isə əslində, Rusiya ictimaiyyətinə və Kremlə yönəlmişdi.

Azərbaycan Prezidenti müsahibədə respublikamızın Rusiyaya qarşı heç bir aqressiv siyasət yürütmədiyini, əksinə, iki dövlət arasında etimad və əməkdaşlıq mühitinin mövcud olduğunu vurğuladı. Bu, müharibənin gedişində Rusiya ictimaiyyətində yaranan “Azərbaycan Türkiyənin təsiri altındadır” kimi yanlış təsəvvürü də aradan qaldırdı. Dövlətimizin başçısı, eyni zamanda, mühüm diplomatik balansı qorudu – Rusiyanın bölgədəki rolunu tanıdı, lakin bu zaman Azərbaycanın müstəqil siyasətini də qətiyyətlə vurğuladı. Bu, “nə qarşıdurma, nə tabeçilik” prinsipinə əsaslanan milli diplomatiyanın parlaq nümunəsi idi.

Müsahibədə diqqətçəkən məqamlardan biri də Türkiyə ilə əməkdaşlıq məsələsinə həsr olunmuş hissə idi. Prezident İlham Əliyev bildirdi ki, “Türkiyə bizim strateji tərəfdaşımız və qardaş ölkəmizdir. Türkiyənin mövqeyi regionda sabitliyin təminatıdır”. Bu fikirlər, əslində, Rusiya auditoriyası üçün də açıq mesaj idi: Türkiyənin Cənubi Qafqazda fəal iştirakı Azərbaycanın müstəqilliyinə və suverenliyinə təhlükə deyil, əksinə, sülh və təhlükəsizliyin təminatıdır.

Prezident İlham Əliyev bu çıxışı ilə iki mühüm məqsədi – birincisi, Türkiyə ilə müttəfiqlik münasibətlərinin beynəlxalq hüquqa və dostluq prinsiplərinə əsaslandığını, ikincisi, Azərbaycanın hər hansı hərbi blokun aləti olmadığını, öz maraqlarını müdafiə edən müstəqil dövlət kimi mövcudluğunu diqqətə çatdırırdı. Dövlət başçısının RBK televiziya kanalına müsahibəsi, eyni zamanda, Qərb dünyasına ünvanlanmış bir diplomatik mesaj idi. Belə ki, Azərbaycan lideri ölkəsinin beynəlxalq hüquqa əsaslandığını və BMT qətnamələrinin icrasını tələb etdiyini bir daha vurğuladı.

Prezident İlham Əliyev bu müsahibədə həm də beynəlxalq təşkilatların illərlə nümayiş etdirdiyi ikili standartlara toxundu. “Əgər BMT qətnamələri icra olunmursa, bu, beynəlxalq hüququn nüfuzunu sarsıdır”, – deyə bildirdi. Bu isə həm Avropa, həm də Qərb dövlətlərinə “ədalət prinsipinə seçici yanaşma regionda gərginliyi daha da dərinləşdirir” kimi açıq xəbərdarlıq idi.

Beləliklə, Azərbaycan lideri bir daha nümayiş etdirdi ki, beynəlxalq arenada qalib gəlməyin yolu təkcə hərbi güclə bağlı deyil, bu, eyni zamanda, diplomatik çeviklik, faktlara əsaslanan arqumentlər və uğurlu informasiya siyasəti ilə əlaqədardır. RBK televiziya kanalına müsahibə isə XXI əsr diplomatiyasının milli maraqların müdafiəsi ilə beynəlxalq hüququn harmoniyasını gerçəkləşdirən rasional liderlik modelnin yeni nümunəsinin parlaq ifadəsidir. Bu baxımdan Prezident İlham Əliyevin RBK-yə müsahibəsi həm o dövrün siyasi sənədi, həm də Azərbaycan diplomatiyasının yüksək intellektual səviyyəsinin göstəricisidir.

***Vaqif BAYRAMOV***
***XQ***

# Vətən müharibəsinin xronikası

## 10 oktyabr

*2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. Vətən müharibəsi 30 illik işğala son qoyan şanlı Qələbə ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan möhtəşəm Zəfər Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.*



• Müdafiə Nazirliyinin yaydığı məlumata görə, oktyabrın 9-da günün ikinci yarısından oktyabrın 10-u səhər saatlarınadək bütün cəbhəboyu hərbi əməliyyatlar müxtəlif intensivliklə davam edib, düşmənə atəş zərbələri endirilib. Azərbaycan Ordusunun davam etdirdiyi hücum əməliyyatı nəticəsində bu müddətdə düşmənin xeyli sayda canlı qüvvəsi, 13 ədəd tankı, 4 ədəd BM-21 “Qrad” yaylım atəşli reaktiv sistemi, 6 ədəd D-20 və D-30 topu, 3 ədəd 2S3 “Akasiya” özüyeriyən artilleriya qurğusu, 2 ədəd M55 “Zastava” zenit qurğusu, 2 radiolokasiya stansiyaları və radioelektron mübarizə vasitələri dəqiq atəşlə məhv edilib və sıradan çıxarılıb.

• Humanitar atəşkəs rejimini pozan düşmənin zirehli və digər hərbi texnikası, tank və artilleriya bölmələri, atəş nöqtələrinə çıxardığı ağır artilleriyası, döyüşə hazır vəziyyətə gətirilən zenit-raket kompleksləri Azərbaycan Ordusu bölmələrinin dəqiq atəşi ilə məhv edilib.

• Ermənistan ərazisindən Mingəçevir istiqamətində atılan 9K72 “Elbrus” əməliyyat-taktiki raket kompleksinin ballistik hədəfi Azərbaycan Hava Hücumundan müdafiə sistemləri tərəfindən zərərsizləşdirilib.




• Azərbaycan Prezidenti İlham Əliyev Rusiyanın “RBK” televiziya kanalına müsahibə verib.

• Humanitar atəşkəs rejiminə əməl etməyən Ermənistan silahlı qüvvələri tərəfindən cəbhənin müxtəlif istiqamətlərində hücum etməyə cəhd göstərilib. Ordumuzun həyata keçirdiyi qabaqlayıcı tədbirlər nəticəsində xeyli canlı qüvvə və döyüş texnikası itirən düşmən geri çəkilib. Müdafiəni düzgün quran bölmələrimiz düşmənin irəliləməsinin qarşısını alıb, işğalçı tələyə salınaraq darmadağın edilib. Döyüş zamanı düşmənin 38 nəfər canlı qüvvəsi, 2 ədəd BM-21 “Qrad” yaylım atəşli reaktiv sistemi, 7 ədəd topu və sursatla dolu 2 yük maşını sıradan çıxarılıb. Qoşunlarımız bütün cəbhəboyu əməliyyat üstünlüyünə malik olub.

• Azərbaycan Ordusu Qubadlıda düşmənin “S-300” idarəetmə sistemini məhv edib.

• Ermənistan ordusu cəbhənin Ağdərə–Tərtər və Füzuli–Cəbrayıl istiqamətlərində hücuma keçməyə cəhd göstərib. Eyni zamanda, düşmən ölkənin silahlı qüvvələri bir sıra yaşayış məntəqələrimizi artilleriya atəşinə tutub. Azərbaycan Ordusunun bölmələri düşmənin bütün hücum cəhdlərinin qarşısını qətiyyətlə alıb.

• Düşmənin havadan müdafiə sistemini yönəldən, Xocalıda yerləşən ən bahalı 19J6 (ST-68U) radiolokasiya stansiyası (RLS) məhv edilib.

• Azərbaycan Respublikasının Baş Prokurorluğu Ermənistanın təxribatları nəticəsində sentyabrın 27-dən oktyabrın 10-da saat 12:00-dək mülki əhaliyə qarşı törədilmiş cinayətlərin statistikasını açıqlayıb. Bildirilib ki, Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində mülki şəxslərdən 31 nəfər həlak olub, 171 nəfər isə xəsarət alıb. Bundan başqa, Ermənistan ordusunun intensiv ağır artilleriya və raket atəşi nəticəsində 1137 ev, 45 çoxmənzilli yaşayış binası və 146 mülki obyekt yararsız vəziyyətə salınıb.

Qeyd edək ki, rəşadətli Azərbaycan Ordusunun sarsıdıcı cavab zərbələri qarşısında sürətlə geri çəkilən düşmən beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə konvensiyaları və onların Əlavə protokollarını, BMT Təhlükəsizlik Şurasının qərar və qətnamələrini kobud şəkildə pozaraq, Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla döyüş əməliyyatlarının aparıldığı bölgədən uzaqlıqda yerləşən Azərbaycan şəhərlərini və əhalinin sıx yaşadığı məntəqələri intensiv atəşə tutub.

***Mustafa KAMAL***
***XQ***



# Milli iradənin “Dəmir yumruq” möhtəşəmliyi

**Vətən müharibəsi getdiyi günlərdə Azərbaycan Ordusunun davamlı tarixi uğurlar əldə etməsi təsadüfi deyildi, bu, illərlə qurulan möhkəm təməlin, düşünülmüş siyasətin və milli iradənin təntənəsi idi. Bu Zəfəri gerçəkləşdirən amillər çoxsaylı olsa da, onların hər biri digərini tamamlayaraq respublikamızın gücünü, xalqın birliyini və liderinin uzaqgörənliyini sübuta yetirdi.**



Savaşda əldə edilən tarixi qələbələrin – bir-birinin ardınca şəhər və kəndlərimizin 30 illik işğaldan azad olunmasının əsasında, ilk növbədə, dövlətimizin başçısının həyata keçirdiyi müstəqil siyasət və yaratdığı iqtisadi qüdrət önəmli rol oynadı. Dövlətin iqtisadi əsaslarının möhkəmləndirilməsi, enerji təhlükəsizliyinin gerçəkləşdirilməsi, beynəlxalq tərəfdaşlıq əlaqələrinin düzgün qurulması ölkəmizin öz iradəsi ilə qəti qərar qəbul etməsinə əlverişli imkan yaratdı. Məhz iqtisadi azadlıq və müstəqil dövlətçilik prinsipləri Azərbaycanın hərbi-siyasi manevr imkanlarını genişləndirdi və qalib gəlməyin real zəminini formalaşdırdı.

Onu da deyək ki, İkinci Qarabağ müharibəsində əldə olunan tarixi uğurların əsasında xalqın birliyi və dövlətin sarsılmaz siyasi iradəsi dayanırdı. Azərbaycanda uzun illər ərzində reallaşdırılan məqsədyönlü siyasət nəticəsində milli həmrəylik, vətənpərvərlik ruhu, dövlətçilik ideyalarına sədaqət möhkəmlənmişdi. Xalq-iqtidar birliyi, vahid amal uğrunda birləşmək istəyi düşmənin planlarını puç etdi, respublika daxilində sabitlik və güc mühiti yaratdı.

Xarici siyasətdə isə ardıcıl, prinsipial və məqsədyönlü xətt şanlı Qələbəyə aparan yolda mühüm rol oynadı. Azərbaycan diplomatiyası illər boyu işğal faktını beynəlxalq aləmdə sübuta yetirdi, ədalətin və hüququn respublikamızın tərəfində olduğunu göstərdi. Prezident İlham Əliyevin müəyyənləşdirdiyi bu siyasi xətt nəticəsində dünya ictimaiyyəti Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğu həqiqətini qəbul etdi. Diplomatik müstəvidə əldə olunan nailiyyətlər isə hərbi meydandakı uğurların davamlılığını şərtləndirdi.

Güclü və müasir ordunun yaradılması da Zəfərin əldə edilməsinin əsas şərtlərindən biri idi. Azərbaycan Silahlı Qüvvələrinin yenidən qurulması, müdafiə sənayesinin inkişafı və hərbçilərə göstərilən diqqət qalib ordunun formalaşmasında həlledici rol oynadı. Dövlətin orduya həssaslıqla yanaşması, peşəkar hərbçilərin yetişdirilməsi və yeni texnologiyaların tətbiqi müharibə zamanı öz müsbət nəticəsini verdi. Təbii ki, tarixi Qələbənin qazanılmasında Azərbaycan əsgərinin misilsiz qəhrəmanlığı müstəsna rol oynadı. Dağları, dərələri aşaraq, sıldırım qayalarla irəliləyən ordumuz dünyanın hərb tarixində nadir rast gəlinən döyüş nümunələri göstərdi. Azərbaycan ordusu heç bir xarici yardım almadan, öz gücünə arxalanaraq torpaqlarını azad etdi və bununla da müasir tarixdə bənzəri az görünən bir hərbi-siyasi nailiyyətə imza atdı.

Azərbaycanın Vətən müharibəsindəki tarixi Qələbəsinin baş memarı isə Prezident, Ali Baş Komandan İlham Əliyev oldu. Ölkə rəhbərinin dəmir iradəsi, prinsipial mövqeyi, dərin bilik və diplomatik uzaqgörənliyi respublikamızı zəfərə aparan əsas amil idi. Dövlət başçısı müharibə dövründə bütün təzyiqlərə sinə gərərək xalqın etimadını daha da möhkəmləndirdi, ordunun gücünü milli ruhla birləşdirdi. Qətiyyətli liderlik və xalqdan aldığı güc nəticəsində Prezident İlham Əliyev Azərbaycanın tarixi Qələbəsini reallaşdırdı.

Nəhayət, bu Zəfərin ən böyük dayağı xalqın öz liderinə inamı və etimadı idi. Bu etimad dövlət başçısının fəaliyyətindən, xalqına bağlılığından, ədalətli qərarlarından qaynaqlanmışdı. Millətin liderinə güvəni bütün sınaqlarda Azərbaycanı bir amal ətrafında birləşdirdi və Qələbəni gerçəkləşdirdi.

Beləliklə, Böyük Zəfər iqtisadi gücün, siyasi iradənin, diplomatik çevikliyin, ordunun qüdrətinin, əsgərin qəhrəmanlığının və xalqın birliyinin birgə təntənəsinə çevrildi. Bu Qələbə Azərbaycanın milli güc modelinin ən parlaq ifadəsi, xalqın və dövlətin ayrılmaz birliyinin rəmzi kimi tarixə qızıl hərflərlə yazıldı.

***V.BİNYATOĞLU***
***XQ***

# Vətən müharibəsi qəhrəmanları

## Zəfər zirvəsinə yüksələn Zəfər



**İkinci Qarabağ müharibəsində DİN Daxili Qoşunlarının 4 əməkdaşı – polkovnik Zəfər Yusibov, polkovnik-leytenant Füzuli İmrəliyev, mayor Şıxamir Qaflanov (ölümündən sonra) və kapitan Nicad Bədəlov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin müvafiq sərəncamları ilə Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülüblər.**

Bu söhbətimizdə xalqımıza zəfər sevinci bəxş edən igidlərdən birini – elə öz adı da Zəfər olan, “Şahin” Xüsusi Təyinatlı Dəstəsinin komandiri, polkovnik Yusibovun döyüş yoluna nəzər salaq. O, hər zaman arzu edirdi ki, Qarabağda azadlıq savaşı başlansın, əzəli torpaqlarımız geri alınsın, Kəlbəcərə çıxıb oradan Göyçə mahalına tərəf boylana bilsin. Nəhayət, 2020-ci ilin sentyabrında belə bir şans yarandı.

Zəfər Yusibov İkinci Qarabağ müharibəsində Kəlbəcərdə – Murovdağ istiqamətində gedən döyüşlərdə, eləcə də Cəbrayıl, Füzuli, Xocavənd uğrunda qanlı savaşda igidliyi ilə fərqlənib. Qarşıya qoyulmuş döyüş tapşırıqlarını can-başla yerinə yetirib və tabeliyindəki əsgərləri də inamla arxasınca apara bilib. Onun qəhrəmanlıq nümunəsi layiqli dəyərini alıb və Azərbaycan Respublikasının Prezidentinin 9 dekabr 2020-ci il tarixli sərəncamına əsasən Zəfər Yusibova “Vətən Müharibəsi Qəhrəmanı” adı verilib. Kəlbəcərin, Cəbrayılın və Xocavəndin azad edilməsinə görə aldığı medallar da onun halal haqqıdır.

Dediyinə görə, atəşkəs olsa da, ermənilər tez-tez silahlı təxribatlar törədirdilər. İyul ayında Tovuzda baş verənlər düşmənin sakit qalmayacağına işarə idi. Odur ki, Vətən savaşına 1 ay qalmış Daxili Qoşunların xüsusi təyinatlılarından 300 nəfər Müdafiə Nazirliyinin xüsusi təyinatlı bölmələrinə ezam olundu. Məqsəd çevik döyüş taktikasının mənimsənilməsi, şəxsi heyətin bir-birini tanıması, həm də taktiki vəziyyətlərdə mühitə uyğunlaşması, döyüşün aparılmasında və birliklər arasında koordinasiyaya nail olunması idi.

– Keçirilən təlimlərdən anlayırdıq ki, gözlədiyimiz an üçün hazırlıq gedir, - deyə Zəfər Yusibov xatırlayır. – 30 ildə düşmənin qurduğu istehkamları yarmaq asan olmayacaqdı. Ancaq o torpaqlar öz sahiblərini gözləyirdi. Həm də bizə diş qıcayanlara gücümüzü göstərməliydik. Ali Baş Komandanın kimlər üçünsə gözlənilməz, bizim üçünsə hər an gözlədiyimiz qərar qəbul etməsi ordumuza və xalqımıza fürsət vermişdi...

Fürsətdən lazımınca yararlanmaq artıq hərbçilərimizin öhdəsinə düşürdü. Zəfərgilin zəfər yolu Allahın lütfü ilə 44 günə aydınlığa qovuşdu. Dağ ətəklərindən yuxarıdakı düşmən mövqelərinə doğru irəliləmək çətin olsa da (çünki düşmən möhkəmləndiyi strateji nöqtələri ağır silahlarla qoruyurdu), Koroğlu yüksəkliyi istiqamətində aviasiyanın hücumu və ondan bir qədər sonra artilleriyanın sərrast atışları nəticəsində pərən-pərən düşən erməni quldurlarını görmək ondan ötrü ayrı bir zövq idi.

Sonra “Canavar”, “Elşən” və “Camış” postlarının alınmasında da Daxili Qoşunların hərbi qulluqçuları misilsiz rəşadətə imza atdılar. Həmin nöqtələri geri almaq üçün Azərbaycan əsgəri yüngül atıcı silahlarla tanka, topa qarşı döyüşürdü, içindəki inam hissi onu irəli aparırdı.

Polkovnik Zəfər Yusibov daha sonra dedi:

- Düşmən strateji mövqelərdə yerləşmişdi. Müşahidələr apararaq gördüyü hədəfi dərhal vura bilərdi. Amma uzun illər təlimlərdən qazandığımız təcrübələr bizə imkan verirdi ki, həmin müşahidəsindən yayınaq və düşməni gözləmədiyi anda vurub məhv edək. Hadrut uğrunda gedən döyüşlər də çətin oldu. Ora yüksək dağlarla və sıx meşələrlə əhatələnmiş strateji məntəqədir. Rəhbərimiz tərəfindən tapşırıq verildi və Hadruta daxil olduq. Döyüşlər bir neçə gün davam etdi. Hadrutu, ətraf yüksəklikləri, kəndləri azad edərək düşmənlərdən təmizlədik. Fəxr edirəm ki, Hadrutda Azərbaycan bayrağını dalğalandırmaq mənə qismət oldu.

Onlar sonra Tuğ kəndi istiqamətində irəlilədilər və Zəfər orada yaralandı. Şəxsi heyətə psixoloji təsir etməməsi üçün heç kəsə bildirmədi. O, 3 gün yaralı vəziyyətdə döyüşdü. Taborla birlikdə pusquya düşəndə isə şəxsi heyətin öz hazırlığı, digər silahdaşlarının fədakar köməyi sayəsində xilas oldular. Səhhətində problem yarandığı üçün Zəfər məcburən geri qayıtdı. Son nəticədə Azərbaycan xalqının və ordusunun gücünü düşmən üzərində nümayiş etdirmək igidlərimizin tarixi qələbəsi ilə möhürləndi.

Müharibədən sonra Vətən Müharibəsi Qəhrəmanı Zəfər Yusibov Daxili Qoşunların hərbi hissələrindən birinə komandir təyin edilib.



## Oğuz yurdunun çağdaş qəhrəmanı

**Onlar 7 noyabrda qayalıqlara dırmaşaraq yüngül silah-sursatla Şuşaya daxil oldular. Tezliklə erməni qoşunlarını şəhərdən qovdular və 8 noyabrda Prezident, Ali Baş Komandan İlham Əliyev Silahlı Qüvvələrimizin Şuşanı işğaldan azad etməsinin müjdəsini dünyaya yaydı.**

Hamımız sevinclə “Gözün aydın, Azərbaycan!” dedik, eyni zamanda, Şuşa şəhidlərinin ruhuna dualar oxuduq. Onlardan biri də Dövlət Sərhəd Xidmətinin (DSX) kiçik giziri Nail İbrahimli idi. Şuşaya zəfərlə qalxmaq arzusuna nail olan igid Nailin ruhu həmin gün əbədilik göylərə uçdu.

Nail 1994-cü ildə qəhrəman türk boylarından olan oğuzları öz adında yaşadan rayonun Xaçmaz kəndində anadan olub. Qazan xandan, Uruzdan üzübelə igidləri ilə tanınan bu qövm “Kitabi–Dədə Qorqud” dastanlarından başlayaraq, əsrlərcə öyülüb və yeni nəsilləri də hünər, şərəf, şan ənənəsinə sadiq qalıblar. Elə Birinci Qarabağ müharibəsində Tofiq Oğuz “Azərbaycan Qarabağı” batalyonunu yaradaraq işğalçılara qarşı vuruşub və 1992-ci il mayın 8-də həlak olub. Xaçmaz kəndindən olan Koroğlu Rəhimov isə həmin il iyulun 3-də Ağdərədə şəhadətə qovuşandan sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.

Nail İbrahimli Tofiqlə Koroğlunun ölümündən 2 il sonra dünyaya gəlsə də, ağlı kəsəndən hər birinin igidliyi haqqında söylənən hekayətlərdən ruhlanıb və onlara bənzəməyi arzulayıb. Tale elə gətirib ki, o da Tofiq Oğuz kimi Qarabağda təmsil etdiyi rayonun adını ucaldıb, Koroğlu Rəhimov kimi şan-şöhrət qazanıb və Vətən Müharibəsi Qəhrəmanı kimi şərəfləndirilib.

Savaş günlərinin qəhrəmanı güclü güləşçi kimi də tanınıb. Yarışlarda qələbələr qazanaraq, bir neçə medal və diplom alıb. 2012-2013-cü illərdə müddətli hərbi xidmətdə olub, 2019-cu ildən etibarən isə DSX tərkibində müddətdən artıq hərbi qulluqçu kimi xidmət etməyə başlayıb. 3 ay Xudat şəhərindəki “N” saylı hərbi hissədə kurs keçdikdən sonra elə orada hərbi vəzifəsinə davam edib. Daha sonra öz istəyi ilə Qazax rayonuna köçürülüb. Üzvü olduğu kəşfiyyat qrupunun təlimlərində fərqlənən böyük hünərli kiçik gizir çox keçmədən xüsusi təyinatlılar bölüyünə qəbul olunub.

Şanlı 44 günlük Vətən müharibəsi zamanı kəşfiyyatçı Nail İbrahimli Füzuli, Xocavənd, Hadrut, Qubadlı, Zəngilan istiqamətində aparılan əməliyyatlarda cəsurluq və şücaət göstərib. Cəbrayılda Xudafərin körpüsünə, Zəngilan və Qubadlı şəhərlərinə, Ağbənd qəsəbəsinə ilk girənlərdən olub.

Nailin döyüşdə istifadə etdiyi silahlar “Hücum” və “PK” pulemyotları idi. Kəşfiyyat tapşırıqlarını yerinə yetirəndən sonra məhz bu silahlarla düşmənin başına od yağdırır, kimsəni hədəfdən yayınmağa qoymurdu. Şərti adı “Nöqtə” olan əməliyyatı buna olan çoxsaylı misallardan biridir. Onun qoşulduğu növbəti və son əməliyyat Şuşanın mərkəzində olur. Sağ və sol istiqamətdən edilən əks-hücumda, tapşırıqda deyildiyi kimi, öndə əməliyyat aparan və əmrin mühüm hissəsini icra edən Nail İbrahimli orada gərgin döyüşlər zamanı yaralanan xidmət yoldaşını xilas edərkən düşmən gülləsinə tuş gəlir və əbədiyyətə qovuşur.

Onun anası Aqibət xanım 26 yaşında həyata əlvida demiş oğlunun aqibətindən heç də gileyli deyil. Bütün rayonda qüruru, mərdanəliyi ilə seçilən Aqibət xanım oğlu ilə bağlı suallara həmişə təmkinlə cavab verir, xoş xatirələrə dalır. “Nail uşaqlıqdan çox qoçaq və cəsur idi, qorxu bilməzdi. Eyni zamanda, çox zarafatcıl, səmimi, mehriban, mərd uşaq olub, sözünü deməkdən çəkinmirdi... Nail Şuşada qayalara dırmaşıb düşmənlə əlbəyaxa döyüşən oğullardan biri olub... İndi ondan yadigar qalan üçrəngli bayrağımıza, bir də xatirələrə, şəkillərə sığınıb yaşayır, oğlumu yaşadıram”.

Oğuz şəhər 3 nömrəli məktəb-liseyə Vətən Müharibəsi Qəhrəmanı Nail İbrahimlinin adı verilib. Oğuz rayonunun Xaçmaz kəndindəki küçələrdən biri də onun adını daşıyır.

## Cəng meydanında adlarını doğruldan igidlər

### *Cavanşir, Babək, Beyrək, Elxan... kimi oğulların hünəri Qarabağ dastanının səhifələridir*

**Dədə Qorqud öygülərindən üzübəri oğul övladlarına mərdlik, rəşadət rəmzi olan adlar qoymaq xalqımızın yaşatdığı gözəl ənənələrdəndir. Bu adlar körpələrə sanki bir avans olaraq verilir ki, böyüyüncə layiqli igidlər kimi tanınmağı özlərinə borc bilsinlər.**



Onlar da Vətən uğrunda canından, qanından keçən 3 minlik “şəhidlər ordusu”-nun mərdanə əsgərləri omaqla, dünyaya göz açanda valideynlərinin qoyduğu adı yüzə-yüz doğruldublar. Tarixi “Zəfər yürüşü”müzün 5 illiyi ərəfəsində bütün şəhidlərimizə Allahdan rəhmət diləməklə, həm də şəxsiyyət vəsiqələrindəki adları ilə silahlanaraq döyüşlərə atılan qəhrəman hərbçilərimizi ehtiramla yad edirik.

Müdafiə Nazirliyinin Vətən müharibəsində şəhid olmuş hərbi qulluqçuların əlifba sırası ilə hazırlanmış siyahısında adı 1-ci yazılan şəhid əsgər Nail Abakarov döyüşlərdə də düşmən üstünə öndə gedərək, Böyük Zəfərə çatmaq arzusuna nail olub. Laçın və Suqovuşanda şəxsi şücaət göstərib.

Əsgər Aslan Abbasov cəmi 2 həftə döyüşlərdə olsa da, əsl aslan kimi vuruşub. Oktyabrın 10-da Suqovuşanda əbədiyyətə qovuşub. Şəhid Şirəli Adilov da onun kimi. MAHHXHQ əsgəri Elcan Abbasov mərdanə ölümü ilə elcanlı ərən olduğunu sübut edib. Onun Elşən, Elxan, Elvin, Elgün, Eltac, Elnur, yəni “elə bağlı”, “xalqını sevən”, “doğma elə, yurda sadiq” mənaları daşıyan taledaşlarını da sevgilərlə yada salırıq.

Baş gizir İntiqam Abbasov adını son nəticədə torpaqlarımızı işğal edən nankor qonşularımızdan qisas alanların sırasına inamla yazdırıb. O həm məlum Aprel döyüşlərində iştirakı, həm də Vətən müharibəsinin 3-cü günü Füzulidə şanlı ölümü ilə daşıdığı adı doğruldub. Onunla bərabər, çavuş İntiqam Ağayevi də ehtiramla xatırlayırıq.

Adı “çarə tapmaq”, “qurtuluş”, “xilas” mənalarını ifadə edən Nicat Abdullayev isə Füzulidə torpaqlarımıza nicat bəxş edərək həlak olub. Rəşad və Rəşid Abdullayevlər, Rəşad Ağayev və Rəşad Aslanov eyni amalla rəşadət göstəriblər. Baş leytenant Babək Allahverdiyev, eləcə də gizirlər Babək Abışov və Babək Aslanov isə öz hünərləri ilə ölməz xalq qəhrəmanımız - Xürrəmilər hərəkatının başçısı Babəkin ruhunu şad ediblər. Cavanşir və Cavidan Ağayevlər, Beyrək Aydəmirov da adlarını həmin missiya ilə doğruldublar.

Qüdrət Adişov və Müzəffər Ağalıyev isə “Dəmir yumruq”da birləşərək, döyüş şücaəti ilə qüdrətli və müzəffər ordumuzu layiqincə təmsil ediblər. İldırım Ağayev kiçik çavuş idi, amma noyabrın 7-də Şuşaya hücum zamanı böyük rəşadət göstərib, düşmənin başında şimşək kimi çaxıb. Baş gizir Şahin Allahyarov, gizir Laçın Alıyev, əsgərlər Tərlan Atakişiyev və Şahin Ağayev isə Qarabağ səmasında inamla qanad çalıb və son dəfə qıy vuraraq əbədiyyət zirvəsinə ucalıblar.

Digər bir şəhidimizin adı Atəş olub. Füzulidə şəhadət qazanan Atəş Aslanov sərrast atəşləri ilə düşmənlərin həyatını aslan kimi parçalayıb.

Şanlı “Zəfər yürüşü”ndə kiçik çavuş Mətləb Zamanov Cəbrayılın, Hadrut qəsəbəsinin və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə sığındığı səngərlərdən yağıların başına od yağdıraraq, mətləbinə yetib və qısa ömür əmanətini əbədiyyətə qovuşdurub. 44 günlük tarixi qisas yürüşü Rəşad, Elşad və Azad Zeynallılar üçün də adlarını doğrultmaq üçün əsl fürsət olub. Sadiq Zeynalov isə hərbi andına adına tam uyğun sadiqlik nümayiş etdirib və Qubadlının uğrunda qanlı savaşda igidliklə həlak olub.

...Biz bu anım qeydlərimizdə yalnız soyadları əlifbanın ilk - “A” və son - “Z” hərfləri ilə başlayan, özü də adına layiq yaşamış Vətən müharibəsi şəhidlərimizi sadaladıq. Onların qarşısında möhtəşəm “Zəfər uvertürası”nın yığcam etüdləri ilə baş əydik. Amma “A”dan “Z”yə qədər yüzlərlə digər ölməz şəhidimizin də xatirəsini eyni minnətdarlıqla anır və deyirik: “Bizdən ayrı düşənlərə borcumuzdur bu ehtiram!”.

## “Cəsur Vətən oğlu”

**Mədəniyyət Nazirliyi “Respublika Xatirə Kitabı” Redaksiyası Vətən uğrunda həlak olan şəxslərin xatirələrini əbədiləşdirmək məqsədilə silsilə kitablar hazırlayır. Həmin kitablardan biri də Vətən müharibəsi şəhidi Babək Namazova həsr olunmuş “Cəsur Vətən oğlu” kitabıdır.**

Kitab “Respublika Xatirə Kitabı” Redaksiyasının “Bakı Xəbər” qəzeti ilə birgə layihəsi əsasında “Şəhidlər ölməz, Vətən bölünməz!” silsiləsi üzrə işıq üzü görüb. Kitabda “Heç kim unudulmur, heç nə yaddan çıxmır!” prinsipi əsas götürülüb, Babək Namazovun qəhrəmanlığı, Vətən sevgisi, şərəfli döyüş və mənalı həyat yolu qismən tədqiq olunub.

Bu kitabda, həmçinin xalqımızın qəhrəman övladı Babəkin döyüşlərdə göstərdiyi şücaət və hünər barədə müəyyən fikirlər səsləndirilib, qəhrəman şəhidin dastanlaşmış, tarixləşmiş adına hörmət hissi ifadə olunub.

Kitab 2025-ci ildə “Zərdabinəşr” tərəfindən buraxılıb, 208 səhifədir. Kitabda Babək Namazovun rəngli şəkilləri də əks edilib.

“Cəsur Vətən oğlu” kitabının Şəmkir rayonunun Əliyaqublu kəndində və Bakı Ekspo Mərkəzində təqdimatları olub.




Adıçəkilən kitabın müəllifi şair-tədqiqatçı, “Respublika Xatirə Kitabı” Redaksiyasının əməkdaşı Hikmət Məlikzadə, “Şəhidlər ölməz, Vətən bölünməz!” layihəsinin rəhbəri “Respublika Xatirə Kitabı”nın Baş redaktoru Nəzakət Məmmədovadır.

*Səhifəni hazırladı:*
*Əli NƏCƏFXANLI*
*XQ*

*Üzeyir Hacıbəyli – 140*

# Milli oyanış dövrünün ilk lüğəti

## *Yurdsevər ziyalının bu kitabı qiymətli dilçilik qaynağıdır*

**Prezident İlham Əliyevin Üzeyir Hacıbəylinin 140 illiyinin qeyd edilməsi haqqında 3 fevral 2025-ci il tarixli Sərəncamında qeyd olunur ki, Üzeyir Hacıbəyli çoxşaxəli yaradıcılığı ilə Azərbaycan mədəniyyəti tarixində silinməz iz qoymuş qüdrətli şəxsiyyətlərdəndir. Ömrünü cəmiyyətin mədəni tərəqqisinə həsr edən fədakar ziyalının yüksək mənəvi-estetik dəyərə malik irsi Azərbaycan xalqının XX əsrin ilk onilliklərindən vüsət almış ədəbi-mədəni intibahının aynasıdır.**




Üzeyir Hacıbəylinin çoxşaxəli elmi-publisistik və ictimai-siyasi fəaliyyətində dilçilik və lüğətçilik sahəsində çalışmaları da önəmli yer tutur. Onun 22 yaşında tərtib etdiyi "Türk-rusi və rusi-türk lüğəti"nə o zaman ana dilimiz öz adı ilə - türk dili adlandığından belə ad qoyulub. Lüğətin üz qabığında başda "Üzeyir bəy Hacıbəyov" yazılıb. Kitabın adından sağda isə qeyd edilib: "Qəzetə və cəraidlə məşğul olanlardan ötrü pək lüzumlu bir dəstur-ül əməldir" ("Qəzet və jurnalla məşğul olanlardan ötrü çox lazımlı bir təlimatdır" - E.M.). Qarşı tərəfdə isə "Mətbuatda müstəməl (işlənən - E.M.) siyasi, hüquqi, iqtisadi və əsgəri sözlük" yazılıb.

94 səhifədə əsas hissə, 30 səhifədə əlavədən ibarət olan kitab, eyni zamanda, izahlı lüğət olaraq dəyərlidir. Üzeyir bəy zəruri hallarda siyasi-hüquqi, hərbi terminlərin dilimizdə izahını vermişdir. Bunların bir çoxu bu gün də əhəmiyyətlidir, yazıda və canlı ünsiyyətdə işlədilməyə layiqdir. Lüğətin tərtibində sözlərin mənşəyi və hansı dilə aid olduğunu bildirən işarələrdən istifadə edilməsi də təqdirəlayiqdir. Məsələn, "lat" - latınca, "nem" - almanca, "ə" - ərəbcə və s.

Lüğətə Məhəmməd Əmin Rəsulzadə qısa, lakin maraqlı ön söz yazmışdır. "Naşir tərəfindən" adlı ön sözün mətnini olduğu kimi təqdim edirik: *"Mətbuat artdıqca, tərəqqi və təkamül meydan aldıqca camaat arasında mədəni müəssisə və işlər çıxdıqca ədəbiyyat da bollaşıb yeni istilahat və ibarət meydana gəliyor. Üsuli-məişət dəyişdikcə tərzi-lisan da dəyişir. On il bundan irəlidəki sözlərlə bugünkü əhval və ouza (vəziyyət - E.M.) ifadə ediləmir. Avtomabil olduğu yerdə öküz arabası ilə ektefa etmək (irəli getmək - E.M.) olmaz. İştə Rusiyənin köhnə tərzi - idarə əsiranəsini darbadağın edən hərəkəti - əhraranə mətbuata vəsih (geniş - E.M.) bir meydan açdı. Həmin fürsətdən istifadə edib qəzetə və jurnala həsrət olan müsəlman aləmi birdən-birə müxtəlif qəzetə və jurnallar ilə doldu.*

*Qəzetəçi və jurnalçılarımız müxtəlif məsələlərdən, iqtisadi, siyasi, ictimai və qeyri məsələlərdən bəhs açıb da camaatın anlayamayacağı yeni istilahat və ibarət estemalına məcbur oluyorlar. Hörmətli qəzetə oxuyan vətəndaşlarımıza bu yolda bir müavinəti-mənəvi etmək üçün qələm arğadaşımız Üzeyir bəy Hacıbəyov həzrətlərinin bu qəsd ilə tərtib verdiyi qamus (lüğət - E.M.) türki-rus və rusi-türkisinin nəşrinə eğdam etdik.*

*Bu qamus həm rusca bilən, həm də rusca bilməyib fəqət türkcə oxuyan qarelərə (oxuculara - E.M.) yarayır. Türki qismində bəzi çətin sözlərə müfəssəl izahat və bəyanat verilmişdir. Hal-hazırda türk lisanına girmiş ərəb və fars əlfazından (sözlərindən-E.M.) başqa bir qədər əcnəbi Yuropa təbirati-siyasiyəsi daxil olduğundan həman təbirlər dəxi əcnəbi tələffüzü ilə yazılıb mənası bəyan edilmişdir və bir çoxunun, ədibi-şəhir (məşhur ədib - E.M.) Əli bəy Hüseynzadə tərəfindən dilimizə tətbiqi lüzumlu görünən ərəb və ya farsca müqabili yazılıbdır. Məsələn, mütləqiyyət, ictimaiyyət, zəmindarlıq və sairə.*

*Hər halda bu qamus qəzetə oxuyub yazanlara yaxşıca bir dəstur-əməldir".*

***

Üzeyir bəyin lüğətə daxil etdiyi ictimai-siyasi-hərbi istilahlar onların mənası ilə yanaşı, eyni zamanda, əhəmiyyətli öyrədici və təlqinedici keyfiyyətlərə malikdir. Bunu bəzi nümunələr əsasında gözdən keçirək:

**Absolyutizm (lat.)** – bir dövlət tərzi-idarəsidir ki, onun padşahı mütləqdir, yəni külli-ixtiyar sahibdir, mütləqiyyət, idarəye - mütləqe **- Absolyutizm**

**Ettehade - eslam (ə)** – yəni islam tayifələrinin birləşməsi və özlərini hər bir təcavüzatdan mühafizə və müdafiə etmək arzusu – **Panislamizm.**

**İdarəye-mostəğele** – dövlətdə bir cürə tərzi - idarədir ki, camaat üçün qanun və nizam tərtib etmək padşah ilə vüzəranın əlində olub cəmaət bu işə qatışmayır. Padşah dəxi külli ixtiyar sahibidir - **Samoderjavie, Avtokratiya**

**İdarəye - məşrutə** – padşahın ixtiyaratı küll və hədsiz olmayan bir dövlətdir ki, orada ümum məmləkət üçün qanun qoymaq və nizamlar tərtib etmək camaat vəkillərindən ibarət olan "Məclisi-məbusan"ın həll və müzakirəsi ilə olub, padşah dəxi təsdiq ediyor. Vəzirlərdən ibarət olan hökumət isə bu qanun və nizamnamələri icra ediyorlar və özləri də Məclisi-məbusan qabağında məsul və cavabdehdirlər – **Konstitusionnıy obraz pravleniya.**

**Oportunizm (lat.)** – İdareye - məşrutəsi olan dövlətlərdə tərəqqipərvər firqələrin öz məqsədlərinə yetişmək üçün hər bir fürsət ilə nəfbərdar olmaq qabiliyyətləri, fürsət yabi – **Opportyunizm.**

**Ultimatum** – birilərinə qoyulan axır ki və qəti şərt, şərti- axir **- Ultimatum.**

**Qomandan (lat.)** – qoşun böyüyü – **Komandir.**

**Kontr-admiral** – Bəhriyə mirlavası (general mayora mütabiq olan dərya mənsubu)

**Onbaşı (fr.)** – böyük saldat – **Yefreytor.**

**Patrul (fr.)** – gecələr şəhəri gəzmək üçün qoşundan təyin olunan qaravul, gecə gəzməsi - **Patrul.**

**Parol (fr.)** – müharibədə öz adamlarını düşməndən seçmək üçün qaravul əsgərlər arasında istemal olunan işarəli sözlər, esme - şəb - Parol Təxliyə (ə.) – boşaltmaq; işğal edilmiş bir şəhəri, ya səngəri qoşundan xali etmək – **Evakuasiya.**

**Təmamiyyəte mülkiyə (ə)** – bir dövlətin yer və mülk cəhətincə öz tamam halında olması – **Territorialnaya çelosnost.**

**Hüriyyəti şəxsiyye** – hər kəsin hər bir ədalətsiz və naşayəstə (nalayiq - E.M.) təcavüz və təhqirdən azad olması – **Svoboda Liçnosti.**

Lüğətdə sosializm, sosial demokratiya, sosial revolyusion firqəsi, taktika, strategiya, şovinizm və sair ifadələrin sadə dildə anlamı və rusca qarşılığı diqqətçəkicidir. Məsələn:

**Şovinist** – yalançı vətənpərəst.

**Qanuni Əsasi** – Məşrutəli ya cümhuriyyətli dövlətdə əsas və bünyad (təməl - E.M.) ettexaz edən bir qanundur ki, dövlətin tərzi təşkilini və idarəsini bildirir **- Konstitusiya**

**Müsavat** – bərabərlik, hamının hüquqca bərabər olması – **Ravenstvo.**

**Millət (ə.)** bir adət və dildə olan cəmiyyət – **Nasiya**

**Qala bəyi (tr.)** – şəhər hakimi – **Qradonaçalnik.**

Üzeyir bəyin lüğətində xüsusilə, siyasi terminlərin izahı və şərhinə diqqət yetirilmiş, sadə, anlaşıqlı dildə mürəkkəb ifadələrin açılışı təqdim edilmişdir. XX əsrin əvvəllərində çar Rusiyası və Avropa ölkələrinin mətbuatında tez-tez işlədilən siyasi, ictimai ifadələrin əhalinin müxtəlif təbəqələrinin maariflənməsinə yardımçı olmasına təşəbbüs edilmişdir. Bu lüğətdəki tərcümə və izahlar dövri mətbuatda dərc olunan ictimai-siyasi məzmunlu məqalələri, siyasi mətləbləri anlamaqda xalqa əhəmiyyətli dərəcədə kömək etmişdir.

**Bir neçə nümunəyə nəzər salaq:**

**Məclisi məbusan** – idarəye məşrutəli dövlətlərdə ən ali Məclisdir ki, onun üzvləri məmləkətin əhalisi tərəfindən intixab olunmuş vəkil və ya məbuslardır (nümayəndələr - E.M.). Məclisin vəzifəsi vəzi - qəvanin və idareye - məmləkətdir. Bütün məmurlar – vəzirdən tutmuş ən kiçik məmura qədər bu Məclis qabağında məsul və cavabdehdirlər. Məclisi məbusanın üzvləri əhalinin öz içindən olub da bütün ehtiyacati - həyatiyəyə dürüst aşna olduğundan əhalinin həyat və məişətinə müvafiq qəvanini-vəz etməklə məmləkəti xodsər (özbaşına - E.M.) məmurların keyfi idarələrindən azad ediyor və bununla həm dövlətin şövkətinə və həm də əhalinin rifahına kömək yetirirlər – **Parlament.**

**Qosmopolitizmə (yun.)** vətən oğlu olmayıb "dünya oğlu" olmaq əqidəsi; Bu əqidə sahibləri bəzən kütahbinlikdən (darbaxışlılıq- E.M.) ibarət olan vətənpərvəri və millətpərəstliyi kənara atıb ümum insanlara bir nəzər ilə baxmağı əfsəl bilirlər və ümum insanları üfuğğət və qardaşlığa dəvət ediyorlar. İnsaniyyət pərvəri – **Kosmopolitizm.**

**Qomunizm (lat.)** – Əgər qədim zamanlarda "qomunizmə"dən ibarət əmval və əmlakın və hətta arvadların da bir adama məxsus olmayıb hamıya mütəalləğ olması idi, yəni məlum bir mal və əmlaka və hətta bir arvada da hamı şərik idi, indi "qomunizmə" odur ki, heç bir kəsin xüsusi bir şeyi olmayıb hər bir şeyi dövlətə və yainki müstəqil və muxtar olan cəmiyyətlərə mütəalləğ olsun ki, bunlar da hər kəsə bərabərcə bir şuğl (iş, məşğulluq - E.M.) versin və hər kəs hər bir məhsulatdan musəvi surətdə mustəfid (bərabər surətdə faydalansın - E.M.) olsun. "Kommunizmə"nin "sosializm"dən fərqi odur ki, "sosializmə" ancaq bir sərmayə və alat kəsbin və istehsalının ümumiliyini tələb etdiyi halda, "qomunizmə" hər bir şeyin ümumiliyini tələb ediyor, iştirakiyyət – **Kommunizm.**

**Makiyavellizm** – hiylə və təzvirli (saxtakarlıqlı - E.M.) olan politika, əxlaq və ədəbi nəzərə almayıb hiylə və politika ilə dolanma - **Makkiavelizm.**

**Mühafizəkar** – mövcud olan qaydaları saxlamağa və yeni heç bir şeyi qəbul etməməyə çalışan adam. Dövlətin köhnə tərzi -idarəsini hifz etmək arzusunda olan – **Konservator.**

**Militarizmə (lat.)** – qoşunbazlıq, dövlətlərin qoşunlarını gücləşdirib də bu novilə sülhü-ümumini saxlamaqlarıdır ki, bunun artıq məsarif və məxarici olduğuna görə əhaliyə iqtisad cəhətincə zərərdir **- Militarizm.**

**Sesessionist (lat.)** – bir dövlətin əhalisinin müxtəlif dillərinə görə qisimlərə bölünməsi tərəfdarı – **Sesessionist.**

**Separatizmə (lat.)** – muxtariyyət – tabe olduğu bir dövlətdən ayrılmaq və öz-özünə olmaq arzusu, siyasət və ya dinə ayrılmaq həvəsi – **Separatizm.**

**Demokratiya (yun.)** – dövlətdə bir günə tərzi idarədir ki, bütün hökumət və ixtiyarat, məsələn, qəvanin qoymaq, dövlət varidatını lazım olan yerlərə məsrəf etmək və məmləkəti dolandırmaq işləri padşahda olmayıb ümum millət əlində olur. Millət öz nümayəndə və vəkilləri vasitəsilə istər hökuməti-mərkəziyyəni, istər hökuməti-məhəlliyəni əlinə alıb özü məmurlar təyin ediyor. Məmurlar dəxi ən böyüyündən ən kiçiyinə kimi hər vəxt millət qabağında məsul olurlar - İdarəye-amiyə **- Demokratiya.**

Lüğətin sonunda yer almış rusca-türkcə hissəsində izahsız şəkildə A-dan Э-yə 1000-ə yaxın çoxişlənən ifadənin rus dilindən türkcəyə (azərbaycancaya) qarşılığını verməklə, Üzeyir bəy yazarlara və oxuculara asanlıqla maraqlandıqları, yaxud yazılışı və tələffüzünü bilmək istədikləri sözün türkcə qarşılığını tapmağı, izahını bilmək istədikdə isə lüğətin də həmin türkcə sözü tapıb geniş mənasını oxumağı asanlaşdırmışdır.

Ümumən, Üzeyir bəyin zəngin və çoxsahəli irsinin tərkib hissəsi kimi "Türk-rusi və rusi-türk lüğəti" dilçilər, politoloqlar, hüquqşünaslar, hərbçilər üçün indi də öz dəyərini saxlayan maraqlı izah və şərhlərlə zəngindir və geniş tədqiq və təbliğ edilməyə layiqdir. Bunun üçün əski əlifbada tərtib edilən bu lüğətin indiki latın qrafikalı Azərbaycan əlifbası ilə nəşr edilməsi dahi mütəfəkkirin anadan olmasının 140 illiyinə daha bir töhfə olardı.

*Eynulla MƏDƏTLİ,*
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun direktor müavini,*
*tarix elmləri doktoru*

## Naxçıvan xəbərləri

# Şəhid övladları ilə görüş



**Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli şəhid övladları ilə görüşüb.**

Səlahiyyətli nümayəndə qeyd edib ki, Azərbaycan ərazi bütövlüyü və suverenliyini tam bərpa edib. Bu gün işğaldan azad edilən torpaqlarımızın hər birində geniş quruculuq işləri aparılır. Bütün bunlar Vətən müharibəsində mətanətlə döyüşmüş şəhid və qazilərimizin hünəri, qəhrəmanlıqları sayəsində əldə olunub. Şəhidlərin əmanətlərini göz bəbəyi kimi qorumaq xalqımızın mənəvi borcudur. Dövlətimiz bundan sonra da şəhid ailələrinə diqqət və qayğısını əsirgəməyəcək.

Fuad Nəcəfli yeni başlamış tədris ilində uşaqlara yaxşı təhsil almağı, atalarının öz qanları ilə əmanət qoyub getdikləri doğma Vətənin gələcəyi naminə layiqli vətəndaş kimi böyüməyi tövsiyə edib.

Səmimi keçən görüşdə şəhid övladları Vətənə və şanlı zəfərimizə həsr olunmuş şeirlər söyləyiblər. Sonda hədiyyələr təqdim edilib.

# Naxçıvan şəhərinin başçısı BMT Forumunda




**Bu günlərdə Cenevrə şəhərində Birləşmiş Millətlər Təşkilatının Avropa İqtisadi Komissiyasının təşkil etdiyi 5-ci Merlər Forumunda Azərbaycanı Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Cabbar Musayev təmsil edib.**

Soydaşımız beynəlxalq təşkilatların və ekspertlərin iştirakı ilə şəhərlərin dayanıqlı inkişafı, ekoloji davamlılıq, yaşayış mühitinin yaxşılaşdırılması və şəhər idarəçiliyinin müasir modelləri mövzularında keçirilən müzakirələrdə və fikir mübadiləsində iştirak edib, Azərbaycanın şəhər təsərrüfatının modernləşdirilməsi sahəsində əldə edilən uğurlar barədə məlumat verib.

Azərbaycan Respublikasının BMT-nin Cenevrə şəhərindəki bölməsində və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi Qalib İsrafilov da forumda iştirak edib.

# Xalq artisti NDU-nun fəxri professoru oldu



**Naxçıvan Dövlət Universitetində Xalq artisti Mənsum İbrahimovun 65 illik yubileyi çərçivəsində qədim diyarda konsert proqramı ilə çıxış edəcək heyətlə görüş keçirilib.**

Rektor Elbrus İsayev "Şöhrət" və "Şərəf" ordenli professor Mənsum İbrahimovu 65 illik yubileyi münasibətilə təbrik edib, sənətkarın Azərbaycan muğam sənətinin inkişafında müstəsna xidmətlərindən bəhs edib. Elbrus İsayev Xalq artistinin dəfələrlə univeritetdə qonaq olduğunu xatırladıb, ali məktəbin Konservatoriyasında ustad dərsləri keçdiyini diqqətə çatdırıb.

Xalq artisti Mənsum İbrahimov görüşdən məmnunluğunu ifadə edib, Naxçıvanla yaradıcılıq əlaqəsini bundan sonra da davam etdirəcəyini bildirib.

Sonda Elbrus İsayev Mənsum İbrahimova "Naxçıvan Dövlət Universitetinin Fəxri professoru" diplomunu təqdim edib.

***

**Heydər Əliyev Sarayında Muxtar Respublika sənətsevərlərinə NDU-nun təşkilatçılığı ilə Xalq artisti Mənsum İbrahimovun yubileyinə həsr olunmuş konsert proqramı da təqdim olunub.**

Konsertdə dövlət, hökumət rəsmiləri, Ali Məclisin deputatları, şəhid ailələri, qazilər, mədəniyyət və incəsənət xadimləri, şəhər ictimaiyyəti iştirak ediblər.

*Səbuhi HƏSƏNOV,*
*XQ-nin bölgə müxbiri*



# Ədəbi gəncliyin parlayan “Ulduz”u

**Azərbaycan ədəbi mühitində yarım əsrdən artıq tarixi olan ədəbi gəncliyin “Ulduz” jurnalı nəsillər arasında mənəvi körpüdür. Onun səhifələrində milli ruh, ədəbi yaddaş və müasir düşüncənin nəfəsi birləşib. Hər dövrün “Ulduz”u oxucusuna yeni ideyalar, fərqli baxışlar, cəsarətli qələmlər tanıdıb. İndi isə bu ədəbi ənənə sərhədləri aşır, Azərbaycan ədəbiyyatının beynəlxalq aləmdə nüfuzunu artırır.**

“Ulduz” jurnalı 9-12 oktyabr tarixlərində İstanbulda, Rami Kitabxanasında təşkil olunan 16-cı Beynəlxalq İstanbul Dərgi Festivalında təmsil olunur. Festival mədəni dialoqun, müxtəlif ideyaların mü-






zakirə meydanıdır. Azərbaycan ədəbiyyatının inkişafına, gənc yazarların yetişməsinə, yaradıcılığın təşviqinə xidmət edən jurnalın beynəlxalq tədbirdə iştirakı həm də milli mətbuat tariximiz üçün böyük önəm daşıyır.

Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin rəhbərliyi, “DƏRGİBİR” Birliyi və Xaricdə Yaşayan Türklər və Əqrəba İcmaları tərəfindən təşkil olunan beynəlxalq sərgidə iştirak edən Azərbaycan Yazıçılar Birliyinin üzvü, şair-publisist Həyat Şəmi bildirdi ki, bu cür tədbirlər, sözün və ideyanın sərhədləri aşmasına, müəlliflərlə oxucular arasında yeni əlaqələrin qurulmasına imkan yaradır:

- “Ulduz” jurnalının təqdimatında onun yaranma tarixi və fəaliyyət yolu barədə iştirakçılara ətraflı məlumat verdik. Qeyd etdik ki, jurnal 58 illik zəngin tarixə malikdir və yarım əsrdən artıqdır ki, Azərbaycan ədəbi mühitində fəal iştirak edir. Bu müddət ərzində “Ulduz” həm də yeni ədəbi cərəyanların formalaşması və bədii təcrübələrin paylaşılması baxımından əvəzsiz xidmət göstərmişdir. Təqdimat zamanı jurnalın ədəbi-bədii proseslərə təsirini iştirakçılara çatdırmağa çalışdıq, eləcə də “Ulduz”un inkişaf mərhələlərində mühüm dəyişikliklər, yaradıcılıq uğurları və diqqətçəkən hadisələri ətraflı izah etdik.

Bu il sərgidə mühüm yeniliklər olub, Avropa ölkələrində dərc olunan türkdilli jurnalların çoxsaylı stendlərinə yer ayrılıb. Sərgidə iştirak edən Bolqarıstanın Filibe şəhərində nəşr olunan “Nöbettepe” jurnalı ilə “Ulduz” jurnalı arasında dostluq və əməkdaşlıq yaratmaq qərarı aldıq. Qeyd etmək lazımdır ki, “Nöbettepe” Bolqarıstanda nəşr edilən yeganə türkdilli dərgidir və Balkanlarda türk ədəbiyyatının tanıdılmasında xüsusi rol oynayır.

Sərgi günləri boyunca bu əməkdaşlığın bütün təfərrüatları iştirakçılara təqdim ediləcək və jurnalın beynəlxalq platformada əlaqələrinin inkişafı diqqət mərkəzində olacaq.

Ümumiyyətlə, Azərbaycan ədəbiyyatı beynəlxalq aləmdə fəlsəfi dərinliyi və lirik zənginliyi ilə seçilir. Əvvəllər xarici oxucular ədiblərimizi tez-tez fars və ərəb yazıçıları ilə qarışdırır, milli ədəbiyyatımızın fərqli poetik ənənələrini ayırd edə bilmirdilər. Lakin indi Azərbaycan şairləri tanınır, əsərləri oxunur. Xarici oxucular Azərbaycan poeziyasının tarixi-mədəni konteksti ilə maraqlanırlar. Məsələn, Nizaminin, Füzulinin yaradıcılığında mənəvi dərslər, eləcə də Nəsimi yaradıcılığında əqidə və inancın yüksək fəlsəfi təqdimatı xarici oxucular tərəfindən böyük maraqla qarşılanır.

***Fidan ƏLİYEVA***
***XQ***

# TÜRKSOY-la əməkdaşlığın hədəfləri



**Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY arasında keçirilən görüşdə Türk Dövlətləri Təşkilatı Dövlət Başçıları Şurasının Qəbələ sammitində müəyyənləşdirilən yeni vəzifələr və qarşıya qoyulan tapşırıqların icrası ilə bağlı fikir mübadiləsi aparılıb.**

Mədəniyyət naziri Adil Kərimli TÜRKSOY-la əməkdaşlığın ildən-ilə genişlənərək yeni məzmun qazandığını qeyd edib. Nazir Türk dünyasının zəngin mədəni irsinin qorunması və təbliği istiqamətində həyata keçirilən ortaq layihələrin əhəmiyyətini vurğulayıb.

TÜRKSOY-un baş katibi Sultan Rayev Azərbaycan Mədəniyyət Nazirliyi ilə əməkdaşlıqdan məmnunluğunu ifadə edib, əlaqələrin möhkəmlənməsində göstərilən dəstəyə görə Prezident İlham Əliyevə dərin minnətdarlığını ifadə edib.

Tərəflər təşkilatın cari il üzrə fəaliyyət istiqamətləri barədə fikir mübadiləsi aparıb, birgə layihələrin icrasında qarşılıqlı əməkdaşlığın əhəmiyyətini bir daha vurğulayıblar.

Görüş zamanı TÜRKSOY-da Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin yeni təyin olunan nümayəndəsi Vüqar Məmmədov baş katibə təqdim olunub.

***XQ***

*Dünənə ehtiram – sabaha salam!*

# Çövkənin yeni həyatı


*Tarixin dolaylarında itib-batan bu oyun Şəkidə dirçəldilib*

**Müasir polo oyununun türklərə məxsus tarixi versiyası olan çövkən at üstündə ağacdan hazırlanmış xüsusi alətlə oynanılır. Tədqiqatçılar bu oyunun orta əsrlərdə Azərbaycanda geniş yayıldığını qeyd edirlər.**

2013-cü ildə "Qarabağ atı ilə oynanılan çövkən oyunu" UNESCO-nun Qeyri-maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilmişdir. Qeyd etmək lazımdır ki, Azərbaycanda çövkən oyununun inkişafına Şəki rayonu da böyük töhfələr vermişdir. Tanınmış maarifçi Əhməd Nəbiyevin yazdığına görə, 1892-ci ilə qədər Şəkinin Xoçik adlanan ərazisində at yarışı keçirilmiş, ölkədə ilk atçılıq zavodu Ədil xan tərəfindən elə məhz Şəkidə yaradılmışdır.

İlisi sultanlığı ilə Şəki xanlığının ortaq varisi olan Ədil xan 1907-ci ildə Rusiyada təhsilini tamamlayıb vətənə qayıdır və atası Əhməd xanın “Əhmədbəyli” adlı mülkündə at zavodunun əsasını qoyub. Bir neçə ildən sonra isə at zavodunu Daşüz kəndinə köçürüb. 1914-cü ilə qədər, yəni 7 il ərzində zavodda olan atların sayı 300-ü keçib. Birinci Dünya müharibəsinin başlanğıcında çar hökumətinin tələbi ilə ordu üçün zavoddan əvvəlcə 60, sonra 40, daha sonra isə 25 at aparılıb. 1920-ci ildə müharibə və qarışıqlıq nəticəsində itən və həlak olan atlardan sonra isə zavodda qalan 160 at sovet hökumətinə təhvil verilib. Ədil xan özü isə bu zavodda 1928-ci ilə qədər müdir vəzifəsində işləyib.

Zavod 1953-cü ilə qədər fəaliyyət göstərir və atların sayı 800-ə çatıb. 1953-cü ildə zavoda məxsus atların 300-ü seçmə Qarabağ cinsinin artırılması üçün Ağdam Atçılıq zavoduna verilib. Qalanları isə kolxozlar arasında bölüşdürülüb və zavodun yerində camışçılıq kolxozu yaradılıb.

Azərbaycan Prezidentinin müvafiq fərmanı ilə 2006-cı ildə keçmiş at zavodunun yerində Şəki Atçılıq Turizm Mərkəzi yaradıldı. Mərkəz 2007-ci ilin fevralından Respublika Atçılıq Turizm Mərkəzinin filialına çevrildi. 2006-cı ildən Respublika Atçılıq Turizm Mərkəzinin Daşüz kəndində yerləşən Şəki filialında çövkən üzrə "Prezident kuboku" keçirilib. Həmin ildə çövkənlə məşğul olan və yarışlarda iştirak edən cəmi 3 Azərbaycan rayonu vardısa, 2014-cü ildə onların sayı 20-ə çatıb.

2025-ci ildə isə Şəki III MDB oyunları çərçivəsində çövkən yarışlarına ev sahibliyi edib. Keçmişdə at yarışlarının keçirildiyi Xoçik yaxınlığında yerləşən Şəki stadionunda 6 ölkənin komandası qələbə uğrunda mübarizə apardı.

Tarix təkrarlanır. Yuxarıda verilən məlumatlar çövkən oyunları üçün Şəkinin səbəbsiz yerə seçilmədiyini bir daha təsdiq edir.

***Zəminə RƏSULOVA,***
***Turizm Agentliyi Qoruqları İdarəetmə Mərkəzinin elmi işçisi***

# Tolerantlığın ünvanı – Azərbaycan





**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov ABŞ-da “İnkişaf üçün yolların qurulması: Dini etiqad azadlığının regional, milli və beynəlxalq mühafizəsi” mövzusunda keçirilən 32-ci Beynəlxalq Hüquq və Din Simpoziumunda çıxış edib.**

Azərbaycanda dini etiqad azadlığı, multikulturalizmin təşviqində cəmiyyətin rolu və dövlət siyasətinin qarşılıqlı əlaqəsi barədə danışan komitə sədri vurğulayıb ki, ölkəmizdə din dövlətdən ayrıdır, bütün dini icmalara hörmət və həssaslıq nümayiş etdirilir. Bu yanaşma Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı siyasət və təşəbbüslərdə, o cümlədən məscid, kilsə, sinaqoqların bərpası və inşası da daxil olmaqla, dini ibadət yerlərinə göstərilən dövlət dəstəyində təzahür edir.

Ramin Məmmədov qeyd edib ki, Qarabağda ciddi zərər görmüş dini abidələrimiz üçün yeni mədəni və mənəvi dirçəliş dövrü başlanıb. Bərpa işləri yalnız İslam irsinin deyil, eyni zamanda regionun zəngin və çoxşaxəli tarixi irsini əks etdirən xristian abidələrinin də qorunub saxlanmasına xidmət edir.

İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov bildirib ki, Azərbaycan müsəlman Şərqində dünyəvi hüquq sistemini qəbul edən və fərqli din, məzhəblərə mənsub şəxslərə bərabər imkanlar yaradan ilk ölkədir - müsəlmanlar, xristianlar və yəhudilər sülh, qarşılıqlı hörmət şəraitində birgə yaşayırlar.

***XQ***

# Payızın söz simfoniyası

**Bu il payız qəfil gəldi. Havalar birdən soyudu. Bir neçə dağlıq rayona qar da yağdı...**

Artıq hər yerdə sarışın payızın nəfəsi güclü duyulur. Yarpaq tökümü günbəgün sürətlənir. Külək torpağa səpilmiş sarı, narıncı yarpaqları sovurub küçələrin kənarlarına yığır, çala-çuxura və dərələrə doldurur. Dağların sinəsində xına rəngli naxışlar getdikcə çoxalır. Zirvələr qar və duman paltarını çoxdan geyinib. Köçəri quşlar qatar-qatar uzaqlara uçurlar...

Yadınızdadırsa, keçən il payız sanki addım-addım, sakit gəlmişdi. Nə şıdırğı yağışı vardı, nə də dumanı-çəni. Demək, hər il yaydan sonra eyni fəsli yaşasaq da payızlar müxtəlif olur. İnsan ömrünün fəsilləri də belədir.

Günəş batmağa az qalmış göyün üzünü bürüyən buludlar qəfil biri-birinə dəydi, ildırım çaxdı. Astaca əsən külək yağış havası gətirdi. Az keçməmiş iri damcılar torpağı, bağ-bağçanı, evlərin damını, küçələri döyəcləməyə başladı. İnsanlar harasa tələsirlərmiş kimi sürətlə addımlamağa başladılar. Küçələr getdikcə boşaldı. Uşaqlar və qocalar pəncərədən çölə boylandılar. Quşlar yuvalarına doğru uçdular. Yağış yağdıqca hər yana sərinlik və həzinlik yayıldı...

Yay boyu gözlədiyimiz bu yağış təkcə yaz-yay günlərində toza bələnmiş dünyanı yuyub təmizləmədi, eyni zamanda, gərilmiş əsəbləri də yumşaltdı.

Payız yağışları şəhərdə bəzən narahatlıqla qarşılanır. Çünki güclü yağışdan sonra bir sıra küçələrdə gölməçələr yaranır, köhnə məhəllələrdə sel suları mənzillərə dolur, nəqliyyatın hərəkəti çətinləşir.

Kənd əhalisi isə yağışa baxıb, “göydən bərəkət yağır”, – deyir. Ona görə ki, bu yağışdan sonra hər yan yenidən yaşıllaşır, Günəş gülümsədikcə otlar boy atır. Ağaclar, ən azından, bir buğum da olsa ucalırlar. Anadolu türkləri buna görə payızı son bahar adlandırırlar.

Payız yaradıcı insanlar üçün ilham qaynağıdır. Bu çağlarda poeziyamız aşıb-daşır. Hətta mənim kimi şair olmayanlar da bəzən şeir qoşmaq həvəsinə düşürlər.

Bir azdan Günəş yenidən gülümsəyir. Yağışda yuyunmuş təbiət cilvələnir. Payız, belə demək olarsa, ilin ahıl çağıdır. Payız həm də rənglər qalereyasıdır. İnsanın həyata baxışlarında da isə işıq və rənglərin rolu böyükdür. Bir anlığa göz önünə gətirin ki, hər gün pəncərədən yaşıl zəmi görürsünüz. O zaman arzu və ümidləriniz çoxalacaq, yaşamaq istəyiniz artacaq. Əgər eyni zaman kəsiyində digər pəncərənizdən baxıb saralmış, külək əsəndə dalğalanan sünbül dənizini görsəniz tamam başqa duyğuları yaşayacaqsınız...

Payız bolluq-bərəkət fəslidir. Bir tərəfdə ilboyu yetişdirilən məhsul yığılır, digər tərəfdə gələn ilin məhsulu üçün təməl qoyulur. Bağın-bağatın meyvəsi dərildikcə əyilmiş budaqlar başlarını qaldırırlar. Budaqlarda qalan tək-tək narlar, heyvalar, üzüm salxımları torpağa ilk qırov düşəndən sonra daha şirəli və dadlı olur. Bizlərdə bu məhsullara "quş payı" deyirlər.

Dərilmiş meyvələr çeşidlənir, bir hissəsi pay verilir, digər hissəsi qışa azuqə kimi xüsusi yerlərə yığılır, qalanı da bazarlara çıxarılır. Buna görə də indi bazarlar hər cür yerli meyvələrlə aşıb-daşır.

Biz uşaq olanda payız yağışından sonra Küdrü düzündə göbələk mövsümü başlayardı. Geniş düz böyük bostana bənzəyərdi. Biz göbələyi səbət-səbət, vedrə-vedrə yığıb gətirərdik. Göbələyin sac üstündə qızardılması daha dadlı olur. Mən şəhərə oxumağa gedəndən sonra gördüm ki, bazarlarda xüsusi istixanalarda yetişdirilmiş göbələk də satılır, ondan müxtəlif salat və xörəklər hazırlayırlar. Amma kim nə deyir desin, təbii göbələyin dadı tamam başqadır.

Təəssüf ki, indi o bolluq yoxdur. İlk yağışdan bir neçə gün son illər əkib-becərdiyim nar ağaclarının arasında dayanmışdım. Torpaqdan şirə, Günəşdən rəng alan narlar necə də böyümüşdülər. Elə sevinirdim ki... Ömrünü yazı-pozuya sərf eləmiş yaşlı biri üçün, bu, böyük sevincdir.

Məlum ki, yurdumuzda çeşid-çeşid meyvələr yetişir. Hər birinin də öz dadı-tamı var. “Kim hansı meyvəni daha çox sevir?” soruşsaq hərə birinin adını çəkəcək. Hamı haqlıdır. Axı, tut, ərik, şaftalı, gavalı, alma, armud, üzüm, heyva, qoz, fındıq və digər meyvələr hər biri ləzzətinə, qidalılığına görə zəngindir. Hər biri də neçə dərdin təbii dərmanıdır (Hələ bu torpaqda yerişən dərman bitkilərini sadalamırıq). Amma bu meyvələr arasında narın öz yeri var. Belə ifadə eləmək olarsa, nar yurdumuzun rəmzidir. Nar ağacı çiçəkləyəndə sanki bağ qırmızı şiləyə bürünür. Baxdıqca adamın ürəyi “atlanır”. Bağı seyr etməkdən yorulmursan – gözün, könlün sevinir. Çiçəklər meyvəyə dönüb böyüdükcə budaqlar torpağa baş əyir. Nar təkcə meyvə kimi yeyilmir, onun şirəsi ləzzətlə içilir. Bundan əlavə, nardan müxtəlif xörəklərin hazırlanmasında, şirəsindən mədə-bağırsaq xəstəliklərinin müalicəsində istifadə olunur. Qədim misirlilər nar şirəsini Yer üzünün möcüzəsi adlandırmışlar. Xalqın diliylə desək, nar girən evə xəstəlik girməz.

Payızda görüləsi mühüm işlərdən biri toxum səpinidir. İndə ölkəmizin əksər rayonlarında gələn ilin məhsulu üçün min hektarlarla sahəyə buğda və arpa toxumu səpilir. Vaxtında səpilmiş toxumlar yağışdan sonra yaxşı göyərir və bitkilərin vegetasiyası normal gedir. Gələn ildə çörəyimizin bol olması üçün payızlıq əkinin nümunəvi aparılması çox vacib aqrotexniki tədbirlərdən biridir.

İndi dağların qoynundan keçən yolların kənarlarında qoyun sürülərinə, naxırlara tez-tez rast gəlmək olur. Yaylaq mövsümü başa çatdığından heyvanlar qışlama üçün arana sürülür. O gün Ağsuyun ətəyində çobanlar-



dan biri ilə söhbət etdik. Həmsöhbətimiz yaylaq-qışlaq sahələrinin ilbəil azaldığını, təbii otlaqlardan müxtəlif məqsədlər üçün istifadə edildiyini dilə gətirdi. Onu da əlavə etdi ki, indi kəndli heyvan saxlamaq üçün "dəridən-qabıqdan" çıxır. Çünki kəndlərin çoxunun örüş sahələri yoxdur.

Günlər qısaldıqca və havalar soyuduqca daha çöldən əl-ayaq kəsiləcək. Bəzən leysan, bəzən də qar yağacaq. Bunu nəzərə alaraq qışa hazırlığın gedişinə diqqət etmək mühümdür. Hər sahədə qışa hazırlığın vaxtında görülməsi şaxtalı, qarlı qışı itkisiz keçirməyə imkan verəcək.

Payız həm də toylar, bayramlar dövrüdür. Oktyabr və noyabr aylarında biri-birindən mühüm tarixi günləri qeyd edəcəyik. Elimizdə-obamızda toy şənlikləri də bu günlərdə daha geniş və yaddaqalan keçirilir.

Dostlar, ömrünüzün və ilin payızı xoş və bərəkətli olsun!

***Səməd MƏLİKZADƏ,***
***yazıçı-publisist***

*Böyük Qayıdışın akkordları*

# Xanyurdu övladlarını qoynuna alır





**Qarabağda Zəfər yürüşünün 5-ci ildönümünün 12-ci günündə Xocalı rayonunun Xanyurdu kəndi də köç sevinci yaşadı. “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı” çərçivəsində ölkəmizin müxtəlif şəhər və rayonlarında müvəqqəti məskunlaşmış 69 nəfərdən ibarət 18 ailə ovaxtkı sakinlərin 33 il əvvəl ölüm sədlərini aşaraq tərk etdikləri Xanyurduya qayıtdı.**

Qarşılanma mərasimində çıxış edən Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin rəsmiləri sakinləri doğma kəndlərinə dönmələri münasibətilə təbrik etdilər. Yeni tikilmiş fərdi yaşayış evlərinin açarları yurda qayıdan növbəti ailələrə təqdim olundu. Qeyd edildi ki, Xanyurduda sakinlər üçün müasir standartlara uyğun fərdi evlər inşa olunub, onların rahat yaşayışı üçün bütün lazımi tədbirlər görülüb, müasir infrastruktur yaradılıb.

Məcburi köçkünlük həyatı sona çatan sakinlər illərdən sonra doğma yurdlarına qovuşmağın sevincini “Xalq qəzeti”nin oxucuları ilə bölüşdülər, hərtərəfli qayğı ilə əhatə olunduqlarına görə dövlət başçısına, torpaqlarımızı işğaldan azad edən qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirdilər, bu yolda canlarından keçən şəhidlərimizi böyük ehtiramla yad etdilər.

Xatırladaq ki, bu günədək Xocalı rayonunun Xanyurdu kəndinə 237 nəfərdən ibarət 69 ailə köçürülüb. Böyük Qayıdış prosesi mərhələli şəkildə davam etdirilir. Azad edilmiş torpaqlarda bərpa-quruculuq işləri gündən-günə genişlənir. Həyata keçirilən genişmiqyaslı layihələrin nəticəsi olaraq uzun illər Vətən həsrəti ilə yaşamış keçmiş məcburi köçkünləri daşıyan köç karvanları əzəli yurd yerlərinə istiqamət götürür, insanlar sevinc və qürur içində daimi yaşamaq üçün geriyə, doğma şəhər və kəndlərinə qayıdırlar.

Hər yeni köç isə yenidən qurulan, gündən-günə abadlaşan, gözəlləşən Qarabağın, Şərqi Zəngəzurun dərdlərinə məlhəm olur. Bu yerlərdə həyat yenidən canlanır, evlər insan nəfəsi ilə hərarətlənir.

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***
**Xocalı**




# AHİK beynəlxalq təcrübədən faydalanır

**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) Əmək və Sosial Münasibətlər Akademiyasında Beynəlxalq Əmək Təşkilatı (BƏT) İşçilərin Fəaliyyəti Bürosunun (ACTRAV) Avropa və Mərkəzi Asiya üzrə rəhbəri Serqius Qlovaskas ilə görüş keçirilib.**



AHİK-in sədri Sahib Məmmədov çıxış edərək əmək bazarında baş verən dəyişikliklərə uyğunlaşmaq üçün təhsilin inkişafı və beynəlxalq əməkdaşlığın əhəmiyyətini vurğulayıb. Konfederasiya sədri Akademiyanın fəaliyyətindən, cari tədris ilində 100 faizlik qəbul göstəricisindən, yeni yaradılan İxtisasartırma və Kadrların İnkişafı Mərkəzindən, keçirilən beynəlxalq təlimlərdən danışıb. Qeyd olunub ki, Akademiya Böyük Britaniyada yerləşən Peşəkar Əməyin Təhlükəsizliyi və Sağlamlığı İnstitutu (IOSH) tərəfindən beynəlxalq akkreditasiyadan keçib. Bu, dünyada əməyin təhlükəsizliyi sahəsində ən nüfuzlu təşkilatlardan biridir. Artıq Akademiya beynəlxalq səviyyədə tanınan təlimlər keçirə, bilik və bacarıqları qiymətləndirə və IOSH sertifikatları təqdim edə bilər. Bu sertifikatı alanlar yalnız Azərbaycanda deyil, dünyanın istənilən yerində peşəkar əmək təhlükəsizliyi mütəxəssisi kimi tanınır.

Tədbirdə, həmçinin AHİK və BƏT/ACTRAV-ın əməkdaşlığı çərçivəsində rəqəmsal tədris, sosial dialoq, əməyin təhlükəsizliyi, gender bərabərliyi, gənclərin və qadınların rolunun artırılması kimi prioritet istiqamətlər müzakirə olunub, həmkarlar ittifaqlarının müasir əmək bazarına uyğun modernləşdirilməsi mühüm addım kimi dəyərləndirilib.

BƏT/ACTRAV-ın Avropa və Mərkəzi Asiya üzrə rəhbəri Serqius Qlovaskas Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının fəaliyyətini müsbət dəyərləndirib, iki qurum arasında əlaqələrdən, birgə reallaşdırılan layihə və tədbirlərdən danışıb. Qarşılıqlı münasibətlərin yüksək səviyyədə olduğunu bildirən natiq əməkdaşlığın daha da genişləndirilməsi barədə fikirlərini bölüşüb.

Sonra Akademiyanın İxtisasartırma və Kadrların İnkişafı Mərkəzində professor-müəllim heyətinin iştirakı ilə mərasim keçirilib. BƏT-in Azərbaycandakı milli əlaqələndiricisi Yaşar Həmzəyev çıxış edərək iki qurum arasında münasibətlərin inkişafının əhəmiyyətindən bəhs edib, Azərbaycanda əmək hüquqlarının müdafiəsi sahəsində beynəlxalq həmkarlar ittifaqı təşkilatlarının qərar və tövsiyələrinə xüsusi önəm verildiyini qeyd edib.

Akademiyanın beynəlxalq əlaqələr üzrə prorektoru Xəyalə Məmmədova ali təhsil müəssisəsi, tədris prosesinin təşkili, tətbiq olunan yeniliklər barədə təqdimatla çıxış edib.

Görüşün sonunda AHİK və ACTRAV arasında həmkarlar ittifaqları təhsilinin inkişafı və gücləndirilməsi sahəsində Əmək və Sosial Münasibətlər Akademiyasının inkişaf etdirilməsi məqsədilə əməkdaşlıq haqqında Bəyannamə imzalanıb.

***Qabil ƏLİYEV***
***XQ***

*Sosial gündəm*

# Dövlət köməksizin arxasındadır

## *Sosial layihələr isə əsaslı və davamlıdır*

**"Azərbaycan sosial dövlətdir. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun qayğıları, onun problemləri, onun təhlükəsizliyi, onun xoşbəxtliyi dayanır", – deyən Prezident cənab İlham Əliyevin sosial sahəyə xüsusi qayğısı ölkəmizdə sosial inkişafın davamlı xarakter almasına, rifah səviyyəsinin ildən-ilə artmasına, sosial təminat sisteminin ildən-ilə güclənməsinə imkan verib.**

Növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair beş milli prioritetdən biri də “Dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət” prioriteti müəyyən edilib. Aparılan siyasət vətəndaş rifahının təminatına, həssas əhali qruplarının sosial müdafiə, o cümlədən sosial xidmətlər və reabilitasiya sistemi ilə əhatə olunmasına hədəflənib.



İqtisadi və hərbi gücünü daim artıran, qarşısına qoyduğu bütün strateji hədəflərə doğru inamla irəliləyən və bu yolda böyük nailiyyətlər, qələbələr qazanan, Cənubi Qafqaz regionunun ən sürətlə inkişaf edən ölkəsi olan Azərbaycan inklüziv sosial inkişaf və sosial təminat sahəsində böyük irəliləyişlər yolundadır.

Bunun əməli təsdiqi olaraq, 2018-2025-ci illərdə 5 böyük sosial islahat paketi həyata keçirilib. Bu islahatların illik əlavə maliyyə tutumu 7,6 milyard manat təşkil edib və 4 milyon nəfəri əhatə edib. Nəticədə, qeyd edilən dövrdə minimum əməkhaqqı 3,1, minimum pensiya 2,9, orta aylıq pensiya isə 2,6, sosial müavinət və təqaüd ödənişlərinin həcmi isə 5 dəfə artıb. Ünvanlı sosial yardımın orta məbləği 2,5 dəfə artaraq 435 manata, yaşayış minimumu 65 faiz artaraq 285 manata, ehtiyac meyarı isə 2,2 dəfə artaraq 285 manata yüksəlib.

1,1 milyon insanı əhatə edən pensiya təminatının ildən-ilə güclənməsi bu sahəyə ayrılan vəsaitlərin ciddi artımı ilə nəticələnir. Məsələn, ötən il də pensiya ödənişlərinə əvvəlki ilə nisbətən 13,4 faiz çox olmaqla 6,5 mlrd. manat yönəldilib. 2025-ci ildə isə pensiyaların ödənilməsi xərcləri üçün 7 mlrd. 210 mln. 530 min manat nəzərdə tutulub ki, bu da ötən il müvafiq istiqamətdə ayrılan vəsaitdən 710 mln. manat (11 faiz) çoxdur. Ümumən 2018-ci ildən etibarən pensiyaların ödənişi üçün ayrılan illik vəsait 2 dəfə artıb.



Eyni zamanda, pensiya təminatının əlçatanlığı üçün son illər mühüm addımlar atılıb. 1 yanvar 2019-cu il tarixindən vətəndaşların 2006-2018-ci illər üzrə fərdi hesablarında ən kiçik məbləğdə belə pensiya kapitalı olduqda, onlara 25 il sosial sığorta stajı hədiyyə edilməklə pensiya hüququ qazanmağa imkan yaradılır. Həmçinin təkcə son iki ildə güzəştli şərtlərlə erkən dövrdə yaşa görə pensiya hüququ verən peşə və vəzifələrin siyahısına 65 yeni peşə və vəzifə əlavə edilib. Hazırda həmin siyahıda 5 il erkən pensiyaya çıxmaq imkanı verən 4 mindən çox peşə və vəzifə, göstərici əhatə olunub.

Eləcə də güzəştli şərtlərlə pensiya təyin edilən şəxslər üçün gözlənilən pensiya ödənişi müddəti son illər kişilər üzrə 204-dən, qadınlar üzrə 234-dən 144-ə endirilib. Həmçinin pensiya qanunvericiliyinə ötən il edilmiş dəyişikliyə əsasən vətəndaşların bir neçə pensiya hüququ olduqda sənədlər toplayıb müraciət etmələrinə ehtiyac qalmadan onlara elektron sistem üzərindən, proaktiv qaydada daha yüksək olan pensiya növü təyin edilir.

Digər tərəfdən, dövlət başçısının fərman və sərəncamlarına əsasən, 2018-2025-ci illərdə icra olunan sosial islahat paketləri çərçivəsində sosial ödənişlərdə ciddi artımlara nail olunmaqla, sosial təminat sisteminin əhatəliliyi də təmin olunub. Həmin illərdə 10 yeni sosial ödəniş növü (o cümlədən müharibə veteranları, Vətən Müharibəsi qəhrəmanları, birinci dərəcə əlilliyi olanlara və əlilliyi olan uşaqlara qulluq edənlər, işləməyən pensiyaçı elmlər doktorları və fəlsəfə doktorları üçün Prezidentin aylıq təqaüdü, uşaqları övladlığa və himayəyə götürən şəxslər üçün aylıq müavinət və s.) təsis edilib. Bu da Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən təqaüd və müavinətlə təmin olunanların sayının əhəmiyyətli dərəcədə artmasına imkan verib.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə yaradılmış DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi isə Cənubi Qafqazda ilk dəfə olaraq kifayət qədər çoxşaxəli fəaliyyət sahələrini əhatə edən ən böyük inklüziv yaradıcılıq və inkişaf məkanıdır. Burada əlilliyi olan şəxslərin, şəhid ailələri üzvlərinin, valideyn himayəsindən məhrum uşaqların və digər həssas qrupların yaradıcı potensialının inkişaf etdirilməsi, onların sosial inteqrasiyası üçün mühüm işlər aparılır. Mərkəzdə mütəmadi olaraq inklüziv yaradıcılıq tədbirləri də təşkil olunur. Eyni zamanda, inklüziv teatr ƏSA Teatrı ilə fəal əməkdaşlığının nəticəsi olaraq son illər Mərkəzdə hazırlanan bir çox inklüziv tamaşalar böyük maraqla qarşılanıb. DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin İsmayıllı və Bərdə rayonlarında filialları da açılıb. Bu da bölgələrdə həssas qrupların həm məşğulluğuna, həm də müxtəlif peşə və yaradıcılıq sahələri üzrə bacarıqlarının inkşafına dəstək verir və inklüzivliyin inkişafına xidmət edir.

Sosial cəhətdən həssas əhali qruplarının sosial xidmətlər sisteminə əlçatanlığını artırmaq sosial sifarişlər əsasında bölgələrdə günərzi qayğı xidmətləri şəbəkəsi genişləndirilir. Son aylarda icra olunan layihələr əsasında 30 şəhər və rayonda günərzi qayğı mərkəzləri fəaliyyətə başlayıb və burada həssas qruplardan olan 900 uşağa xidmət göstərilir. Həmçinin sosial şəbəkə səhifələrində eşitmə və nitq məhdudiyyəti olan şəxslər üçün “Surdo-İnfo” və “İnklüziv cəmiyyət üçün birlikdə öyrənək!” adlı layihələr həyata keçirilir. Eyni zamanda, yeni inklüziv layihə kimi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi iyul ayında “Səsiniz olaq” adlı onlayn surdotərcümə xidmətinə başlayıb. Azərbaycanda ilk dəfə olaraq fəaliyyət göstərən bu xidmət eşitmə və nitq məhdudiyyətli şəxslərin müraciətlərinin üçüncü tərəfə (dövlət qurumları, özəl sektor və s.) ötürülməsini təmin edir. Beləliklə, həmin şəxslərlə işarət dili bilməyən tərəflər arasında “virtual körpü” funksiyası yerinə yetirilir. Yəni vətəndaş videozəng və ya mesaj vasitəsilə operatorla əlaqə saxlayır, operator tərcüməçi funksiyasını icra edərək, müraciətin istiqamətinə uyğun üçüncü tərəflə əlaqə yaradır, surdotərcümə vasitəsilə onlayn kommunikasiya qurulur. Layihə inklüziv mühitin dəstəklənməsi, eşitmə və nitq məhdudiyyəti olan şəxslərlə cəmiyyətin digər üzvləri arasında sosial ünsiyyət maneələrinin aradan qaldırılması, informasiya mübadiləsinin təmin edilməsi məqsədi daşıyır.

Aktiv məşğuluq özünüməşğulluq proqramlarında əhalinin həssas qruplarından olan vətəndaşlara üstünlük verilir. Dünya Bankının maliyyə dəstəyi ilə icra olunan “Məşğulluğa dəstək layihəsi" çərçivəsində ötən dövrdə kiçik biznesə çıxış imkanı qazanan şəxslərin bir hissəsi də məhz əlilliyi olan şəxslər, digər həssas qruplardır. Son illər əmək qanunvericiliyində edilmiş dəyişiklik isə qadınların əmək bazarında iştirak, məşğulluq imkanlarının artmasına imkan verir. Ümumilikdə, əmək, məşğulluq, sosial müdafiə sistemində inklüzivliyin təmin olunması bu sistemin ümumi fəaliyyət prinsiplərindən biridir.

***Mustafa KAMAL***
***XQ***

*Xuntaçıların məhkəməsi*

# Ermənistan hərbi cinayətlərdə xarici muzdlulardan da istifadə edib



**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə, müharibə, soyqırımı kimi cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası oktyabrın 9-da davam etdirilib.**



Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında hərbi əməliyyatlara cəlb edilmiş muzdlu döyüşçülər barədə sənədlər elan olunub. Azərbaycanın müxtəlif dövlət qurumlarından daxil olmuş sənədlər elan olunub, müvafiq fotoşəkillər nümayiş etdirilib.

2020-ci il oktyabrın 24-nə dair sənədə əsasən, Ermənistan 44 günlük Vətən müharibəsi zamanı döyüşlərdə verdiyi itkiləri kompensasiya etmək üçün Azərbaycanın işğal olunmuş suveren ərazilərində Ermənistan silahlı qüvvələrinin tərkibinə əcnəbi vətəndaşları cəlb etməyə ciddi səylər göstərib. Xüsusən, Ermənistan hökuməti və üçüncü ölkələrdə olan erməni diaspor təşkilatları tərəfindən erməni icmasının üzvlərinə təcili surətdə Azərbaycanın həmin vaxt işğal altında olan ərazilərində gedən döyüşlərə qoşulmaq barədə çağırışlar edilib.

Xarici dövlətlərdə isə xüsusi bilet satışı kampaniyaları təşkil olunub, toplanış məntəqələri təyin edilib. Nəticə etibarilə Azərbaycanın həmin vaxt Ermənistanın işğalı altında olan suveren ərazilərində gedən hərbi əməliyyatlarda Fransadan, ABŞ-dan, Suriyadan, Rusiya Federasiyasından və digər ölkələrdən olan əcnəbi döyüşçülər iştirak edib. Hərbi əməliyyatlara “VoMA” (İrəvan şəhərində fəaliyyət göstərən hərbi təlim mərkəzi), ASALA və digər terror təşkilatları da cəlb olunublar.

Başqa bir sənədə əsasən, “VoMA” təşkilatı Ermənistanın sabiq prezidenti Serj Sarkisyan və ona yaxın şəxslərlə, eləcə də ASALA terror təşkilatının fəal üzvlərindən olan Alek Yeniqomşyan ilə yaxın dostluq əlaqələri saxlayan Vladimir Vartanov tərəfindən yaradılıb. Təşkilatın hərbi təlimləri qış aylarında Ermənistanın Cermux və Dilican rayonlarında, yay aylarında isə Azərbaycanın vaxtilə işğal altında olmuş Kəlbəcər rayonunun Keşdək kəndi və Ermənistanın Bjni kəndindəki dağətəyi ərazilərdə təşkil olunub.

Hərbi təlimləri Ermənistan vətəndaşları Vardan Enoqyan, Samvel Qalstyan, Baqrat Beqlaryan, Artak Baqratyan, Levon Qevorqyan, Badal Safaryan, Qor Melkonyan, Qareqin Baqdyan, Spartak Hovanessyan keçiriblər. Qrup rəhbəri Qevorq Qriqoryan, təşkilat üzvlərinin yerləşdirilməsinə cavabdeh Edqar Arşakyan, qida məsələlərinə cavabdeh Qoş Qalstyan, ümumi təlimatçı Vaginak olub.

“VoMA”nın Rusiya Federasiyasında yaşayan ermənilərlə koordinasiya işini “Yerkrapa” təşkilatının Rusiya nümayəndəliyinin fəxri üzvü, Rusiya vətəndaşı Tananyan Qayane Arturovna təşkil edib. “VoMA”nın fəaliyyəti üçün tələb olunan maddi vəsait əsasən Rusiya Federasiyasından, eləcə də ABŞ-dan, Fransadan, Avstriyadan və Livandan göndərilən ianələr, həmçinin Ermənistandakı sahibkarların yardımları və iştirakçıların üzvlük ödənişləri hesabına formalaşdırılıb. “VoMA” təşkilatının rəhbəri Vladimir Vartanov 1965-ci ildə Yerevan şəhərində doğulub, 1992-ci ildə Ermənistanın sabiq müdafiə naziri Vazgen Sarkisyanın müşaviri olub, nasist Qaregin Njdenin “özünümüdafiənin vacibliyi” ideologiyasını dəstəkləyir.

Qeyd edilib ki, 2020-ci il sentyabrın 27-dən başlayaraq Suqovuşan istiqamətində gedən döyüşlərdə Ermənistan silahlı qüvvələri tərəfdən Livan, Fransa və ABŞ vətəndaşları aktiv iştirak edib. Xarici ölkələrdən gəlmiş “könüllü” dəstələrə “Baron Norik” ləqəbi ilə tanınan Livan vətəndaşının rəhbərlik edib. Onların arasında Hakop adlı Livan vətəndaşı və eyniadlı ABŞ vətəndaşı da olub.

ASALA ilə əlaqələrə malik olan Fransa vətəndaşı Gilbet Minasyan 15 nəfər erməniəsilli Fransa vətəndaşını döyüşmək üçün həmin Azərbaycanın işğal altında olmuş suveren ərazilərinə göndərdiyini bildirib, xarici ölkə vətəndaşları Artur Oqanisyan (Fransa), Stefan Keşişyan (Suriya), Gevorq Xaçyan (Livan), Armen Knyazyan (İspaniya), Aruşan Badasyan (ABŞ) və digərləri könüllü qismində Azərbaycana qarşı döyüşlərdə iştirak ediblər.

Knyazyan Armenin Arayik Harutyunyan ilə dostluq münasibətləri olub, o, 2016-cı ildə Aprel döyüşlərində də iştirak edib. 2020-ci ildə Vətən müharibəsi başlayanda əmisi oğlanları Sarkis və Norik ilə birlikdə Azərbaycanın həmin vaxt işğal altında olan ərazilərinə gələrək Ermənistan silahlı qüvvələrinin tərkibində döyüş əməliyyatlarına qatılıb. Ölümündən sonra ona qondarma rejimin “qəhrəmanı” adı verilib. Fransanın Marsel şəhərindən gəlmiş Artur Oqanisyan isə 2020-ci ildə Vətən müharibəsində Ermənistan silahlı qüvvələrinin tərkibində Azərbaycanın Hadrut və Cəbrayıl rayonları ərazilərində aparılan döyüş əməliyyatlarında iştirak edib.

Azərbaycanın vaxtilə işğal altında olmuş ərazilərində Azərbaycan Silahlı Qüvvələrinə qarşı Ermənistan silahlı qüvvələri ilə yanaşı, xarici dövlətlərdən (Suriya, Rusiya Federasiyası, İspaniya, Kanada, Fransa, Yunanıstan, Livan, Yaxın Şərq və Latın Amerikası ölkələrindən) gətirilmiş muzdlular və müxtəlif terror təşkilatlarına üzv olan döyüşçülər də iştirak ediblər. Əvvəllər belə muzdlular Ermənistanın hərbi qulluqçularına əsasən kəşfiyyat, diversiya, terror-təxribat və obyektlərin partladılması ilə bağlı təlimlər keçməyə dəvət olunsalar da, sonra birbaşa döyüşlərdə iştiraka cəlb ediliblər.

Daha sonra 2020-ci ilin iyul ayında Tovuz və Qazax rayonlarının yaşayış məntəqələrinin atəşə tutulması, 1992-ci il avqustun 27-də Goranboy rayonunun Gülüstan kəndində “QAZ-53” markalı avtomobildə 5 nəfərin öldürülməsi, həmin il sentyabrın 19-da Gülüstan kəndində azərbaycanlı sakinlərin atəşə tutulması, Yaqubova Aynur Həştərxan qızının, 1993-cü il iyunun 26-da Aslanov Firdovsi Bayram oğlunun və Aslanov Kamran Ramiz oğlunun, habelə digər şəxslərin öldürülməsi faktları üzrə sənədlər elan edilib.

Məhkəmə prosesi oktyabrın 10-da davam etdiriləcək.

***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 218 (30912) 10 oktyabr 2025-ci il, cümə



# Pir Həsən – Mərdəkanda müqəddəslər məkanı



**Ötən sayımızda füsunkar Mərdəkandan, onun qədim tarixi abidələrindən və dəniz qoxulu küçələrindən söz açmışdıq. Bu yazımızda isə həmin qəsəbədə yerləşən Pir Həsən ziyarətgahına, müqəddəs bir guşəyə nəzər salacağıq.**

Azərbaycan xalqının inanc dünyasında pir yerləri həmişə ruhun sakitləşdiyi, dərdin yüngülləşdiyi ünvan kimi tanınıb. Mərdəkandakı Pir Həsən türbəsi də belə ocaqlardandır. Bu pirin müqəddəsliyinə tapınan insanlar bura həm də öz qorxularını götürmək, bədnəzəri özlərindən uzaqlaşdırmaq üçün qədim Şərq müalicə üsulu olan "çıldağ müalicəsi" almaq məqsədilə üz tuturlar. Pir Həsənin çıldağı təkcə dini inancın bir ifadəsi deyil. Bu yer xalq təbabəti, mənəvi irs və sosial psixologiyanın bir nöqtədə qovuşduğu nadir məkanlardandır.

Pir Həsən ziyarətgahı XVI əsrə aid tikilidir. Ziyarətgahın həyətində İslamın yeddinci İmamı Musa əl-Kazımın qızı Həzrəti Xədicənin qəbri üzərində tikilən türbə və XVII əsrdə yaşamış və çıldağla (közlə müalicə) məşğul olmuş Pir Həsənin türbəsi var. Xanım Xədicənin məzarının burada olmasının maraqlı səbəbi var. Rəvayətə görə, dənizdə gəmi parçalanır və imam övladlarının hərəsi bir tərəfə gedib çıxır. Bundan sonra Bakının müxtəlif yerlərində məskunlaşan imam qızlarının məzarları da bir-birindən ayrı düşür. Həkimə xanım Bibiheybətdə, Rəhimə xanım Nardaranda, Leyla xanım Bilgəhdə, Xədicə xanım isə Mərdəkanda dəfn olunurlar. Həmçinin Azərbaycanın xeyriyyəçi milyonçusu Hacı Zeynalabdin Tağıyevin büstü də burada yerləşir. Büstün sağ tərəfində kiçik dəmir hasarlarla əhatəyə alınan türbə tikilib. Türbənin mərkəzində Axund Hacı Mirzə Əbdülturab Axundzadənin qəbri, onun ətrafında isə Hacı Zeynalabdin Tağıyev, onun qızı Sara xanımın və repressiya qurbanı olmuş Səlimxanov Zeynal bəy Ağabəy oğlunun qəbirləri var. Sonuncunun - Zeynal bəy Səlimxanovun məzarı boşdur. Çünki sovet hakimiyyətinin repressiya siyasəti qurbanlarının çoxu kimi, Zeynal bəyin də harada dəfn olunması haqqında heç bir məlumat yoxdur. Doğmaları qayınatasının və həyat yoldaşının dəfn olunduqları türbədə Zeynal bəy Səlimxanova rəmzi olaraq məzar daşı qoydurublar.

Türbənin daş işləməli çərçivəsi olan giriş qapısı üzərində kitabə yerləşdirilmişdir. İncə çərçivəyə malik həmin kitabənin verdiyi məlumata görə türbə, I Şah Abbasın hakimiyyəti dövründə hicri təqvimlə 1021-ci ildə (miladi təqvimlə 1612/1613) inşa edilmişdir. Əsas inşaat kitabəsindən aralı – sol tərəfdə yerləşdirilmiş ikinci kitabədə isə binanın ustad Nadir Əli tərəfindən tikildiyi göstərilmişdir.

Mərdəkandakı bir sıra tarixi abidələr indiyədək qorunub saxlanılır. Pir Həsən ziyarətgah kompleksinə daxil olan türbələrin də hər biri memarlıq abidəsidir və dövlət tərəfindən mühafizə olunur. Ziyarətgah Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən dini icma kimi dövlət qeydiyyatına alınıb.

İlham Əliyev 2000-ci ildə ARDNŞ-in Birinci vitse-prezidenti olarkən öz təşəbbüsü ilə türbə və ətraf ərazidə abadlıq və bərpa işləri gördürüb. 2005-ci ildə isə Heydər Əliyev Fondu "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində Bakının Mərdəkan qəsəbəsində Pir Həsən ziyarətgahında əsaslı təmir və bərpa işləri apardı. Ziyarətgahdakı məqbərə yenidən inşa edildi, ibadətgah kompleksi milli, dini ornamentlərlə bəzədildi, memarlıq abidəsi olan və dövlət tərəfindən mühafizə edilən türbənin ətraf ərazisində abadlıq işləri aparıldı, park salındı.

Ziyarətgaha gələnlər müsəlman qaydasına uyğun olaraq əvvəlcə pirin başına üç dəfə dolandıqdan sonra türbənin pilləkənləri ilə aşağı düşüb, Pir Həsənin qəbri ziyarət edirlər. Bütün ziyarətçilər türbənin içərisində Pir Həsənin qəbrini ziyarət etdikdən sonra pəncərənin yanında əyləşən çıldağçı qadına yaxınlaşır və özlərini bu qeyri-adi müalicə üsulu ilə müalicə etdirirdilər. İnsanların çoxusu inanır ki, çıldağ qorxunun və stresin qarşısını alır. Bəziləri iddia edir ki, bu müalicə üsulu qorxunu azaltmaqla yanaşı, bədnəzəri də dəf edə bilir. Hətta əsəb pozğunluğunun da qarşısını almaq effektinə malikdir.

Mən də bu qədim müalicə üsulunun təfərrüatlarını öyrənmək məqsədilə həmin çıldağçı qadınla söhbət etdim. Çıldağçı deyir: "Ölkəmizin bir sıra bölgələrində, əsasən də Bakı kəndlərində qorxugötürmə yerləri var. Ancaq ən təməl ocaq bu pirdir ki, XV əsrə aiddir. Bu müalicə üsulu da Pir Həsənin özündən gəlmədir. Pir Həsən çıldağ, yəni közlə müalicə edirmiş. O, vəfat etdikdən sonra müalicənin uğurlu olması üçün çıldağ onun türbəsində edilir. Elə bu səbəbdən də Pir Həsən ziyarətgahına xalq arasında "Çıldağ" da deyirlər.". Çıldağçının dediyinə görə, mərasim zamanı bir göy əski əvvəlcə ocaqda yandırılır, yaxud alovla qızdırılır, sonra isə ritmik olaraq bədənin müxtəlif hissələrinə – kürək, sinə, qol və bel kimi yerlərə vurulur. Bu hərəkət bir növ pis enerjinin "yandırılması", mənəvi təmizlənmə mərasimi kimi qəbul edilir. Yandırılmış göy əski bədənə toxunduqda, həm fiziki istilik, həm də mənəvi "yandırma" effekti yaradır. İnam odur ki, bu üsul insanın ruhundakı qorxu və mənfi təsirləri xaric edir.

Çıldağçı qadının söylədiklərini təsdiq edə biləcək ziyarətçi axtarırdım ki, yaşlı bir qadın diqqətimi çəkdi. Qadına yaxınlaşıb bu ziyarətgaha niyə gəldiyini soruşdum. Özünü Əhmədova Səlimə kimi təqdim edən qadın dedi: "Ay bala bura müqəddəs ocaqdır. Ziyarətə gəlmişəm. Mən Mərdəkanda yaşayıram, bu ocağa da tez-tez gəlirəm. Daha doğrusu, bu gün gəlməyimin əsas səbəbi nəvəmi gətirmişəm. Bura gətirdim ki, bütün qorxuluqların dəf olunduğu yer məhz bu ocaqdır. Biz uşaq olanda, qorxduğumuzda anam bizi bura gətirərdi. Burada "çıldağçı" qadın göy əski götürər, odun alovunda yandırar, sonra bizim bədənimizə vurardı. Sonra deyərdi ki, "İndi qorxun sənin bədəndən çıxıb, rahat ola bilərsən". Həqiqətən belə də olurdu". Bu cür hekayələr ziyarətgahın yaddaşına hopub. Bəzi insanlar, hətta deyir ki, narahat və qəmgin olanlar, hədsiz qorxu və həyəcan keçirənlər bu ayindən sonra sağalır, özlərinə gəlirlər.

Pir Həsən ziyarətgahı Abşeronun qədim mədəni irsinin ən parlaq simvollarından biridir. Burada çıldağ mərasimi əsrlər boyu davam etmiş və müasir dövrdə də yaşayır. Bu gün də ziyarətçilər, xüsusən qorxu və mənəvi gərginlik yaşayanlar, çıldağ mərasimindən istifadə edirlər. Göy əski yandırılıb bədənə vurulur, dualar oxunur və mərasim tamamlanır. Bu, həm mənəvi şəfa, həm də psixoloji rahatlıq üçün vasitədir. Ziyarətgahın işçiləri və yerli sakinlər bu ənənənin gələcək nəsillərə ötürülməsi üçün böyük zəhmət çəkir, mərasimin mənəvi dəyərini qorumağa çalışırlar. Bu qədim ənənə həm tariximizin, həm də xalqımızın mənəvi zənginliyinin bir parçası olaraq yaşamaqda davam edir.

Zaman dəyişir, insanlar dəyişir. Amma inam qalır. Bu gün müasir həyat tərzi çox şeyi dəyişsə də, belə inanclar xalqın içindən silinmir. Pir Həsən kimi müqəddəs məkanlar isə bu inamın yaşamasına və nəsildən-nəslə ötürülməsinə xidmət edir. Mərdəkana yolun düşsə, ürəyində bir nisgil, ruhunda bir rahatlıq axtarırsansa, səssizcə bu müqəddəs məkana baş çək. Daş divarların, əsrlərin nəfəsini içində saxlayan bu yer, zamanın sükutla yazdığı bir dua kimidir. Pir Həsən təkcə bir ziyarətgah deyil – o, inamın, ümidin və mənəvi dayanacağın ünvanıdır.

Son illərdə Azərbaycanın dövlət rəhbərliyi ölkənin tarixi və mədəni irsinə böyük diqqət göstərir. Müqəddəs ziyarətgahların qorunması, onların gələcək nəsillərə sağlam şəkildə çatdırılması dövlətin daim diqqətindədir. Məhz bu məqsədlə, 2025-ci il mayın 2-də Prezident İlham Əliyev imzaladığı Sərəncamla Pir Həsən ziyarətgahında təmir-bərpa işlərinin aparılması üçün 550 min manat vəsait ayırıb.

Bu addım, yalnız bir tarixi məkanın bərpası deyil, həm də xalqın mənəvi irsinə, inancına verilən böyük dəyərin təzahürüdür. Prezidentin bu qayğısı nəticəsində yaxın zamanlarda ziyarətgahda abadlaşdırma işləri aparılacaq, çıldağ da daxil olmaqla ziyarətgahın bütün guşələri yenilənəcək, ziyarətçilərin rahatlığı üçün şərait yaxşılaşdırılacaq. Bu gün ziyarətgah həm yerli sakinlərin, həm də uzaqdan gələnlərin üz tutduğu müqəddəs bir yerdir. Ziyarətgahın abadlığı, ona göstərilən qayğı buraya gələn hər kəsin ziyarətini daha mənalı və unudulmaz edəcək.

***N.ADİLQIZI***
***XQ***

## İDMAN

### Azərbaycan Kubokunda yeni mövsüm başladı

**Futbol üzrə Azərbaycan Kubokunda yeni mövsümə start verilib. Dünən I təsnifat mərhələsinin 4 oyunu baş tutub. "Rekord Arena"da keçirilən "Sheki City" – "Araz Saatlı" qarşılaşması şəkililərin 3:2 hesablı qələbəsi ilə başa çatıb.**



Binə qəsəbə stadionunda keçirilən "Dinamo" – "Kür-Araz" görüşündə də eyni nəticə qeydə alınıb. "Qaradağ Lökbatan" – "Ağdaş" görüşündə bakılılar region təmsilçilərinin qapısından 8 cavabsız top keçiriblər–8:0, "Ağstafa Gəncləri" isə "Şirvan"a minimal hesabla qalib gəlib – 1:0. Bu raundun digər qarşılaşmaları bu gün baş tutacaq.

Qeyd edək ki, qalib komandalar II təsnifat mərhələsində mübarizəni davam etdirəcəklər.

### Premyer Liqa komandaları 17,6 min manat cərimələnib

**AFFA İntizam Komitəsi Misli Premyer Liqasının VII turunun oyunlarında qeydə alınan qayda pozuntuları ilə bağlı komandaları cəzalandırıb.**



"Neftçi" komandası "Zirə" ilə matçda qeydə alınan qayda pozuntularına görə ümumilikdə 15 min 700 manat məbləğində cərimələnib. Klubun 4 üzvü sarı vərəqə aldığı üçün 700 manat, azarkeşləri tərəfindən kütləvi iğtişaş törədildiyinə görə 10 000 manat, məşqçisi Vəfadar Quliyev hakimin qərarına etiraza görə birbaşa qırmızı vərəqə aldığı üçün 5000 manat cərimə edilib. Məşqçiyə isə 2 oyunluq cəza verilib.

"Zirə"nin futbolçusu Ayron Qomisin (1 oyunluq cəza) ikinci sarıdan qırmızı vərəqə alması və VAR maşını ətrafında təhlükəsizliyin tam təmin edilməməsi səbəbindən komanda ümumilikdə 1500 manat ziyana düşüb.

Bundan başqa, "Sumqayıt" – "Turan Tovuz" oyununda ev sahibi, "Qəbələ" – "Şamaxı" matçında isə qonaq komandanın 4 futbolçusu sarı vərəqə aldığı üçün klublar hərəyə 700 manat cərimə ödəyəcək.

### Fransızlar millimizlə oyuna ciddi yanaşır

**Dünən Fransa millisinin futbolçusu Kilian Mbappe DÇ-2026-nın seçmə mərhələsində Parisdə Azərbaycan millisinə qarşı keçirəcəkləri oyundan öncə təşkil olunan mətbuat konfransında bildirib ki, diqqətimizi İslandiyaya yönəltməzdən əvvəl Azərbaycanla matça ciddi yanaşmalıyıq. Hər oyunun öz reallığı var və biz sabah qələbə qazanmalıyıq.**



27 yaşlı hücumçu yığmamızın son turunda Bakıda Ukrayna ilə heç-heçə etməsini xüsusi vurğulayıb: "Bu qarşılaşma İslandiya ilə matçdan az önəmli deyil. Məqsəd dünya çempionatına vəsiqə qazanmaqdır. Vəsiqə təmin olunana qədər mübarizə aparmalıyıq".

***Qabil YUSİFOĞLU***
***XQ***

## Ədəbiyyat üzrə Nobel mükafatçıları

**Ədəbiyyat üzrə Nobel mükafatı laureatının adı açıqlanıb. Müasir macar yazıçısı və ssenaristi, dünya ədəbiyyatında postmodern üslubun ən mühüm nümayəndələrindən biri Laszlo Krasznahorkai sözügedən sahə üzrə 2025-ci ilin laureatı elan edilib.**




Bu mükafat ona apokaliptik qorxu fonunda incəsənətin gücünü təsdiqləyən, təsirli və vizioner yaradıcılığına görə verilib.

Laszlo Krasznahorkai 1954-cü ildə Macarıstanda dünyaya gəlib. Əvvəl hüquq ixtisası üzrə oxuyub, daha sonra Budapeştdə macar dili və ədəbiyyatı üzrə təhsil alıb. O, 2015-ci ildə "Buker" mükafatına layiq görülüb, dəfələrlə Nobel mükafatına namizəd göstərilib.

Xatırladaq ki, ötən il ədəbiyyat üzrə Nobel mükafatına 54 yaşlı cənubi koreyalı yazıçı Han Kang layiq görülüb. Həmin mükafat ilk dəfə 1901-ci ildə Sülli Prüdoma təqdim edilib.

***Ə.QABİL***
***XQ***

## "Şüşəplastmas" ASC səhmdarlarının nəzərinə!

21 noyabr 2025-ci il saat 9.30-da "Şüşəplastmas" ASC-də (Bakı şəhəri, Xəzər rayonu, Buzovna qəsəbəsi, Qəsəbə küçəsi 24) "Şüşəplastmas" ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

**Ümumi yığıncağın gündəliyi:**

**1.** İdarə heyəti sədrinin seçilməsi.

**2.** "Şüşəplastmas" ASC-nin nizamnaməsinin yeni redaksiyada təsdiqi.

Səhmdarların ümumi yığıncağının gündəliyinin materialları ilə (050) 265-48-87 nömrəli telefonla əlaqə saxlayıb və ya cəmiyyətin ünvanında tanış olmaq mümkündür.

**Müşahidə şurası**

## "F.S" ASC səhmdarlarının nəzərinə!

14 noyabr 2025-ci il saat 14.00-da "F.S" ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı cəmiyyətin yerləşdiyi ünvanda keçiriləcəkdir. Növbədənkənar ümumi yığıncaqda aşağıdakı məsələlər müzakirə ediləcəkdir:

Ümumi yığıncağın gündəliyi:

1. ASC-nin bölünməsi və bölünmə balansının təsdiq edilməsi.
2. ASC-nin bölünmüş əmlakının təhvil verilməsi qaydasının müəyyən edilməsi.
3. ASC-nin bölünməsi nəticəsində yenidən təşkil olunan MMC-lərin təsis edilməsinə və nizamnamə kapitalının əmlak şəklində formalaşmasına razılığın verilməsi.
4. ASC-yə məxsus səhmlərin ləğv edilməsi və dövriyyədən çıxarılması.
5. Digər məsələlər.

Səhmdarlar gündəlikdəki məsələlərə aid sənədlərlə tanış olmaq üçün həftənin iş günləri saat 10.00-dan-13.00-dək cəmiyyətin icra orqanının rəhbərinə müraciət edə bilərlər.

Əlaqə telefonu - 012-564-25-76.

Ünvan - Bakı şəhəri, Nərimanov rayonu, Dərnəgül qəsəbəsi,1999-cu məhəllə.

**Cəmiyyətin idarə heyətinin sədri: O.V.İbrahimov**

## *HAVA*

## Bəzi rayonlarda yağış və dolu, dağlıq ərazilərdə sulu qar

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə zəif duman olacaq. Mülayim şimal-qərb küləyi gündüz arabir güclənəcək.**



Havanın temperaturunun gecə 17-19, gündüz 21-26 dərəcə isti olacağı proqnozlaşdırılır. Atmosfer təzyiqi 755 millimetr civə sütunundan 761 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət gecə 80-85, gündüz 60-65 faiz təşkil edəcək.

Azərbaycanın əksər rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin günün birinci yarısında bəzi dağlıq və dağətəyi rayonlarda arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə yağışın qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə sulu qara keçəcəyi ehtimal edilir. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturunun gecə 14-18, gündüz 22-27, dağlarda gecə 5-10, gündüz 12-17 dərəcə isti olacağı bildirilir.

***Q.ƏLİYEV***
***XQ***

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3515
SİFARİŞ 1950
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU
Çapa imzalanmışdır 00:00